
Manya Səxavətqızı



ŞAHMARIN EŞQ ƏSƏRİ

MANYA SƏXAVƏTQIZI

ŞAHMARIN EŞQ ƏSƏRİ

"TƏHSİL"
BAKI–2022



KAPİTAN
QULİYEV ŞAHMAR KƏMALƏDDİN OĞLU
07.11.1991 – 28.09.2020

MANYA SƏXAVƏTQIZI

ŞAHMARIN EŞQ ƏSƏRİ

Şahmarın vətən torpağına və yar qəlbinə
yazdığı eşqin əks düşən sətirlər sizə əmanətimdir.

Manya Səxavətqızından sevgilərlə...

BAKI–2022

Müəllif və redaktor:
Manya Səxavətqızı

S35 Səxavətqızı Manya. Şahmarın eşq əsəri. Bakı, "Təhsil", 2022, 184 səh.

Hər insan bu həyatda bir dəfə doğulur. Şəhidlər isə həm də şəhid olduqları gün əbədiyyətdə şəhid kimi doğulurlar. "ŞAHMARIN EŞQ ƏSƏRİ" kitabında Vətən müharibəsində qəhrəmanlıq salnaməsini qanı ilə tarixə yazan Quliyev Şahmar Kəmaləddin oğlunun bu dünyaya gəlişindən şəhid kimi əbədiyyətə gedişinə qədər yaşadığı və yaşatdığı bütün duyğular sətir-sətir canlanmışdır. Şahmarın vətən və yar eşqi bu kitabda tarix olmuşdur.

Kitab 2 hissədən ibarətdir. Birinci hissədə Şahmarın şərəfli ömür və döyüş yolundan, vətən eşqindən, ikinci hissədə isə Şahmar və Gülnarə eşqindən bəhs edilmişdir.

© Manya Səxavətqızı, 2022
© "Təhsil", 2022

S $\frac{4702060204}{053}$ 2022

UNUTMAYAQ Kİ, UNUDULMASINLAR!

(Ön söz əvəzi)

Vətən, torpaq, bayraq, şəhid bir xalqın mənəvi dəyərləridir. Sonuncu isə öncə sadalananlar uğrunda canından keçəndir. Elə ona görə də şəhidlər müqəddəs vətən kimi müqəddəs hesab edilirlər.

Şəhid – iki hecaya sığan sonsuzluq və ölümsüzlük... Adı gəldikdə ürəyin eyni anda həsrət və qürurla döyündüyü an...

Allahın ən böyük dəyərə layiq bildiyi şəhidlərdən yaza-yaza ruhumun şəhidləşdiyinə şahid oluram. Şəhid ömürlərindən başlayır şəhadət yolum. Sətirlərimlə hər şəhidin ömür yolunun sonuna çatdığımda mənim də ruhum şəhid olur. Elə ona görə də deyirəm ki, hər şəhidin məzarında mənim qəlbimin, ruhumun bir parçası var. Hər şəhidin ömür yolunun izinə düşdüyümdə zaman-zaman yaşanılacaqların qəlbimin qəlibinə sığmayacağını bilirdim. Ancaq bu yol dönülməz yoldur.

Bir şəhidin həyatını qələmə aldığımız zaman əslində həmin məqalənin, əsərin yazıçısı şəhidin özü olur. Şəhidin qanla vətən torpağına yazdığı əsəri yazar ağ vərəqə köçürür. Elə "ŞAHMARIN EŞQ ƏSƏRİ" kitabının yazarı da Şahmar özüdür. Mən isə o ömrü sətirlərə düzmüşəm.

Şahmarın mürəkkəbi qan, mənim mürəkkəbim isə göz yaşım oldu.

Şəhidlərin şəhid olan arzuları onların vətənə növbəti qurbanlarıdır. İlk qurban isə öz canlarıdır. Vətən ona qurban olan şəhidlərin məzarlarından başlayır. Vətəni yaşadan şəhidlər əbədiyyətdə yaşadıqları kimi vətəndə də anılaraq, tanıdılaraq yaşadılmalıdır. Hər dəfə şəhidin adı dilə gəldikdə sanki şəhid canlanır. Bizlər öz ömrümüzü yaşamaqla bərabər yaşatmaq üçün də yaşamalıyıq. Unutmayaq ki, unudulmasınlar!

Eşqlərin ən böyüyü – Vətən eşqi



Eşq – üç hərfdən yaranan sonsuzluq... İlahinin insan qəlbinə bəxş etdiyi bir duyğudur eşq. Var oluşun başlanğıcı olan bu duyğu ecazkarlığı, füsunkarlığı qədər gizəmlidir. Heç kim eşqi tam aydın şəkildə izah edə bilməz. Çünki eşq elə bir duyğudur ki, hər bir qəlbdə özünəməxsus bir məna yükü var. Bir şəhid qəlbində var olan eşq isə bir qəlbdən başlayıb həm torpağa, həm də qəlbdən-qəlbə kök atar. Ancaq bir qəlb sahibi şəhid eşqinin məqbərəsi olar.



Ömür yolunun başlanğıcı
07.11.1991-ci il

İLK NƏFƏS

Hər şey o gün başlamışdır. Əslində o günün önəmi 29 il sonra daha aydın şəkildə göründü. Heç kim o gün bir vətən xilaskarının, cənnət sakininin dünyaya gəldiyini bilmirdi.

Bir payız günü Quliyevlər ailəsində ötən günlərə bənzəməyən bir gün yaşanmışdı. Həsrət fəsli olan payızda bir həsrət sona çatmışdı. Aylardı Kamal müəllimin, Səkinə xanımın yolunu gözlədikləri Şahmar dünyaya gəlmişdi. O ilk nəfəslə bir həyat, sonsuz olan arzular və ümidlər canlanmışdı...

Şahmar ailənin ilk övladı deyildi. Şahmardan öncə bacısı Çinarə və qardaşı Amil dünyaya gəlmişdir. Şahmar isə ailənin sonuncu övlad sevinci olmuşdur.

Noyabrda günəşin buludlar ardında gizləndiyi bir gün idi. 7 noyabr 1991-ci il Quliyev Şahmar Kəmaləddin oğlunun doğulduğu gün kimi tarixin yaddaşına həkk olunmuşdur. Əslində o gün tək Şahmar yox, vətənin azadlıq ümidləri doğulmuşdur. Şahmarın dünyaya gəldiyi o payız quşlar yuvalarını dağıdan silahlardan küsüb getmişdilər. Günəşi gizlədən həmin buludlar göyün bağrını yaran atəşlər günəşə dəyməsin deyə sanki sipər olmuşdular. Sinəsi dəlik-deşik olan vətən torpağının tək ümidi elə o günəşin isitdiyi qəlblər idi. Dünyaya doğulan hər bir oğulla birgə yaşamaq ümidi, doğulan vətənə tuşlanan silah səslərini bu dəfə körpə Şahmarın qığıltısı kəsmişdi. Ömrü vətən ömrünə tən olan Şahmar ümidi, etibarı və ehtiramı bərabərində böyütmüşdü.

VƏTƏNƏ TƏN OĞUL

Səninlə doğuldu arzu, ümidlər,
Vətənə eşq ilə bağlanan oğul.
Adını eşidən hər bir vətəndaş,
Sənintək oğulla hey qürur duyur.

Qarabağ həsrəti başlayan zaman,
Sanki Qarabağa ümid doğuldun.
Bir ata-ananın övladı idin,
Vətənin, millətin övladı oldun.

Sonuncu laylanı sənə oxudu,
Vətənə tən olan oğul anası.
Vətən eşqi ilə döyündü qəlbin,
Gözlərin qəlbinin oldu aynası.

Seçildin hər zaman yaşıdlarından,
Elə bil minillik ömür sürmüşdün.
İlk dəfə dil açıb danışan zaman,
"Vətən" kəlməsini eşqlə demişdin.

ŞƏHİD OLAN ARZULAR

Uşaqlığı müharibə dövrünə təsadüf edənlərin uşaq xəyalları tam ayrı olur. Sevincləri üzlərində donur. Vətənin qara günləri çöhrələrə də yansıyır. Həyatı dərk etməyə başlayan hər uşaq kimi Şahmar da "İşğal, təcavüz, soyqırım" sözləri ilə sarsılmışdı. Bir zamanlar beşiyində yuxusunu bölən silah səslərini dünyanı dərk etdiyi zaman tanımışdı.

Şahmar düşmənin açdığı atəşlərə tuş gələn Naxçıvan Muxtar Respublikasının Naxçıvan şəhərində dünyaya göz açdığı üçün düşmənin məkrli siyasətinə körpəlikdən şahid olmuşdur. Müharibə şəraitində olan bir ölkənin körpə sakini kim bilir o zaman körpə ürəyində hansı duyğuları yaşamışdı? Şahmarın və onun kimi körpələrin neçə-neçə arzuları da düşmən güllәsinə tuş gələn vətəndə şəhid oldu.

Şahmar hər zülmət gecənin sonuna şəfəq saçan günəş kimi bir gün Azərbaycanın qaranlıq taleyinin aydınlanacağı ümidi ilə yaşayırdı. O, özü vətənə ümid olmaqda qərarlı idi.

Bir zamanlar əlində taxtadan silah düzəldib müharibə oyunları oynayan uşağın böyüyüb 30 il davam edən müharibəni bitirəcəyi o dönəmlərdə sadəcə bir arzu idi. Bir xalqın arzusunu çin edən həmin o uşağın baxışlarındakı gizəmin nə olduğu böyüdükcə aydın sezilirdi.

Uşaq vaxtı Qarabağa gedən yolların azərbaycanlı izinə həsrət qalması Şahmarın da yaşından böyük dərdi idi. Ən çox torpaq üstündə yol çəkib oyuncaq maşınlar sürən bu balaca oğlan bir gün Qarabağın yollarına iz saldı. Körpə xəyalında canlandırdığı bütün yolları bir qəhrəman kimi addımladı.

Son beşik övladlar bir az ərköyün, bir az da dəcəl olurlar. Şahmar nə qədər ərköyün olsa da, ata-anası onun ərköyünlüyündən bezməzmişlər. Arada qonşuların "Ay Kəmaləddin kişi, Allah saxlamış yenə maşının təkərini boşaldıb" şikayətini eşidən ata Şahmarı danlamaq üçün ciddiləşib ona doğru getsə də Şahmarın məsum çöhrəsi onun hirsini bir anda yox edərmiş.

Səkinə ana da Şahmarı bir ayrı sevərmiş. Əvvəllər bu sevgini Şahmarın Çinarə və Amildən kiçik olduğu ilə bağlasa da, sonradan bu sevginin başqa sevgi olduğu bəlli oldu. Ana ürəyi çox duyğuları öncədən hiss edir. Yəqin Səkinə ana da oğlunun nakam ömürlü olacağını hiss edirmiş.

Bəzən uşaqlar arasında paxıllıq duyğusu hökm sürür. Şahmarın qəlbində isə körpəlikdən bu duyğuya yer olmayıb. Uşaqlıqdan bölüşməyi bacaran Şahmarın bölüşə bilməyəcəyi tək bir məfhum olub – Vətən.



Məktəbli həyatının başlanğıcı
01.09.1997-ci il

MƏKTƏBDƏN BAŞLAYAN VƏTƏN DƏRSİ

Məktəb həyatı bir insanın həyat yollarının mayağıdır. Ən gözəl xatirələr də məktəbli çağında yaşanır, ən qayğısız günlər də. Məktəbli çağında tək qayğısı dərslərə cavab vermək olan Şahmar gün gəldi vətənin qayğısını çəkdi.

Zənnimcə bir qəhrəmanın keçmişini vərəqlədikdə ilk döyüləcək könül qapılarından biri də ilk müəlliməsinin könül qapısı olmalıdır. Çünki bir insanın həyatında önəmli rol oynayan məktəb həyatına ilk qədəm qoyanda o insana ilk müəlliməsi bir ana kimi qucaq açır. Şahmara da ana kimi diqqət göstərərək, qayğısını çəkən, elmin qapısını taybatay açan, əlindən tutub ilk ana, vətən sözlərini yazdıran Səkinə müəllimə olmuşdur. İlk müəlliməsi Şahmarın adını eşitdiyi anda göz yaşları yanağında cığır saldı. Ah Şahmar, səndən sənsiz danışmaq da, səni sənsiz yaşatmaq da çətindir.

İbtidai sinif müəllimi Səkinə müəllimə:

– 1997-ci il sentyabrın 1-də Naxçıvan şəhər Məmməd Cəfər Cəfərov adına tam orta məktəbə qədəm qoyan birincilər sırasında Şahmar da yer almışdı. Eyni məhəllənin sakini olduğumuz üçün Şahmarla onun körpəliyindən doğmalaşmışdıq. Şahmar elə bir uşaq idi ki, bircə dəfə görmək bəs edərdi ki, qəlbində ona yer ayırasan. Mənim də qəlbimdə yeri olan bir məktəblinin sinfimdə olmağını çox arzulayırdım. Ancaq bu tək mənim arzum deyildi. Bu həm də Şahmarın körpə xəyalındakı ən böyük arzularından biri idi. Həyatında ilk dəfə onu dünyaya gətirən Səkinə

ananın əllərini buraxıb mənim əllərimdən tutan Şahmar ikinci ana kimi də mənim əllərimi tutdu. Nə ana kəlməsi, nə də mənim Səkinə adım ona yad gəlmədi. Anası Səkinə xanım 6 ay Şahmarla bərabər məktəbli həyatı yaşadı. Oğlunu məktəbə gətirən ana sinif otağının qapısı önündə oturub Şahmarı gözlədi. Şahmarın bir xüsusiyyəti var idi ki, sevdiklərinin gözünün önündə olmasını istəyirdi. İbtidai sinif müəlliməsi mən olsam da, əlavə fənləri digər müəllimlər keçirdilər. Ancaq həmin dərs saatlarında da mən sinifdən çıxa bilmirdim. Çünki mənim sinifdə olmamağım Şahmarın qəbul edə biləcəyi bir hal deyildi. Məktəbdə hər kəs bu ərköyün və sevimli şagirdin özünəməxsusluğunu qəbul etmişdi.

Şahmarın bir özəlliyi də gözəl rəqs etmək bacarığı idi. Tədbirlərin yaraşığı səhnədə elə boy göstərirdi ki, insanı ovsunlayırdı. I sinifdə oxuyan zaman Yeni il şənliyində sinif yoldaşı ilə birlikdə elə bir rəqs etmişdi ki, hər kəs ayaq üstə alqışlamışdı. Şahmarla yalnız xoş anlar yaşamışam. Onunla bağlı yalnız xoş xatirələrim var.

Çöhrəsindəki gülüşü insanın ruhunu, qəlbini isidirdi. Canayaxın, canayanan bir uşaq idi. Məktəbdə hər kəsin bir Şahmar sevgisi var idi. Həm şagirdlərin sevimli dostu, həm də müəllimlərin sevimli şagirdi idi. Hər kəsi sevən, hər kəsin sevdiyi Şahmarın ürəyində daha bir sevgi var idi ki, o sevgi bənzərsizliyi ilə seçilirdi.

"Vətən" deyişi bir başqa idi Şahmarın. Elə bil bu söz əks-səda qoparırdı. Hələ III sinifdə oxuyarkən "Vətən keşiyində" şeirini söylədiyi zaman səsindən duyulan qüruru və həsrəti önündə göz yaşlarıma hakim ola bilməmişdim. Bilməzdim ki, gün gələcək Şahmarın şəhid adını duyduğumda göz yaşı tökəcəyəm.

Ayrılıq anı ağır gəlir. IV sinfi bitirən zaman Şahmarın məndən ayrıldığı üçün necə kədərləndiyi bugünkü kimi xatirimdədir. Onun həmin davranışı etibarının bariz nümunəsi idi. Şahmarın o etibarı heç zaman sarsılmadı. Elə bir gün olmurdu ki, sinfimə gəlib hal-əhvalımı soruşmasın. Əli əlimdən ayrılsa da, qəlbindən məni çıxarmamışdı.



Heç unutmuram, məktəbdə Heydər Əliyev adına Hərbi Liseyə getmək istəyən şagirdlərin siyahısı tərtib olunurdu. Həmin zaman yenə Şahmar mənim yanıma gəldi. "Müəllimə, mən də hərbçi peşəsini seçmək istəyirəm", – dedi. Mən Şahmarın ruhunu duyduğum üçün ona yalnız xeyir-dua verdim. Şahmarın vətən üçün yaşadığını bilirdim. Ona bu yol sənin işıqlı yolundur. Get, yolun açıq olsun, – dedim. Bilirdim ki, o, vətənin işıqlı sabahıdır.

Şahmar 2006-cı ildə yüksək qiymətlərlə Heydər Əliyev adına Hərbi Liseyə qəbul oldu. Əslində Şahmarın yüksək savadı, bilik və bacarığı istənilən unversitetin qapılarını onun üzünə aça bilərdi. Lakin Şahmar bir hərbçi kimi vətənin keşiyini çəkmək üçün bu peşəni seçdi və bu peşənin sayəsində o, Qarabağın azadlıq qapısını taybatay açdı.

GÖZƏL SEVDİN VƏTƏNİ

Məktəbli çağından bəlli olmuşdur,
Vətənlə bağlanan ali duyğular.
Dilə gətirdiyin "Vətən" kəlməsi,
Ərşin sükutunu pozurdu, Şahmar.

Vətənin layiqli vətəndaşıtək,
Yaşamaq ən öndə amalın idi.
Qəlbini ram edən vətən sevgisi,
Dərin baxışından da sezilirdi.

Elə gözəl sevdin ana vətəni,
Sevgin gözlərindən aydın oxundu.
Bir vaxt "Vətən" sözün qəlb oxşayırdı,
Sonra şəhid adın qəlbə toxundu.



Vətənin əsgəri
15.09.2006-cı il

HEYDƏR ƏLİYEV ADINA HƏRBİ LİSEYİN KURSANTI

Eşqlərin ən alisidir vətən eşqi. Bu eşqə könül verənlər bu eşqin yolunda ölməyə hər an hazır olurlar. Ən böyük eşq sevdiyinin uğrunda ölə bilməkdir. Vətənə sevdalananlar varlıqlarını vətənə həsr edir, vətənə fəda olmaqda heç tərəddüd etmirlər. O sevdalıların gözlərinə nəzər salmaq kifayət edər ki, qəlblərində var olan böyük eşqdən hali olasan. Şahmarın da gözləri vətən eşqini yansıdırdı.

Heydər Əliyev adına Hərbi Liseyin tarix müəlliməsi Təranə müəllimə:

– Şahmar sanki gözləri ilə danışırdı. Onun gözləri seçilirdi. Baxışı o qədər mənalı idi ki, o baxışdan ümid doğulurdu. Gözəl baxırdı, gözəl sevirdi...

2006-cı ildə ilk dəfə yeni gələn kursantlarla tanış olduğumda Şahmar diqqətimi çəkmişdi. Heydər Əliyev adına Hərbi Liseydə 8 taqımdan 4-nə tarix dərsini mən keçirdim. Hər taqımda da 30 kursant var idi. Hər kursantın öz daxili dünyası, öz həsrəti var idi. Əslində hər biri ana köksündən qopmuşdu. Evlərindən uzaq düşən kursantlara ana nəvazişi göstərmək, onların qayğısını çəkmək biz müəllimlərin öhdəsinə düşürdü. Şahmar da həmin kursantlardan biri idi. Ancaq onun bir özəlliyi var idi. Həsrətini gülüşünün ardında gizlətməyi bacarırdı. Pozitivliyi ilə hər kəsin dərdini unutdururdu. Şahmarla çox doğmalaşmışdıq. Bir xüsusiyyəti var idi. Doğma bildiklərindən uzaq qalmağı sevməzdi. Əslində onun yeri arxa parta idi. Ancaq hər dəfə tarix dərsində məndən icazə alıb öndə

əyləşirdi. Suallar verməyi, həmsöhbət olmağı xoşlayırdı. Kənarda qalmaq onluq deyildi. Düşdüyü mühitin ab-havasını bir anda lehinə çevirməyi bacarırdı. Nə müəllimlər arasında, nə də kursantlar arasında onu sevməyən yox idi. Zaman gəldi bütün Azərbaycan xalqının sevgisini qazandı. Şəhid kimi...

"Biz güclüyük yoxsa düşmən?" Hər dəfə bu sualı verəndə gözlərində sanki ildırım çaxırdı. O, vətən torpaqlarının işğalda olmağı ilə barışa bilmirdi. ***"Mən Qarabağa tələsirəm"*** deyirdi. Amalı vətənə azadlıq adlı töhfə vermək idi. Liderlik xüsusiyyəti var idi. Öndə olmağı sevirdi. Elə Vətən müharibəsində də öndə getdi.

Bir müəllim üçün şagirdlərini daş məzarda görmək çox ağrılıdır. Şəhidlər xiyabanına getdiyim zaman bir zaman partalarda yanbayan oturan şagirdlərimin indi yanbayan məzarlarda uyumasını görmək mənə çox acı verir. Onların sükutunda boğuluram. Hər birinin donub qalan şəkilləri ürəyimə od salır. Bir zamanlar çiçək kimi bəslədiyim şagirdlərim vətən torpağından çiçək kimi dərildilər.

Yüzlərlə, minlərlə kursanta dərs deyən müəllimələrdən illər öncə dərs dedikləri bir kursantı soraqladığımda birdən unutsalar – deyə öz-özlüyümdə narahat olurdum. Ancaq Şahmarın adını hansı müəllimə dedimsə həmin an "O gülər üzü, mənalı baxışı unutmadıq" – deyərək sözə başladı. Bu məni həm duyğulandırdı, həm qürurlandırdı. Nə yalan deyim hər bir həmsöhbətimlə Şahmarı daha dərindən kəşf etdim. Allahın seçilmişi bu dünyaya sevilmək üçün gəlibmiş. Şahmarın var olduğu daha bir könül qapısını döydüm.

Heydər Əliyev adına Hərbi Liseyin fizika müəlliməsi Məryəm müəllimə:

– Hər dəfə Şahmarın adını duyduğumda onun dilindən düşməyən ***"Qarabağı biz azad edəcəyik!"*** sözlərini xatırlayıram. Ümumiyyətlə, Şahmarla bağlı yaşanılmış hər

bir an xəyallarıma həkk olunub. Elə bil Allah onu unutdurmamaq üçün o anları xəyallarıma nəqş edib.

Şahmarın çöhrəsi ən xoş xatirələrin başlanğıcı idi. Gözləri ilə hər zaman gülüş saçan Şahmar hər kəs kimi mənim də sevimlim idi. Hər dəfə fizika dərsində ön partada əyləşirdi. Gülər üzü, şirin sözü ilə sinifdə xoş əhvali-ruhiyyə yaradırdı. Ta ki söhbət Qarabağdan düşənə qədər. Qarabağın işğalına toxunduğumuz zaman Şahmarın baxışı bir anda dəyişirdi. O gülən gözlərin dərinliyindən intiqam duyğusu parlayırdı. Vətəni, torpağı, bayrağı canından çox sevirdi. Qarabağı azad etmək onun qarşısına qoyduğu ən böyük məqsədi idi.

Mən hər zaman kursantlara bu sözləri deyirəm. General olmaq istəməyən zabit zabit deyil. Ancaq Şahmar general olmadı. O general rütbəsindən daha yüksək məqama, şəhidlik məqamına ucaldı.

44 günlük Vətən müharibəsində ən tez şəhadətə yetən şəhidlərdən biri Şahmar oldu. Heç unutmuram o günü. Şahmarın şəhid olduğu məni çox dərin yaraladı. Eyni zamanda da qürurlandırdı. Şahmar vədinə xilaf çıxmadı. O vətənə olan eşqi yolunda can fəda etdi.



Azərbaycan Ali Hərbi Məktəbinin kursantı
2009-cu il

KURSANT ÖMRÜNƏ NUR SAÇAN MÜƏLLİM

Müəllim və hərbçi ömrü şama bənzəyir. Onlar şam kimi yanıb ətraflarını aydınladırlar. Bütün peşə sahiblərində olduğu kimi hərbçi ömrünə də nur saçan müəllimdir. Hərb peşəsini seçənlərə dərs deyən müəllimlər əslində vətəni kimə əmanət etdiklərini yaxşı bilirlər. Axı onlar özləri həm vətənin, həm də vətən yolunu gedənlərin yollarında şam kimi yanırlar. Hər bir kursantın arzusu vətənin sabahının işıqlı olmasıdır. O sabahın işıqlı olması üçün şam kimi yanan Şahmarı hər kəs kəşf etdiyi kimi izah etdi. Bir də Şahmarı həm müəllimi, həm də silahdaşı olan Vidadi Mahmudovun sözlərindən dinləyək.

Azərbaycan Ali Hərbi Məktəbinin müəllimi polkovnik-leytenant Mahmudov Vidadi Səməd oğlu:


– Şahmardan Şahmarsız danışmaq həm bölük komandiri, həm idman müəllimi, həm də silahdaşı kimi mənə çox çətindir. Şahmar mənim yaddaşıma ən çox məsuliyyəti ilə həkk olunub. 2011-ci ilin may ayında AAHM-də Şahmarın bölük komandiri təyin olunmuşdum. Çox sayda kursant olmağına baxmayaraq, Şahmar seçilməyi bacarmışdır. Hər zaman verilən tapşırığı ilk yerinə yetirənlərdən biri olmuşdur. Bu onun məsuliyyətinin, dəqiqliyinin, nizam-intizamlı olmasının sübutu idi. Kursant yoldaşlarının etibarını qazanmışdı. Hər kəs Şahmara rəğbət bəsləyirdi.

Mən hər bir kursanta deyirəm ki, silahı, texnikanı elə öyrənməliyik ki, düşmən önündə aciz qalmayaq. Şahmar

da illərlə hərb sahəsində yiyələndiyi bilik və bacarıqlarını ən çox lazım olan zamanda istifadə etdi. Hər gün Şahmar və bütün kursantlar "Hər şey vətən üçün" və "Şəhidlər ölməz, vətən bölünməz" deyirdilər. Onlar əməlləri ilə hər şeylərini vətən üçün qurban edib, şəhidlərin ölməzliyini, vətənin bölünməzliyini sübut etdilər.

Hərbçi peşəsini seçən hər bir kursant zabit vəsiqəsini alacağı anı səbirsizliklə gözləyir. 28 iyun 2013-cü ildə Şahmara leytenant rütbəsi və zabit vəsiqəsini təqdim etdiyim zaman gözlərindəki qüruru gördüm. Necə qürurlanmasın ki, artıq o da əsl zabit kimi vətən keşiyini çəkəcəkdi. Şahmarla vidalaşıb onu vətən səngərinə göndərdikdən sonra bir daha Şahmarla rastlaşmadım.

Vətən müharibəsi başlayanda mən də neçə-neçə kursantım kimi müharibəyə yollanmışdım. İllərdən sonra torpaqlarımızın azad olunmasına töhfə vermək hər bir vətən oğlu kimi məni də qürurlandırır və sevindirirdi. İtkisiz qalibiyyət qazanmaq mümkün deyil. Həmin döyüşlərdə neçə-neçə kursantım şəhid oldu. Müharibə bitdikdən bir neçə müddət sonra evə gəldiyimdə şəhidlərin şəkilləri arasında Şahmarın şəklini gördüm. "Şahmar, sən arzuladığın kimi Qarabağı azad edənlərdən oldun" – sözlərini ürəyimdə təkrar-təkrar dedim. Şahmarın bəy libasında, sevdiyinin isə bəyaz gəlinlikdə olan şəkillərini gördüyümdə dəli bir ağlamaq keçdi könlümdən.



BİRİ VAR, BİRİ YOXDUR

Hərbçi ömrü keşməkişli günlərin bir-biri ilə əvəzlənməsi ilə ötür. İstər kursant olduğu illərdə, istərsə də peşəkar hərbçi kimi fəaliyyətdə olduğu illərdə qayğısı əskik olmur. Bir az vətən qayğısı çəkir, bir az ailə qayğısı, bir az da tənhalıq. Elə ona görə də bir hərbçinin duyğularını hamıdan gözəl elə hərbçi anlayır. O duyğuların birləşdirdiyi, keşməkişli həyat yollarını birlikdə addımlayan iki kursantın, iki zabitin, iki qəhrəmanın birlikdə imza atdıqları keçmişə boylandıqda ürəyimi kədər sis-duman kimi bürüdü. Çünki indi biri cismani var, biri isə yoxdur...

Var olan üçün kəm qalan dostluğundan danışmaq çox çətin oldu. Elə mənim üçün də dinləmək çətin idi. Hər ikimiz göz yaşlarımızı biri-birimizdən gizlətməyə çalışdıq. Mənə elə gəlir ki, bacarmadıq. Çünki ürəyimizin naləsini duyurduq.

Şahmarın kursant yoldaşı və illərin dostu Yusifov Elşən Rövşən oğlu:

– Ah Şahmar... Bilmirəm Şahmara hansı sözləri yaraşdırım. O qədər dəyərli idi ki, indi o dəyəri izah edəcək cümlə qurmaqda acizəm.

Şahmar mənim kursant illərimin xatirələrinə dost kimi iz salan əvəzolunmaz bir insandır. Dörd il birlikdə AAHM-də hərbi təhsil almışıq. O illərə nəzər saldığımda əziz dostumla birlikdə nə qədər çətinliyə sinə gəldiyimi görürəm. 28 iyun 2013-cü ildə bizim Azərbaycan Ali Hərbi Məktəbi ilə yollarımız ayrılsa da, hərbçi və dost kimi yollarımız ayrılmadı. Sonra 1 il birlikdə Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzində hərbi biliklərimizi daha da təkmilləşdirdik. Daha sonra müvəqqəti ayrıldıq. Şahmar təyinatla Ağcəbədi rayonuna getdi, mən isə Beyləqan rayonuna. 9 ay sonra Şahmar da Beyləqana gəldi və eyni hərbi hissədə xidmətimizi davam etdik.

Şahmarla olan dostluq münasibətimiz artıq ailəmizə də sirayət etmişdi. Biz ailəvi xoş münasibət yaratmışdıq. Ən gözəl günlərimizdə də, ən kədərli günlərimizdə də birlikdə idik.

Bir neçə il xidmət etdikdən sonra şərait elə gətirdi ki, mən xidmətimi Tovuz rayonunda, Şahmar isə Mingəçevir şəhərində davam etməli oldu. Elə ayrılığın təməli də ondan başladı. İşimizin ağırlığı səbəbindən daha tez-tez görüşə bilmədik.

Müharibə başlayan zaman çox tanıdıqlarım öndə vuruşurdular. Onlardan biri də Şahmar idi. Hər gələn zəngə mənə qalibiyyətdən və şəhidlərdən xəbər verirdilər. Həmin o zənglərdən birində Şahmarın şəhid olduğunu eşitdim. O an yaşadıqlarımı izah etməkdə acizəm. Bir onu deyə bilərəm ki, Şahmar şəhid olduğu gündən sanki həyatla bağım qopub.

Artıq Şahmarın şəhid olmağından illər keçib. Ancaq mən hələ də cəsarətimi toplayıb onun ailəsi ilə üz-üzə gələ bilməmişəm. Axı mən o gözlərə necə baxa bilərəm?

YERİ DOLMAYAN DOST

Həyatımızın ötən illərindən elə xatirələr olur ki, ömrümüzün sonuna qədər yaddaşımızdan izi silinmir. Həmin insanlarla həyat yolların ayrılsa da, hər zaman ürəyində bir həsrət sızıltısı hiss olunur. Bircə dəfə görmək arzusu ilə yaşayırsan. Ümidlə o günün çatmağını arzu edirsən. Ancaq bəzən o ümid bir məzar daşına çırpılır. Ağanın ümidləri kimi.

Şahmarın Azərbaycan Ali Hərbi Məktəbindən kursant yoldaşı Ağazadə Ağa:

– Şahmarla münasibətimiz 2010-cu ildə AAHM-də oxuduğumuz zaman II kursda başladı. Əvvəlcə bir tanış kimi başlayan münasibətimiz sonra dostluğa çevrildi. Şahmarı tanıyan hər kəslə o, doğmalaşmağı bacarırdı. Elə mənimlə də doğmalaşdı.

Şahmarın ən gözəl xüsusiyyəti dostu darda qoymaması idi. Paxıllığın daxil ola bilmədiyi qəlblərdən birini də Şahmar daşıyırdı. Hər zaman yüksək qiymət alan Şahmar kursant yoldaşlarının da kəsiri olmaması üçün onlara əlindən gələn köməkliyi göstərirdi.

3 il eyni bölük, eyni taqımda hərbi təhsil aldıq. Bir müddət eyni partada əyləşdik. 2013-cü ildə Azərbaycan Ali Hərbi Məktəbini bitirib Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzində 1 illik kursa başladıq. Ancaq ayrı-ayrı bölüklərə düşdük. 2014-cü il iyunun 23-də TTM-dən ayrılandan sonra həyat yollarımız ayrıldı. Mən heç bilməzdim ki, bir gün yollar məni Şahmarın məzarına gətirib çıxaracaq.



Vətən müharibəsinin iştirakçılarından biri də mənəm. Füzuli rayonu istiqamətində gedən döyüşlərdə iştirak etdiyim zaman Şahmarın şəhid olduğunu öyrəndim. O xəbər məni çox dərin yaraladı. Oktyabrın 28-də Bakıya qayıtmalı oldum. O gündən sonra II Fəxri xiyabanda dəfn olunan bütün şəhidlərin dəfnində iştirak etdim. Bir zamanlar AAHM-də oxuyarkən ***"Qarabağı azad edən hərbçilərdən biri olacam"*** – deyən Şahmarı məzarda görmək mənim üçün çox ağır oldu. O arzusuna çatdı. Həm Qarabağı azad etdi, həm də şəhadətə ucaldı. Ancaq hələ çata bilmədiyi arzuları da çox idi.

Artıq Şahmarın şəhadətindən 2 ilə yaxın müddət keçib. Bu müddət ərzində demək olar ki, hər həftə bir neçə dəfə Şahmarı ziyarət edirəm. Hər dəfə Şahmarın məzarı önündə bir doğmasını görməyə ümid edirdim. Qismət bu vaxta imiş. Təsadüfmü, ya zərurət bilmirəm. Ancaq Şahmarın məzarını göz yaşı tökərək təmizləyən bir xanımı gördüyüm zaman ona yaxınlaşmaya bilməzdim. Şahmarla bağlı xatirələrimi bölüşdüyüm zaman "Şahmar haqqında kitab yazılır. Siz də öz xatirələrinizin sətirlərə həkk olunmasını istərdinizmi?" sualına tərəddüdsüz – bəli – dedim. Çünki Şahmar mənim üçün heç zaman yeri dolmayan və unudulmayan bir dostdur. Bu dostluğun qəlbimdə olduğu kimi, sətirlərdə də yaşaması mənim üçün arzumun gerçək olması idi.

KOMANDİR VƏ GİZİR DOSTLUĞU

Doğmalıq, bağlılıq qan bağı ilə deyil, can bağı ilə olur. Bəzən eyni qanı daşımayan, heç bir qohumluq bağı olmayan insanlar o qədər doğmalaşırlar ki, həyatın ən gözəl üzünü həmin o insanlarda tapırlar. Tanışlıqdan dostluğa, dostluqdan isə doğmalığa çevrilən komandir və gizir münasibətinin xoş xatirələrinin şahidi oldum. Bu doğmalıq münasibəti mənə dostluğu sevdirdi. Bax budur dörd hərfdə cəm olan sonsuzluq...

Gizir Bayramov Əlibaba Hacıbaba oğlu:

– Heç bilmirəm Şahmardan danışmaq üçün hansı sözdən başlayım. Həm bir komandir kimi, həm də bir dost kimi Şahmar əvəzsiz bir insan idi.

Quliyev Şahmar Kəmaləddin oğlu 2014-cü ilin iyun ayında Beyləqan rayonunda yerləşən N saylı hərbi hissədə birinci tabor, birinci bölük, ikinci taqımın taqım komandiri təyin olundu. Çox savadlı, cəsarətli komandir idi. Açığı belə bir komandirin heyətində gizir olmağım mənim üçün böyük şans idi. Tələbkar və qayğıkeş idi. O, bütün heyətə ata qayğısı ilə yanaşırdı. Xidmətə yeni başlayan əsgərlərin ilk günlər darıxması labüddür. Heç unutmuram, bir dəfə bir əsgərin gözlərindən darıxdığını sezdi. Üç gün həmin əsgərlə birlikdə qaldı. Onun bu addımı həmin əsgərlə yanaşı, bütün hərbçilərə çox gerçəyi izah etdi. ***"Öncə vətən sonra ailə, ev..."*** Dediyi bütün sözləri əməlləri ilə sübut edən qəhrəman hər birimiz üçün örnək idi.



Şahmar əsgərini, gizirini, MAHHXHQ-ni özündən çox düşünərdi. Məvacibinin müəyyən hissəsini özü, ailəsi üçün deyil bizim üçün xərcləyərdi. Hər kəs onun üçün önəmli idi. Bunun sübutunu doğum günlərimiz çatanda hər birimiz görürdük. Heç kimi diqqətdən kənar qoymazdı.

Şahmar öz bilik və bacarıqlarını tabeliyində olan hərbçilərə öyrədirdi. Hər zaman döyüş hazırlığı keçir və o biliklərin ən qısa zamanda lazım olacağını dilə gətirərdi. Elə dediyi kimi də oldu. 2016-cı ildə baş verən Aprel döyüşlərində Şahmar Quliyev öz dəstəsi ilə öndə vuruşanlardan biri oldu.

2016-cı il martın 31-də mənim ad günüm idi. Şahmar hər kəsin ad günündə olduğu kimi mənim də ad günümdə mənə tənhalığı hiss etdirmədi. Ertəsi gün olanlar oldu...

– Şəhid dünyaya gətirən analar olan bu vətəndə analar yenə də şəhid olan oğullar dünyaya gətirəcək. Bizlər vətənin və o anaların qeyrətini çəkməliyik.

Bu sözləri deyən Şahmar hər kəlməsi ilə vətən sevgisini dilə gətirirdi. Əməlləri də sözlərinin sübutu idi.

Müharibə başlamazdan bir neçə ay öncə Şahmar təyinatla Mingəçevir şəhərində yerləşən N saylı hərbi hissəyə göndərildi. Yollarımız növbəti dəfə ayrıldı. Heç istəməzdim ki, əbədi ayrılaq. Ancaq müharibənin ağır şərtlərindən biri də əbədi ayrılıqdır.

26 sentyabrda zəng etdiyim zaman: "Komandir necə olacaq?" – deyə soruşdum. Cavabı həmişəkindən fərqli olmadı.

– Necə öyrətmişəm elə edin. Ürəkli və möhkəm olun. Gerini yox ancaq irəlini düşünün. Ya şəhid olacağıq, ya da qəhrəman. Nə olur olsun ölməyəcəyik. Çünki biz şəhid olduğumuz zaman da ölmürük. O torpaqların hər qarışı azad olana qədər şəhid olsaq belə qanımızla döyüşəcəyik. Ən gözəl yazıları qırmızı qələmlə yazırıq ki, göz oxşasın. Biz bu dəfə qanımızla vətən torpağına yazılan qəhrəmanlıq salnaməsi ilə qəlb oxşayacağıq.

Şahmarın sözlərindən həmişəki kimi ümid, güvən, güc duyulurdu. Bu sözlərdən aldığım mənəvi güclə Vətən müharibəsi başlayan anda döyüşə atıldım. Müharibənin ikinci günü ağır yaralandım. Sən demə, həmin gün Şahmar da şəhid olubmuş. Sentyabrın 30-da hospitalda özümə gəldiyim ilk an Şahmara zəng etdim. Zəng çatmadı. Digər gizir yoldaşım Şahmarın şəhid olduğunu dedi. O an sanki həyat gözlərimdə dəyərini itirdi. Mən heç o günə qədər bir insanın gedişinin o qədər dözülməz olduğunu bilmirdim.

Şahmarsızlıq ürəyimi yandırır. (*Bayaqdan gözdə boğulan yaş həmin an kirpikdən asıldı.*) Şahmarın yeri ürəyimdə heç zaman dolmayacaq. Ömrümün sonuna qədər Şahmarın adı və dostluğu ürəyimdə qalacaq.

RÜTBƏSİ İLƏ DEYİL, İNSANLIĞI İLƏ UCALAN KOMANDİR

Hərbidə ötən bir gün bir ilə bərabər olur. Elə ona görə də hərbidə təməli qoyulan dostluq münasibəti əksər hallarda sonsuz olur. Ömürboyu qəlbində o dəyər sahibi dəyişilməz olaraq qalır. O dəyəri də hər insan özü qazanır. Şahmar həyat yollarının kəsişdiyi hər bir insanın qəlbində özünəməxsus yer qazanıb. Elə ona görə də bu gün Şahmarı soraqladığım hər kəsin həsrəti Şahmara olan sevgisinə təndir.

İnsan adını layiqincə daşıyan Şahmar uşaqdan-böyüyə hər kəsin xatirələrində iz qoyub. Heç zaman rütbəsindən istifadə edərək özündənrazı olmayan Şahmar elə o davranışı ilə də əsgərlərinin qəlbini fəth edib. Qəlbi Şahmara məqbərə olan əsgərlərdən biri Fəridin sözləri ilə çəkdiyi Şahmar əsərinə nəzər salaq.

Əsgər Yusifov Fərid Arzu oğlu:

– Şahmarın deyimi ilə desək, bizim tanışlığımız **"Kişilik məktəbində"** başladı. Mən həmin məktəbi 2015–2017-ci illərdə keçdim. Nə yalan deyim bir gənc əsgər kimi ilk vaxtlarda Şahmara yaxınlaşmaqdan çəkinirdim. Zəhmli baxışları onu sərt göstərsə də, əsgər yoldaşlarıma bu sərt görüntünün ardında gizlənən xoş rəftarı, nəcibliyi və qayğını hiss etdiyimi deyirdim. Heç də yanılmadım. Bir dəfə Şahmarla eyni növbəyə düşdük. Həmin vaxt mən nə qədər haqlı olduğuma şahid idim.

Şahmarla bağlı xatirələrim çoxdur. Hər dəfə o xatirələr yadıma düşəndə onsuzluqla nə qədər kəm qaldığımı hiss

edirəm. Şahmarı əsgərlərə sevdirən cəhətlərindən biri də əsgərin qürurunu qorumağı idi. Hətta bəzən bir əsgərə görə bütün bölüyü jim vəziyyətinə gətirməklə cəzalandırırdı. Heç vaxt istəməzdi ki, onun tabeliyində olan hərbçilərə, əsgərlərə söz gəlsin. O sözün əsl mənasında hər kəsi qorumağa çalışırdı.

Artıq xidməti bitirməyimizə az qalmışdı. O, bizdən fərqlənməmək üçün onu bizdən fərqləndirən üst geyimini çıxarıb kənara qoydu və önəmli məsləhətlər verdi. Həmin addımı ilə bir daha özünü rütbəsi ilə deyil insanlığı ilə tanıtdı.

İnsanlıq adını hər addımda ucaldan Şahmarın şəhadət zirvəsinə ucaldığını öyrəndiyimdən sonra uzun müddət özümə gələ bilmədim. Həyat elə gətirdi ki, Şahmar Quliyev haqqında sujet hazırlamaq mənə qismət oldu. Həmin o sujeti ərsəyə gətirmək mənim üçün çox ağır idi. Şahmar kimi bir qəhrəmanı tanımaq nə qədər qürurvericidirsə, həsrətini çəkmək də o qədər ağırdır.

Bir zaman həyatda mənə yol göstərən, qoruyan komandirim daha yuxularımda eyni addımları atır. Heç unutmaram, həmin sujeti hazırladıqdan sonra Şahmarı yuxumda gördüm. Oğlu Kamal ilə birlikdə bir qarışıq yerdə idik. Şahmar həmin an bizim hər ikimizi oradan çıxardı. Yuxuda Şahmara, – axı sən şəhid olmusan – dedim. Şahmar – ***"Mən ölməmişəm, şəhid olmuşam. Hər an yanınızdayam"*** – dedi. Bax budur şəhidlərin ölməzliyinin sübutu.

SƏDAQƏTLİ DOST

Sən elə bir ürək daşıdın, Şahmar,
Sədaqət, mərhəmət əsərin oldu.
Adına dost deyən hər bir dostunu,
Canın bahasına hər vaxt qorudun.

Atdığın addımlar bir örnək idi,
Vətən keşiyində duran hər kəsə.
Bu vətən heç zaman sarsıla bilməz,
Oğullar vətəni sən kimi sevsə.

"İlk vətən" deyirdin, vətənin oğlu,
Elə vətən kimi ucaldı adın.
Sən neçə döyüşdən üzüağ çıxıb,
Vətən torpağına izini saldın.

Həsrətin vətənin özü boydadır,
Yumruq boyda qəlblər daşıya bilmir.
Bu dərdin təkcə bir təsəllisi var,
Şəhidtək can verən heç zaman ölmür.

UNUDULMAZ DOST

Hər insan həyatdan köçür. Lakin hər insan həyatda cismən var olmadıqda ən gözəl xatirələrdə yer almır. Şahmarla bağlı xoş xatirələrini mənimlə bölüşən daha bir qəhrəmanımız, Aprel döyüşlərində qəhrəmancasına vuruşan, 44 günlük Vətən müharibəsində Şuşaya ilk qədəm qoyan Paşa müəllim oldu.

Qurbanlı Paşa Qənbər oğlu:

– Şahmarla eyni bölgədə, Naxçıvan Muxtar Respublikasında dünyaya göz açmışıq. Həyat elə gətirdi ki, 2017-ci ildə Beyləqan rayonunda yerləşən N saylı hərbi hissədə birlikdə xidmət etdik.

Şahmar hər kəsin rəğbətini əməlləri ilə qazanmışdı. Bir eloğlumun işində məsuliyyəti, ciddiyyəti ilə qazandığı hörməti məni qürurlandırırdı. Şahmar ciddiyyəti ilə yanaşı, bir də səmimiyyəti ilə qəlbimə yol tapmışdı.

Bizim tərəflərin özünəməxsus zarafatları var. O zarafatlarımız bizi bir-birimizə daha çox doğmalaşdırmışdı. Ancaq şərait elə gətirdi ki, hərbçi kimi yollarımız ayrıldı. Hərbçi olmaq bir məkanın daimi sakini olmamaq deməkdir. Şahmar Mingəçevirə getdi, mən Haramı düzü istiqamətinə. Ondan sonra telefonla əlaqə saxlayırdıq.

Müharibə başlayanda biz hər ikimiz Qarabağın azadlığı üçün mübarizəyə başladıq. Biri-birimizdən xəbərsiz Qarabağa doğru yol aldıq. Mən o yolu sona qədər getdim. Müharibə bitdikdən bir müddət sonra evə qayıtdım. Sosial şəbəkələrin birində Şahmarın şəhid olduğu xəbərinə rast gəldim. O xəbər ürəyimə ox kimi sancıldı. Mən müharibədə neçə dostumun – yoldaşımın şəhid olduğuna şahid olmuşdum. Kimi qolumda can vermişdi, kimi son vəsiyyətini mənə demişdi. Bütün yaşanılanların üstünə bir də Şahmar kimi bir qəhrəmanın daha orduda olmadığı gerçəyini bilmək çox ağır gəldi. Unudulmazlar sırasındadır...

APREL DÖYÜŞLƏRİ

Artıq hər bir vətən qeyrətli oğlun səbri tükənmişdi. Qüdrətli Azərbaycan Ordusunun hər bir fərdi ləyaqətsiz düşmənə layiq olduğu məğlubiyyəti yaşatmaq üçün zamanı iplə çəkirdi. Cəbhədə pozulan atəşkəs nəticəsində vətənə dəyən güllə-mərmi elə bil ki, vətən keşiyi çəkən oğulların ürəyinə tuşlanırdı. O vəziyyətin bir gün Ermənistanın əleyhinə, Azərbaycanın isə lehinə olacağı heç kimə sirr deyildi. Hər kəs yaxşı bilirdi ki, artıq Azərbaycan Ordusu 1990-cı illərdəki düzənsiz ordu deyil. Hər dəfə atəşkəs pozulanda bütün ordu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Başla" əmrini verməsini gözləyirdi. Sülh tərəfdarı olan Ali Baş Komandan İlham Əliyev illərlə Qarabağ məsələsini sülh yolu ilə həll etməyə çalışırdı. Ancaq düşmən bu xoşməramı anlamazdan gəlir və öz çirkin siyasətini davam etdirirdi. Həmin dırnaqarası atəşkəsin günahsız qurbanları da az olmurdu. Düşmən nə körpəni, nə yaşlını, nə cavanı hədəf almaqdan çəkinmirdi. Bu vəziyyət getdikcə dözülməz hala çatırdı. İllərlə gözlənilən "Başla" əmri isə 2016-cı il aprelin 1-dən 2-nə keçən gecə verildi.

Martın sonları idi. Düşmən demək olar ki, hər an atəşkəsi pozurdu. Onsuzda illər öncə törədilən Azərbaycanlıların Soyqırımı Günü tarixinin xatirəsi ürəklərdəki qisas hissini alovlandırırdı. Düşmən də əməlləri ilə hər gün o alovu daha da şiddətləndirirdi. Bütün hərbçilər o günlərdə silaha daha möhkəm sarılmışdılar. Şahmar da həmin o hərbçilərdən biri olmuşdur.

Martın 28-dən Şahmar demək olar ki, evinə gəlmirdi. Çox qısa müddətlik evinə gələn Şahmar tələtümləri ilə

diqqət çəkib. Ancaq bu tələtümün səbəbi heç kimə bəlli olmayıb.

Aprelin ilk günü bitər-bitməz Ermənistan tərəfi sərhədboyu ərazilərdə gecənin sükutunu atəşlə pozdu. Bu dəfə ordumuz adekvat cavab verməklə kifayətlənməyərək illərdi düşmən işğalında qalan torpaqları azad etmək üçün önə atıldı. Həmin döyüşlər zamanı Şahmar olan dəstə arxada döyüş əmri gözləyirmiş. Lakin Şahmar səssiz-səmirsiz o əmrin gəlib-gəlməyəcəyini gözləyə bilməyib. Könüllü olaraq ərizə yazaraq komandanlığa müraciət edib.

– Mənim dostlarım, silahdaşlarım öndə vuruşurlar. Mən arxada gözləyə bilmərəm. İllərdi bu günü gözləyirəm. Bu gün qisas günüdür. Bu gün Zəfər günüdür.

Şahmar ailəsinə demədən döyüşlərin ən şiddətli getdiyi Lələtəpə istiqamətində mübarizəyə başlayıb. Şahmarın döyüşdə olduğunu komandiri, dostu, silahdaşı Samir öyrənib. Şahmarı fikrindən döndərmək istəyib. Ancaq...

Günlər idi Azərbaycan xalqının gecəsi gündüzünə qarışmışdı. Hər kəs bir nəfər kimi cəbhədə baş verənlərdən xəbər bilməyə çalışırdı. Həmin zaman əzizi müharibədə olan heç kimin duymaq istəmədiyi bir xəbər dildən-dilə düşür. Şahmarın əsir götürüldüyünü eşidən bacı-qardaşının dünyası başına yıxılır. Ancaq onlar bu barədə Şahmarın yolunu gözləyən Gülnarə xanıma bir söz deyə bilmirlər. Artıq bu xəbəri gizlətmək mümkün olmur. O xəbərin titrətdiyi bir ürək də Gülnarə xanımın ürəyi olur. Allahın dərgahına göndərilən ovuc-ovuc dualar qarşılıqsız qalmır. Şahmarın əsir düşdüyü xəbəri təsdiqini tapmır. Telefonlara cavab verməyən Şahmar nəhayət ki, sükutu pozur və etdiyi zənglə əsir düşmədiyini təsdiqləyir.

Müharibənin ən sərt üzünü görən Şahmar Aprel döyüşlərində şəhadətin bir addımlığından dönür. Atəşkəs imzalanandan dərhal sonra düşmən onların olduğu yerə



minamyot atır. Həmin zaman Şahmarın döyüş yoldaşı şəhid olur. Həyəcanla 2 ay sonra ata olacağını dilə gətirən silahdaşının nakam arzuları Şahmarın ürəyinə dağ çəkir. Onun qisas hissi bir qədər də artır. Həmin minamyotun partlaması nəticəsində Şahmar diri-diri torpağa gömülür. İki barmağı torpağın üzərində qalan qəhrəmanı ətrafdakılar xilas edirlər. Həmin döyüşlərdə Şahmarın iki həmyerlisi mayor Məmmədov Rasim Əbdül oğlu və Orucəliyev Qabil Əbdüləli oğlu da şəhid olur. Hər iki qəhrəmanın şəhadəti Şahmarı dərindən sarsıdır.

Müharibə bitdikdən sonra bir müddət Şahmar evinə gələ bilmir. Şahmar may ayının əvvəllərində Aprel döyüşlərinin şəhidi yox şahidi kimi evinə dönür.

Müharibə insanı qocaldır. Dörd gündə sanki 40 il qocalan Şahmarın qismətində daha bir müharibə var imiş.

NAXÇIVANIN QƏHRƏMAN OĞULLARI

Naxçıvan hər zaman igidləri ilə seçilib. Ta qədimdən bu torpağın yetirdiyi oğullar şəhid kimi torpağa dönüblər. Anasından ayrı düşən Naxçıvan bir də şəhid oğulların dərdi ilə sızım-sızım sızıldayıb. Ancaq acısı böyük olan bu diyar heç zaman məğlub olmayıb. Nə düşmənə, nə də acıya.

İlk Zəfər qazanıldığı Aprel döyüşlərində Azərbaycanın bütün bölgələrindən olduğu kimi Naxçıvanın da igid oğulları önə atıldılar. Həmin o oğullardan ikisinin, Məmmədov Rasim Əbdül oğlunun və Orucəliyev Qabil Əbdüləli oğlunun alnına Aprel döyüşlərində şəhid olmaq yazılsa da, ayrılmaz dostlar, sirdaş, silahdaş olan Quliyev Şahmar Kəmaləddin oğlunun və Hüseynov Ülvü Möhsün oğlunun qismətinə həmin şəhidlərin qisasını alıb şəhadətə ucalmaq yazılıbmış. Şahmar Aprel döyüşlərində şəhid olan qəhrəmanlarımızın yoxluğu ilə barışa bilmirdi.

Şahmarın Aprel döyüşləri zamanı Məmmədov Rasim Əbdül oğlu haqqında dedikləri:

– Qəhrəmanlıq insanın qanından gəlir. I Qarabağ müharibəsindən günümüzə qədər döyüşlərin izini cismində daşıyan atanın oğlu bu gün arxada ola bilmək şansı olduğu halda öndə vuruşdu. Baxın, bu gün öndə tək əsgər vuruşmur. Rasim Məmmədov kimi bir mayor ən öndə getdi. Rasim hər kəsi geridə buraxıb vətən üçün önə atıldı və şəhid oldu. Əslində Rasim Məmmədov döyüşçü kimi və müəllim kimi bizə dərs verdi. Onun bu döyüşdə atdığı addımlar bizim üçün bir örnək




olmalıdır. Söz vətən olduğu zaman hər kəs rütbəsindən asılı olmayaraq şəhidlik rütbəsinə ucalacağını düşünüb, mübarizə aparmalıdır. Çünki ən yüksək məqam şəhidlikdir. Bu gün qazi Əbdül Məmmədovun yolunu qürurla, layiqincə gedən Rasim Məmmədov bunu aşkaranə sübut etdi. Səngərində mayoru can verən ordu vətən torpağının bir qarışını belə düşmən tapdağında qoymamalıdır!

Şahmarın Rasim Məmmədov haqqında dediyi bu sözlər qürurun və hüznün eyni anda yaşandığı məqamdır. Şahmar çox səmimi bir insan olduğu üçün sevinci gözlərindən oxunduğu kimi kədəri də gözlərindən oxunub.

BÖYÜK AMALA QURBAN GEDƏN ARZULAR

Şahmarın Qabil Orucəliyev şəhid olduğu zaman Qabil haqqında dedikləri:

– Mən illərimin yol yoldaşını, silahdaşımı itirmişəm. Hərbiyə birlikdə addım atdığım, kursant illərini birlikdə keçirdiyim, dostumun düşmən atəşinə tuş gəlməsi gerçəyi ilə barışa bilmirəm. Orucəliyev Qabil Əbdüləli oğlu ilə 2006-cı ildə həyat yollarımız kəsişdi. Əvvəlcə Heydər Əliyev adına Hərbi Liseydə, daha sonra Azərbaycan Ali Hərbi Məktəbində təhsil aldıq.



Mən bilməzdim ki, bir gün eyni döyüşdə birlikdə iştirak etmək bizim alnımıza yazılar.

Qabilin arzuları var idi. O yeni doğulan oğlunun qoxusunu duymaq üçün səbirsizlənirdi. Nə bilərdi ki, övladının alnına şəhid atası Qabilin adını daşımaq yazılacaq. Körpə Qabilin də alnına atası kimi atasız böyümək yazıldı. Bir uşaq üçün ata qoxusunu duymamaq hər zaman kəm qalan sevinc deməkdir. Qabil atasız böyüyəcək. Ancaq onun atalı arzuları heç zaman böyüməyəcək.

Bu vətən neçə-neçə oğulların kəm qalan arzularıdır. Bu vətənin hər daşı-qayası sanki şəhid məzarıdır. Torpağı, bayrağı müqəddəs bilən Şahmar kimi qəhrəmanlar şəhid qanlı torpağı düşmən tapdağında qoymadılar.

İKİ DOST – İKİ NAKAM HƏYAT

(Samir və Şahmar dostluğu)

– Kaş ki, Şahmarın ata olduğu müjdəsini alardım. Ondan sonra ölsəm də, bir qəmim olmazdır. Mən Şahmarın həsrətlə "Övlad" deməsinə dözə bilmirəm.

Bəs bu qədər doğmalığın təməli necə qoyulmuşdu?

Şahmar Azərbaycan Ordusunun bir leytenantı kimi artıq Beyləqan rayonunda yerləşən N saylı hərbi hissədə xidmət etməyə başlamışdır. Həmin vaxt Qasımov Samir Bəhrəm oğlu Şahmarın komandiri olmuşdur. Təməli sağlam qoyulan dostluq münasibəti günü-gündən ürəklərdə kök atmışdı. Güvən, etibar, ehtiram bu dostluğu ailəvi dostluğa çevirmişdi. Onlar biri-birlərinin evlərinin ən əziz insanları olmuşdular. Hələ Aprel döyüşləri gedən zaman Samir Şahmarı qorumağa çalışırdı. Hər ikisinin böyük ürəkləri dostun əvəzsiz ünvanı olmuşdu. O iki qəlbdə iki arzu yer etmişdi. Biri Qarabağı azad etmək, biri isə Şahmarın ata olması.

– Oktyabrda Şahmarın övladı olsa, maşınımı uşağa bağışlayacam. Mən o günü gözləyirəm. Mənim ürəyimdəki bu həsrət bitsin, ölsəm də dərdim olmaz...

Samir Şahmarın ata olacağı xəbərini eşitsə də, onun ömrü o körpəni qucağına almağa vəfa etmədi. Şahmarın ata olacağına 2 ay qalmış bir qəza Samirin ömür yollarını yarıda kəsdi. Şahmar üçün Samirin ölümü dost adlı sarayının yerlə yeksan olması, arzularının viran olması, dayağının kökündən qopması demək idi.



Şahmar körpəsini ilk qucağına aldığı an gözləri Samiri axtarıb. Axı onların birgə xəyalları, arzuları olub. Ancaq həyat elə gətirib ki, balaca Kamala (Kəmaləddinə) Samirin il mərasiminə getmək qismət olub. Həmin vaxt Samirin anasının dediyi sözlər ürəkləri dağlayıb.

– Samir, gəlişinə qurban dediyin Kamal gəlib. Gəl qurbanını kəs.

Həyat bəzən elə oyun oynayır ki, mat-məəttəl qalırsan. Samirin əmanətləri Rəvan və Elcan atalarından sonra Şahmarı bir dayaq biliblər. Lakin həyat onları Şahmarın yoxluğu ilə də sınağa çəkib.

AYRILMAZ DOSTLAR

Bu həyatın yollarında,
Qəm əkilib, dərd biçilir.
Sizsiz sizin dostluğunuz,
Dəyəri ilə seçilir.

İllərin sevincli anı,
Xatirələri bəzəyir.
Ay torpağa çevrilənlər,
Doğmalar sizi gözləyir.

Dost adında bir sərvəti,
Başınıza tac bildiniz.
Hər ikiniz vaxtsız gedib,
Qəlbi dərd ilə dəldiniz.

Samir, Şahmar ata oldu,
Sevincini kəm yaşadı.
O gün çiyni boş qalarkən,
Gizlin ürəkdə ağladı.

Axı arzun vardı sənin,
Çatmadın o arzulara.
Samir, əmanətin kimi,
Şahmar baxdı balalara.

Ancaq həyat ayrılıqla,
Sınadıqca hey sınadı.
Şahmarın da həyat bağın,
Fani dünyadan qopardı.

İki dostun taleyinə,
Yer ağladı, göy ağladı.
Sizsiz dünyada qalanın,
Qəlbini bu dərd dağladı.

XİLASKAR

Hər insana verilən can Allahın ona bəxş etdiyi ən dəyərli nemətdir. Yalnız insanın özünəməxsus, tək onun olan şey canıdır. Allahın hər bəndəyə, canlıya əmanət etdiyi öz varlığıdır. Allah hər bəndənin zahirini, daxilini yaradır və ömür yolunu təyin edir. Bəzi insanları isə xilaskar olaraq yaradır. Şahmar həmin o xilaskarlardan biridir. Həm dost xilaskarı, həm də vətən xilaskarı.

Yenə Şahmarlı ömrün səhifələrində göz yaşları cığır açdı. Cəmi 4 aylıq tanışlığın min illərə bərabər xatirələri və min illər sonra da unudulmayacaq bir insanlıq əsəri. Əminəm ki, bu əsəri Elgün müəllim son nəfəsinə qədər hər kəsə danışacaq. Çünki o, aldığı nəfəsi Allaha və Şahmara borcludur. Şahmarın qəhrəmanlığını Elgün müəllimin öz sözləri ilə yazıram.

Şahmarın komandiri Hacıyev Elgün Əmrulla oğlu:

– Şahmarla Vətən müharibəsi başlamazdan 4 ay öncə tanış olduq. Bir komandir olaraq atdığı hər addımla məni razı salırdı. İstər insani keyfiyyətləri, istərsə də xidməti ilə mükəmməl biri idi. Sədaqətinə, ləyaqətinə heç bir şübhəm yox idi. Elə ona görə də müharibənin ilk anından Şahmarla bərabər addımladım. Döyüşlər zamanı gördüklərim isə bir ömür xatırlamağım və həsrətini çəkməyim üçün mənə bəs edər.

II Qarabağ müharibəsi başlayan ilk andan Şahmarla bərabər ön cəbhədə mübarizə apardım. Mən komandir kimi kürəyimi hər zaman kapitan Quliyev Şahmara söykəyirdim. Bilirdim ki, nə olur olsun Şahmar məni darda qoymaz.

Şahmar nəinki məni darda qoymadı, o, öz canını heçə sayıb məni xilas etdi.

Müharibənin ilk günü biz ən öndə 5 nəfərlik heyətlə irəliləyirdik. Düşmənin bizi gözlədiyi yerdən yox, digər tərəfdən yaxınlaşıb canlı qüvvələrini zərərsizləşdirib həmin postu götürdük. 2 postu azad etdikdən sonra bu qələbənin sevincini yaşadıq. Gərgin döyüşdən sonra elə düşmən postunda Şahmarla üz-üzə dayanıb söhbət etdiyimiz zaman yanımıza minamyot atıldı. Həmin zaman səngər cismimi gizlətsə də, baş nahiyəmdən ağır qəlpə yaraları aldım. Mənim qanım Şahmarın üstünə çiləndi. O an yavaş-yavaş gücümün tükəndiyini hiss etdim. Bir müddət sonra Şahmarın məni silkələyərək ***"Komandir, getmə. Oyan, oyan..."*** dediyini eşitdim. Daha sonra təkrar sanki dünyadan təcrid olundum. Lakin Şahmar mənim yaşamağım üçün mücadiləyə davam edirdi. Bir müddət sonra təkrar Şahmar ***"Komandir, sizi burdan çıxaracam. Siz övladlarınızın yanına salamat dönəcəksiniz"*** – deyib məni kürəyinə qaldırdı. 5 saat yaralı olmağım və çoxlu qan itirməyim səbəbindən artıq taqətim yox idi. Şahmar 3 km-dən çox neytral zonanı açılan atəşlərə məhəl qoymadan keçib, məni tibb personalının yanına çatdırdı. Tərtər hospitalından Gəncə hospitalına göndərildiyim zaman xərəkdə son dəfə Şahmarı gördüm. Həmin vaxt ona özündən və döyüş yoldaşlarından muğayat olmağını və mənim yerimə bütün qərarları verə biləcəyini dedim. Çünki mən Şahmarın necə səriştəli zabit olduğunu bilirdim. O görüş bizim son görüşümüz oldu.

İki gün həyat mücadiləsindən sonra Gəncə şəhər xəstəxanasında gözlərimi açdım. Yanıma gələn hərbçilərdən vəziyyətin necəliyini soruşdum. Onlardan Şahmarla əlaqə yaratmaqlarını xahiş etdim. Ancaq bu mümkün olmadı. Çünki Şahmar 2 gün öncə şəhid olubmuş. Bu xəbəri duyduğum anda nəfəsim kəsiləcək sandım. "Kişilər ağlamaz" deyirlər. Ancaq mən 1 həftə dayanmadan ağladım. Mənim yaşamağıma səbəb olan, məni ölümün bir addımlığından

geri döndərən, övladlarımın atasız qalmamaqlarının səbəbkarı olan Şahmarın həyatda olmamağı mənə ən böyük işgəncə idi. Xəstəxanadan çıxdığım ilk gün mən Şahmarın görüşünə tələsdim. Xilaskarımı bir məzarda görmək mənim üçün çox ağır gəldi. II Fəxri xiyabanda düzülən boş məzarlardan birinin də mənim son mənzilim olmağını arzuladım və arzulayıram. O zamandan sonra hər ayın 28-də (*bəzən işimlə əlaqədar istisnalar olur*) mən Şahmarın ziyarətinə gedirəm.

Mənim Şahmara ömür borcum var. Saatlarla məzarı ilə danışıb ona təşəkkür edirəm. Ancaq mən o təşəkkürü Şahmarın özünə etmək istərdim. Şahmar mənim övladlarımın ata həsrəti çəkmələrinə mane olsa da, onun tək övladı Kəmaləddin atadan doymadı və ömrünün sonuna qədər ata həsrəti çəkəcək. Bu acı gerçək mənim qəlbimin ən dözülməz ağrısıdır.

"Dost dar gündə tanınar." Şahmar həyatın ən çətin anında tanındı. Ən sadiq dostum oldu. Bu dostluğumuzun ömrü Şahmarın ömrünə bənzədi. Mən Şahmarla fəda olmağın nə demək olduğunu öyrəndim. Mənə desələr dostluğun izahı nədir? Cavabımda "Şahmar" – deyərəm.

SON NƏFƏSİN ŞAHİDİ

Müharibə bir insanın yaşaya biləcəyi ən çətin sınaqdır. Müharibə aldığın nəfəsin son nəfəs ola biləcəyini bilərək yaşadığın şəraitdir. Müharibə yad birinin ən doğmana çevrildiyi zamandır. Müharibə unutmaq istədiyin, ancaq son nəfəsinə qədər unuda bilmədiyin xatirədir. Müharibə ölümün aniləşdiyi şəraitdir. Elə ona görə də müharibədə olan biri müharibədən sonra həyata başqa prizmadan baxır.

Müharibənin hər üzünü görən qəhrəman Nuri Əhməd Vətən müharibəsində ən böyük itkilərdən biri hesab etdiyi Şahmar Quliyev haqqında danışdı. Şahmarın son döyüşünün, son nəfəsinin şahidi olan qəhrəman üçün danışmaq, mənim üçün isə dinləmək asan olmadı.

Şahmarın şəhid olduğu anın şahidi Nuri Əhməd:

– Şahmarla hərbçi kimi yollarımız müharibədən 6 ay öncə Yevlax rayonunun Aran qəsəbəsində yerləşən N saylı hərbi hissədən başladı. Şahmar həmin hərbi hissədə mənim komandirim idi. Çox gözəl insan, çox məsuliyyətli komandir idi. İşinin peşəkarı idi desəm, yalan olmaz.

27 sentyabrda Vətən müharibəsi başlayan zaman Şahmar ilk önə atılanlardan biri oldu. Müharibə görmüş bir komandir kimi o nə etmək lazım olduğunu yaxşı bilirdi. Şahmarla eyni texnikada irəliləyirdik. Tərtər rayonunun Çaylı kəndi istiqamətində ən öndə bizim dəstə gedirdi. Komandirimiz 5 nəfərlik heyətlə ən öndə gedirdi. Arxadan da digər dəstələr irəliləyirdi. Biz düşmənin 2 postunu bütün qüvvələri ilə birlikdə məhv etdik. Şahmar

təkbaşına 7 düşməni zərərsizləşdirdi. Xeyli sayda hərbi qənimət əldə etdik. Artıq Suqovuşanın üzərinə illərdən sonra azadlığın nuru çilənməyə başlamışdır. İlk qalibiyyətdən sonra biz qısamüddətli fasiləyə çıxdıq. Bizi əvəz edən dəstə də düşmənin başına od ələyirdi.

28 sentyabrda komandirimiz Şahmar Quliyev yenidən önə doğru irəliləyəcəyimizi bildirdi. Əsgərlərini özündən çox düşünən komandir çalışırdı ki, heyətində itki olmasın. Həmin gün saat 17:00 radələrində yemək yedikdən sonra döyüşə girməyə hazırlaşırdıq. Şahmar bir qədər bizdən aralanıb önə doğru irəlilədi. Binokl ilə müşahidə aparan zaman düşmənin açdığı snayper atəşinə tuş gəldi. "Şahmar vuruldu." Bu bizim üçün qəbuledilməz bir acı gerçək idi. Başından vurulan Şahmarın qanlı dəbilqəsini dörd ayın əsgəri olan Şahmarlı Elvin götürüb başına qoydu. O, Şahmarın qanını yerdə qoymayacağına and içdi. O and hər birimizin pozulmaz andı idi. Biz Şahmarın nəşini həmin ərazidən götürdük. Komandirimizin cansız cismini daşımaq dünya boyda ağır yük daşımağa bərabər idi. Əminəm ki, orada olan bütün hərbçilər Şahmarın həyatda olmağını özlərinin yaşamaqlarından daha çox istəyirdilər. Çünki Şahmar bütün heyətin yol göstərəni idi. Şahmar şəhid olduqdan sonra heyətimiz böyük itkilər verdi. Şəhid, yaralı və qəlbi yaralılar...

Şahmarın dəbilqəsini başına taxıb öndə gedən Şahmarlı Elvin andını pozmadı. O Suqovuşan istiqamətində son nəfəsinə qədər vuruşdu və qəhrəmancasına şəhid oldu. Müharibənin ikinci günü şəhid olan Şahmar və ona Suqovuşanın azadlıq müjdəsini aparan Elvinlə birlikdə bütün şəhidlərimizin intiqamını aldıq. O şəhidlərin ruhu ilə birlikdə Qarabağın hər qarışına şanlı Azərbaycan bayrağı sancdıq.

SON NƏFƏS

Sən bir ümid idin əsgərlərinə,
İllərin sükutu pozulan zaman.
Hər kəsin qəlbində ümidlə birgə,
Zəfər qazanmağa var idi inam.

Zəfər yollarına ilk qədəm basıb,
Düşmən ordusuna sən divan tutdun.
İllərdi vətənin ağlayan gözün,
Qanlı köynəyinlə silib qurutdun.

Haqqın sədasını kəsə bilmədi,
Nə atəş, nə də ki, dünyanın səsi.
Dərddən çat-çat olan Tərtər torpağı,
Susqunca dinlədi o son nəfəsi.

Hansı kəm arzunu söylədin, şəhid,
Yoxsa sevincini dilə gətirdin?
Düşmən tapdağında qalan torpağın,
Sonuncu nəfəsdə qəmin bitirdin.

İKİ DÜNYANIN AYRILMAZLARI

Şəhidlərin həyatları biri-birinə bənzəyir. Nakam ömürlər, arzular və müharibə. Hər şəhidin həyatına nəzər saldıqda mütləq daha öncədən sənə tanış olan bir izə, bir duyğuya rast gələcəksən. Bu dəfə Şahmarın həyatında insanlığa yaraşan hər rəng çalarına rast gəldim. Bu həyata nəzər saldığımda Şahmarın ömür yoluna həm dost, həm döyüş yoldaşı, həm də cənnət yolçusu kimi iz salan Hüseynov Ülvü Möhsün oğlunu unuda bilməzdim.

Ülvü ilə Şahmarın birlikdə addımlayacaqları həyat yolunun başlanğıcı Beyləqan rayonunda yerləşən N saylı hərbi hissədən başlamışdır. Əvvəl tanış, eyni elin yetirmələri kimi tanış olsalar da, zaman onları biri-birlərinə daha da doğmalaşdırmışdır. Təməli güclü qoyulan bu münasibət günbəgün möhkəmlənmiş və dostluğa çevrilmişdir. Onlar hərbi hissədə silahdaş, adi həyatda isə sirdaş olmuşdular. Şahmar və Ülvü dostluğu nümunə gətiriləcək dostluğu çevrilmişdir.

Həyat yolları müharibəyə uzanan qəhrəmanlar Aprel döyüşlərində də iştirak etmişdilər. Zəfər sevincini yaşayan hər iki qəhrəmanın arzuları da eyni olmuşdur – Qarabağın azadlığı...

Vətən müharibəsi başlayan ilk gündən Şahmar və Ülvü vətənə zəfər bəxş etmək yolunda mücadiləyə başlamışdılar. Fərqli istiqamətlərdən döyüşə başlayan dostların birinin qismətində digərinin şəhidlik xəbərini aldıqdan sonra şəhid olmaq var imiş. Sentyabrın 28-də şəhid olan Şahmarın şəhadətə ucaldığı xəbərini Ülvünün həyat yoldaşı Səmiyyə xanım Ülviyə deyən zaman o, bir neçə dəqiqə telefonun başında sükuta qərq olmuşdu.



– Qanı yerdə qalmayacaq!

Ülvü bu sözü əməlində sübut edib. Düşünün ki, müharibədə ən əziz dostuna güllə atan düşmənlə üz-üzəsən. Ülvü neçə-neçə düşməni məhv edib. Müharibənin son gününə qədər nə azadlıq arzusundan, nə də qisas andından dönməyib. Şuşanın azadlıq sevincini yaşayarkən ürəyi Şahmar üçün də döyünüb.

Bir zamanlar 7 noyabrda Şahmarın ad gününü ilk təbrik edənlərdən biri Ülvü olardı. 2020-ci ildə də Şahmarın cənnətdəki ilk ad gününü ilk təbrik edən Ülvünün ruhu oldu. Əziz dostunun bir zamanlar dünyaya göz açdığı gün şəhadətə ucalan Ülvü dostunun cənnətinə tələsdi. Həyatda ayrılmayan dostlar əbədiyyətdə də ayrılmadılar.

Dost əlini çiyinlərində hiss edənlər hər zaman güclü olurlar. Bu həyatda bir dost kimi Şahmarın arxalandığı Ülvü II Fəxri xiyabanda da sanki məzarı ilə Şahmara dayaq durur. Əli Şahmarın çiynində olmasa da, məzarı dost məzarına kölgə salır.

ƏBƏDİ DOST QALANLAR

Bu vətən yolunda canından keçən,
Qəhrəman oğullar gəlmirlər saya.
Şahmar və Ülvünün sədaqətləri,
Bənzədi ürəkdə uçmaz saraya.

Vətənə sevdalı hər iki oğul,
Kürəyin dost üçün körpü elədi.
Şahmar şəhadətə ucalan zaman,
Ülvü qisas andın qəlbdə söylədi.

Alıb dost qisasın qəhrəman Ülvü,
Şahmara cənnətdə müjdə apardı.
Dünyanın ayrılmaz iki dostunun,
Cənnətə yazıldı ömrünün ardı.

HƏYATIN SON, ƏBƏDİYYƏTİN İLK GÜNÜ

QARDAŞIN QARDAŞ HƏSRƏTİ

Bir həyatın bu dünyada nöqtələnib digər dünyada başladığı o qürurlu və hüznlü gün...

Sentyabrın 27-də Şahmar vətən üçün, hər kəs də Şahmar üçün nigaran idi. Şahmardan gələn hər zəngi doğmaları səbirsizliklə gözləyirdi. Şahmar da əzizləri, doğmaları nigaran qalmasın deyə zəng edir, arabir də mesaj yazırdı. Şahmar bilirdi ki, o olmasa, bu həyatda onu sevənlər onsuzluqdan çox acı çəkəcəklər. Ancaq iki nəfər var idi ki, Şahmar o iki nəfəri hər kəsə tapşırırdı. Gülnarə (Gülü) və Kəmaləddin (Kamal)...

– Sən mənim arxa-dayağımsan. Hələ bilmirik nə olacaq. Narahat olma, qardaşım. Oğlum və yoldaşım sənə əmanətdir. Allah amanında. İnşəallah tez zamanda görüşərik. Öpürəm.

Şahmar bu mesajı 26.09.2020-ci ildə saat 23:32-də qardaşı Amil müəllimə yazmışdı. Müharibə görmüş biri kimi o bilirdi ki, bu gedişin dönüşü olmaya da bilər. Elə ona görə də onsuz bu həyatda yarımçıq qalacağını bildiyi Gülnarə və Kamalı doğmalarına dönə-dönə tapşırmışdır. Bəs, müharibə şəraitində qardaşından bu mesajı alan qardaş o anlar nələr yaşamışdır?

Şahmarın qardaşı Amil Quliyev:

– O mesaj gələn an düşüncələrim qarışdı. Zarafatmı, gerçəkmi bilmədim. Həmin an Şahmara zəng etdim. Mesajda yazdıqlarını təkrar etdi. Mən o an onun sözlərini arzula-

rımla böldüm. Böyük qardaşlar kiçiklərin yoxluqlarını düşünməzlər. Mən qardaş tabutu daşıyacaq gücə sahib biri deyiləm. Şahmara dedim öləndə mən sənin çiyinlərində gedəcəm. Ancaq qismət elə gətirdi ki, Şahmarın ömür yolu qısa oldu. Ancaq mən qardaşımın tabutunu çiyinlərimdə daşıya bilmədim.

Son dəfə sentyabr 28-də səhər 11:00-da zəng etdi. Lap öndə olduğunu və bunu heç kimə bildirməməyimi xahiş etdi. Sanki son olduğunu bilirdi. Susmayan atəş səslərini eşitməmək əldə deyildi. Uzaqdan duyduğum o səs məni əməlli-başlı qorxuya saldı. Şahmar həmin danışıqda da Gülnarə və Kamalı mənə əmanət edib, mənimlə vidalaşdı. Elə həmin gün həyatla da əbədi vidalaşdı.

Qardaşımın dəfninə gələ bilmədim. Uzun müddət qəbrini də ziyarət edə bilmədim. Mən Şahmarın bir məzara sığa biləcəyinə inanmıram. Mən Şahmarın bu dünyada olmadığını qəbul edə bilmirəm.

Mənim üçün xoşbəxt həyat, sevincli günlər 2020-ci ilin fevralında, Şahmar son dəfə Naxçıvanda olan anlarda donub qalıb.

QARDAŞ HƏSRƏTİM

Sənə arxalandım mən bu dünyada,
Sən idin ümidim, pənahım, qardaş.
Heç vaxt düşünməzdim bizi ayırar,
Ömürlər bitirən qanlı bir savaş.

Mənim arzum idi sənin çiynində,
Sonuncu mənzilin yolçusu olum.
Daş olan evinə çatır, qardaşım,
Qardaş həsrətiylə çıxdığım yolum.

Sənin söylədiyin o son sözlərin,
Xəstə ürəyimi sanki dağ çəkir.
Hər "Qardaş" kəlməsin duyduğum zaman,
Elə bil ömrümə qaranlıq çökür.

ATANIN OĞUL HƏSRƏTİ

Hər ayrılığın rəngi göz yaşı rəngindədir. Ataların göz yaşının rəngi isə çox zaman görünmür. Çünki çox zaman atalar göz yaşlarını qəlblərinə axıdırlar. Qəlblərində qəm nehri yaranan Şəhid ataları o boyda dərdə rəğmən yenə də güclü görünmək məcburiyyətində olurlar.

Şəhid atası Kəmaləddin Quliyev:

– Şahmarla hər ata-oğlun ola bilməyəcəyi qədər yaxın və səmimi münasibətimiz var idi. O, mənim tək oğlum yox, həm də dostum idi. Övladlarımdan təkcə o mənə "Dədə" deyə müraciət edirdi. Şahmar evimizin xoşbəxtlik səsası idi. Sanırdım ki, o səda hər zaman evimizdə duyulacaq. Ancaq o səda əbədi susdu.

Sentyabrın 26-dan 27-nə keçən gecə Şahmar mənə zəng etdi. Dedi "***Ata mənə halallıq ver. Gedirik tonqal yandırmağa.***" Ah Şahmar, o tonqal sən gedən gündən ürəyimdə çatılıb. Şahmarın sözləri qarşısında sanki dilim tutuldu. Artıq vəziyyətin nə yerdə olduğunu bilirdim. Ancaq əlimdən heç nə gəlmirdi. Azadlıq yolunu getməyə hazırlaşan oğluma geri dön deyə bilmədim. Haqqımı halal etdim. Vətəni oğluma, oğlumu Allaha əmanət etdim.

Sentyabrın 28-də telefonuma tanımadığım nömrələrdən gələn zənglərlə biri-birinə zidd olan xəbərlər aldım. Əvvəlcə Bərdə rayon hospitalından gələn zəng məndə Şahmar sağdır ümidi yaratsa da, bu ümidin ömrü qısa oldu. Həmin müddətdə Şahmar adlı 4 yaralı və şəhid gətirildiyi üçün mənə zəng edib təcili xəstəxanaya getməyimi dedilər. Eyni zamanda da Şahmarın bir zamanlar təhsil aldığı Heydər Əliyev adına Hərbi Liseyin rəisi zəng edib

məni alışdıra-alışdıra Şahmarın şəhid olduğunu dedi. Kimin verdiyi xəbərə inanım bilmədim. Ancaq çox istəyirdim ki, yaralı olmağı xəbəri düz olsun. Həmin dönəmlərdə pandemiya səbəbindən təyyarə uçuşlarının olmaması sanki əlimə-qoluma vurulan qandal oldu. Mən çarəsizliyin nə demək olduğunu o günlərdə öyrəndim. Həm oğul itkisi, həm də oğul dəfninə gedə bilməmək bizim üçün dözülməz idi. İndi düşünürəm ki, mən və anası o boyda acıya necə tab etmişik? Demək ki, Allah güclü edib. Bilirsiniz, oğul dəfnini görüntülü zəng vasitəsi ilə izləmək nə deməkdir? (*Bu sualın cavabının ağırlığı ürəyimin qəlibinə sığmayacaq qədər böyükdür.*)

Oktyabrın 4-də Şahmarın boynuna yox məzarına sarıldıq. O gün bildim ki, daha həyatda Şahmarsız qalmışam.

ADIN FƏXARƏTİMDİR

Mənə həm oğul idin,
Həm də ki bir dost, Şahmar.
Sən gedəndən qəlb evim,
Sanki olubdu tar-mar.

Adın fəxarətimdir,
Həsrətinsə sınağım.
Sən gedəndən laxladı,
Dünyadakı dayağım.

Oğlu daş olan ata,
Neynir fani dünyanı?
Torpağı vətən etdi,
Şahmar, daman al qanın.

Sənə vətən deyirəm,
Vətənin vətən daşı.
Ürəyimə yol alıb,
Həsrətimin göz yaşı.

Sən mənə bəxş elədin,
Şəhid atası adın.
Səntək mərd sayəsində,
Xalq daddı zəfər dadın.

ANANIN OĞUL HƏSRƏTİ

Övlad ananın canından can verdiyi bir əvəzsiz varlıqdır. Övladın canı yansa, ananın ürəyi o an sanki alova qərq olar. Analar övladlarına sipər olmağa çalışarlar. İlk addım atan körpəsinin yıxıla-yıxıla böyüməsini görən ananın sevincinə belə "Oğlumun yerə dəyən dizləri ağrıyır" sözləri kölgə salır. Bəs oğlu şəhid olan ananın çəkdiyi acının, həsrətin böyüklüyünə bir qəlb necə tab gətirsin?

Şəhid anası Səkinə Quliyeva:

– Şahmar gedəndən nəyim qaldı bu dünyada? Tənhalaşdım, yetimləşdim, kimsəsizləşdim... Elə bil hər kəsim Şahmar imiş. O getdi, mən məni belə itirdim.

Onun "Ana" kəlməsini bircə dəfə eşitməkçün hər şeydən keçərdim. Şirin zarafatları, gülər üzü ömrümün rövnəqi idi. O, getdi, həyatımda bütün gözəlliklərin izi itdi.

Şahmar hər kəslə mehriban idi. Ancaq mənimlə bir başqa münasibəti var idi. Bəzən ana-oğul elə zarafatlar edərdik ki, ətrafdakılar təəccübünü gizlədə bilməzdilər. Ürəyimdə boş qalan yeri dolmur, dolmayacaq.

Şahmarla bağlı heç bir xatirəni unutmamışam. Sonbeşik olduğu üçün ailədə bir başqa sevərdik vətən payı oğlumu. Nə yalan deyim, onu itirməkdən çox qorxurdum. Hərbi məktəbi seçəndə dedim "Ay oğul, sənin istənilən universitetə qəbul ola biləcək savadın var. Gəl fikrindən daşın." O isə mənə verdiyi cavabla yolundan dönməzliyini sübut etdi.

– Ay ana, mən hərbçi olmayım, o olmasın, hər kəs digər peşələri seçsin, bəs onda vətəni kim qoruyacaq? Torpaqlarının 20 faizi işğal olunmuş vətəndə alim olsan nəyə yarayar, həkim olsan nəyə yarayar? Mən vətənin yarasını sağaltmaq üçün hərbçi olacam.

Şahmar vətənini bizlərdən çox sevdi. 2006-cı ildən sonra oğlumu doyunca görə bilmədim. Vətən yoluna qədəm qoyan Şahmarım evimizin yoluna az-az qədəm qoymağa başladı.

Alnına iki döyüşün iştirakçısı olmaq yazılan Şahmar Vətən müharibəsinə getdiyi andan ürəyim səksəkədə idi. Son dəfə sentyabrın 27-də axşam saat 19:05 radələrində danışanda vəziyyətin gərginliyini onun səsindən hiss etdim. Özü döyüşdə olan oğlum yenə də özünü deyil, sevdiklərini düşünürdü. İllərlə həsrətini çəkdikdən sonra bağrına basdığı Kəmaləddini və sevgisi ilə yaşadığı Gülnarəni bizə əmanət etdiyini dedi. Çox qısa zaman öncə ailəsinə yaxın olmaq üçün yarını və oğlunu Mingəçevirə aparmışdı. Döyüşdə olan zaman sevdiklərindən nigaran olduğu üçün bacısına onları Bakıya aparmasını tapşırdı. Oğlumun bizdən son istəyi elə ailəsi oldu. Sən demə, Şahmarın alnına şəhid olmaq yazılıbmış.

Bir ananın "Oğlun şəhid oldu" xəbərini alması qədər ağır və ağrılı bir xəbər ola bilməz bu dünyada. O gün mənim üçün yaşamın bitdiyi gündür. O gündən sonra mən bu dünyanın cismən var olan, ruhən isə ölən bir sakiniyəm.

Həyat sanki məni sınadıqca sınayırdı. Oğlumu itirməyin acısı ürəyimi yandırdığı kimi, oğlumun dəfninə gedə bilməmək də sinəmə çarpaz dağ çəkdi. (*O anları izah etməyə sözlərin gücü yetməz.*)

Şahmarımın nakam qalan hər arzusu məni cayır-cayır yandırır. Nə yardan doydu, nə də övlad qoxusundan. Yarının gətirdiyi cehizlərin çoxu heç açılmadı. Oğlumun sevgi dolu ailəsi bir anda param-parça oldu.

Şahmar geridə Kəmaləddini bizlərə əmanət qoyub. Yerişi, baxışı, gülüşü atasının eynisi olan Kəmaləddin bizim tək təsəllimizdir. Oğlumun qoxusunu nəvəmdən alıram.

Bilirəm ki, Şahmar əbədiyaşardır. Hər sübh namazından sonra onunla söhbət edirəm. Bilirəm mən onu görməsəm də, o məni görür. Aldığım hər nəfəsdə Şahmarım var...

ŞAHMARIM

Oğul həsrətindən yanan qəlbimi,
Təsəlli ovutmaz, bir söz ovutmaz.
Analar oğullu ötən günlərin,
Gözəl xatirəsin heç vaxt unutmaz.

Mənim ürəyimin Şahmar adında,
Bir ümid sarayı uçdu, talandı.
Şahmar bu dünyadan köç edən gündən,
Bu dünya mənimçün daha yalandı.

Hər sözü-söhbəti qəlbi oxşayan,
Oğlumdan doymadım mən bu dünyada.
Vətən sevdalısı canından keçib,
O, da layiq oldu müqəddəs ada.

Bilirəm, məqamı ali məqamdır,
Hər oğul şəhadət yolundan keçməz.
Nə qədər dünyada yaşayacağam,
Şahmarın həsrəti qəlbimdə bitməz.

BACININ QARDAŞ HƏSRƏTİ

Qardaş bacı üçün sevginin, dəyərin, dəstəyin sonsuzluğudur. Qardaşın bacı ürəyində var olduğu yer yalnız qardaşa məxsus olur. Həmin o yerdən qardaş adlı bir sevgi cücərib günü-gündən boy atmağa başlayır. O sevginin kökü ruhun dərinliyinə gedir. Yaşanılan ən böyük sevgilərdən biridir qardaş-bacı sevgisi. Hələ bir də əgər qardaş bacıdan 7 il sonra dünyaya gələrsə, onda o bacı qardaşın qayğısını həm də ana kimi çəkər. Çinarə xanımın Şahmarın qayğısını çəkdiyi kimi.

Şahmarın bacısı Çinarə xanım:

– Valideynlərimin bu dünyada mənə bəxş etdikləri ən dəyərli varlığım idi iki qardaşım: Amil və Şahmar. Amil dünyaya gələn zaman həyatı o qədər dərindən dərk etməsəm də, Şahmar dünyaya gəldiyi zaman qardaş adlı çırağın işığının nə qədər gur yandığının fərqində idim. Şahmarı o qədər sevirdim ki, bəzən o sevginin ana-bala sevgisinə bərabər olduğunu hiss edirdim. Onun bütün qayğısını çəkməkdən, onu böyütməkdən zövq alırdım. Zamanın Şahmarı böyütdüyünə sevinirdim. Ancaq bilmirdim ki, o zaman qardaşımı məndən ayırmaq üçün sürətlə ötür.

Şahmarla bağlı xatirələrim cild-cild kitablara yazılacaq qədər çoxdur. Onun ilk dəfə məktəbə getməyi, məktəbdə ötən günlərinin hər biri yaddaşımda silinməz iz buraxıb. O günlərdən biri də Şahmarın hərbçi olmaq üçün Heydər Əliyev adına Hərbi Liseyə getmək istədiyini dediyi gündür. Nə yalan deyim, heç istəmirdim ki, Şahmar o peşəni seçsin. Bilirdim ki, o peşə qardaşımı, bala qədər əziz olanımı məndən ayıracaq. Ancaq Şahmar mənə söz vermişdi. ***"Sən***

mənim həm bacım, həm də anam kimi qayğıma qalmısan. Hara getsəm də, səndən uzaqlaşmaram" demişdi varlığından doymadığım. Düzdür, həyat əvvəllər bizim lehimizə işləyirdi. Mən ailə qurub Bakıya gəldim. Həmin zamanlar Şahmar da Azərbaycan Ali Hərbi Məktəbinə qəbul oldu. Söz verdiyi kimi, məndən ayrılmadı. Yenə də qardaşımın qayğısı çəkdim. O qədər gözəl qəlbi var idi ki, hər kəsə o qəlbin sevgisindən pay düşürdü. Dostcanlı olduğu üçün bəzən dostları ilə birlikdə qalmaq istəyirdi. Ancaq onu gözümdən kənara qoya bilmədiyim üçün dostları ilə birlikdə bizdə qalmaqlarını istəyirdim. Mən bilməzdim ki, həyat Şahmarımı məndən əbədi ayıracaq.

Hər zaman Naxçıvana birlikdə gedərdik. O günlər dünyanın ən xoşbəxt ailəsi biz idik. Hər sirrini mənimlə bölüşən Şahmar qəlbini ovsunlayan eşqini də mənimlə bölüşmüşdü. Gözlərindən oxunurdu eşqinin böyüklüyü. Qardaşımın xoşbəxt olduğu üçün çox xoşbəxt idim. ***"Bacı, sevirəm"*** dediyi zaman dedim "Bacı qurban, sevgin sevgimdir." O sevgini nikah masasına uzanan görmək, o sevginin bala adlı bəhərini görmək məni həddindən ziyadə xoşbəxt edirdi.

Hərbçi olmaq daimi bir məskəninin olmaması deməkdir. Şahmar ilk olaraq Gülnarəni bizə gətirdi. Yoldaşım Maliklə birlikdə onların xoşbəxtliyi üçün çalışdıq. İsti ocağımız isti ocaqları oldu. Mən bilməzdim ki, bir zaman evimdə bəy otağı düzəltdiyim qardaşım mənim evimdən şəhid kimi son mənzilə yola salınacaq.

26 sentyabr mənim üçün Şahmarın dönməyəcəyini bilə-bilə vətən yoluna qədəm qoyduğu gündür. Həmin gün axşamüstü mənə zəng edən Şahmar dedikləri ilə ürəyimi cayır-cayır yandırdı.

– Bacı, gedirik. Gülü, Kamal (Gülnarəyə Gülü, Kəmaləddinə Kamal deyərdi) sənə əmanətlərimdir. Ola bilər gəlmərəm. Get onları Mingəçevirdən öz evinə gətir. Gözüm arxada qalmasın. Onların rahat olduqlarını bilsəm, mən də rahat olaram.

Bir bacı üçün qardaşdan vəsiyyət duymaq qədər çətin və ağrılı an yoxdur sanmışdım. Sən demə, var imiş. Ömürboyu o vəsiyyəti xatırlayıb ruhən əziyyət çəkmək.

27 sentyabrda yoldaşımla birlikdə yola düşdüm. Yolboyu gördüklərim artıq vəziyyətin nə qədər ciddi olduğundan xəbər verirdi. Mingəçevirə çatdığımızda artıq ürəyimin gücü tükənirdi. Ancaq güclü olmağa çalışırdım. Nə olur olsun Şahmardan uzqlaşmamaq üçün Mingəçeviri tərk etmək istəməyən Gülnarəni razı salmalı idim. Heç bir sözümüzlə razılaşmayan Gülnarə "Şahmarın fikri yanınızda qalar, nə isə olar" dediyimiz zaman bizimlə getməyə razı oldu. Sevdiyinə nə isə olmağını sözdə eşidən zaman ürəyi köksünə sığmayan Gülnarə bilmədi ki, Şahmarın cismi düşmən gülləsinə tuş gələcək. 27 sentyabrda Şahmar üçün getdiyi Mingəçevirdən Şahmarsız geri dönmək Gülnarə üçün çox ağır oldu. Ancaq bir gün Şahmarla birlikdə təkrar o evə dönəcəyini ümid etdi. Ancaq...

Bacı qurban əmanətlərin, əmanətimdir. Rahat ola bilərsən. Artıq ailəni Bakıya gətirmişik dediyimdə Şahmarın ***"Çox sağ ol, bacı"*** dediyi zaman onun səsindən daha gur gələn top-tüfəng səslərini duydum. Ürəyimə elə bil xəncər saplandı. (*Sən yoxsan, mən necə sağ olum, ay qardaş?*)

Sentyabrın 27-də axşam müəllim yoldaşımın qardaşı Abbas Qasımovun şəhid olduğunu öyrəndim. Zəng etdiyimdə dedi "Çinarə, ürəyim elə yanır. Bir bacının dözə bilməyəcəyi dərdə düşdüm." Mən bilməzdim ki, eyni dərdə mən də düşəcəyəm.

29 sentyabrda telefonum heç susmurdu. Hər kəs zəng edib mənim və Gülnarənin necəliyini soruşurdu. Mən bu zənglərin səbəbinin nə olduğunu bilmirdim. Ürəyimin narahatlığı da anbaan artırdı. Ancaq evdə bəlli etməməyə çalışırdım. Ta ki həyətdən gələn o naləni duyana qədər.

O nalə... Şahmarımın şəhadətinin carçısı olan o nalə. Şahmarsızlığımın başlanğıcı olan o nalə... Fəryadımın ərşin qulağını batırmağına səbəb olan o nalə... Mən o gün bildim diri-diri məzara gömülməyin acısını. Mən o gün bildim çarəsizliyin nə demək olduğunu. Mən o gün bildim ölümün zəhər dadını.

Sonra bir ümid doğuldu. Dedilər yanlışlıq olub. Şəhid olan bu Şahmar deyil. Mən nə bilərdim ki, bu doğulan ümid bir anda boğulacaq. Sonra artıq xəbər öz təsdiqini tapdı. Ancaq mən yenə inanmadım. Gözlərimlə görməsəm, inanmaram dedim. Ah, kor olası gözlərim... Gözlərimlə gördüm. Elə gözəl yatmışdı ki, qardaşım. Çöhrəsindən əksik olmayan təbəssümü yenə çöhrəsinə yansımışdı. Öpdüm, qoxladım, atəşə tuş gələn alnını oxşadım, əzalarını yoxladım. Yandım, elə yandım...

Nə çətin qərardı qardaşın son mənzil ünvanını seçmək. Mən qardaşımın arzularını bilirdim. Onun arzusu idi Bakıdan ev alıb Bakıda yaşamaq. Ancaq o arzuya çata bilmədi. Qardaşımın son mənzili Bakı şəhərində II Fəxri xiyaban oldu.

Mən Şahmardan sonra Şahmarsız Naxçıvana getmirəm. Mən qardaşımın yaşamaq istəyib daş olduğu Bakıdan uzaqlaşa bilmirəm.

Şahmar dəfn olandan sonra onun bircə telini belə götürə bilmədiyim üçün özümü bağışlaya bilmirdim. Heç olmasa o telini qoxlayıb təsəlli tapardım deyə düşünürdüm. 1 il 9 ay sonra sanki bir möcüzə yaşandı. Şahmarın son dəfə geyindiyi qanlı paltarlar üstümə gəldi. İlahi, Şahmar qoxurdu. Param-parça olan qanlı paltarları qan gölünə dönən ürəyimə sıxıb qardaş qoxusunu aldım. Şahmarın tellərini bircə-bircə o paltarlardan yığdım. O gün Şahmarın qoxusu üçün nə qədər darıxdığımı bir daha anladım. O gün Şahmarsızlığımın təsəllisiz olduğunu anladım.

Mən Şahmarsız elə bil kimsəsiz, nəfəssiz qalmışam. Elə bil balamı itirmişəm. Dayağım, sevincim bir anda kökündən qopub.

Şahmarın Kamalla bağlı arzularını Şahmarsız həyata keçirmək mənim üçün çox ağırdır. Daha Şahmar yaralı ürəyimə Kamalı sıxmışam. 3 deyil 4 övladım var. Son nəfəsimə qədər Kamalı Şahmarın arzuladığı kimi görmək üçün çalışacağam. Təki Şahmarın qəlbi şad olmasa da, ruhu şad olsun.

HƏM QARDAŞDIN, HƏM BALA

Nəfəssiz qalmışam sən gedən gündən,
Ruhum yoxluğunun əsiri olub.
Sənlə bağlanan bütün arzular,
Sənin məzarında çiçəktək solub.

Axı arzularda yer almamışdı,
Sənin daş evinə qonaq olmağım.
Mən sənsiz həyatı sevə bilmirəm,
Ay mənim qəlbimdə sağalmaz dağım.

Kaş sən də mənimtək çata bilərdin,
Balanla bağlanan arzularına.
Bilirəm ay qardaş, sən də doymadın,
Sevgindən doymayan gözəl yarına.

Sənsiz bu dünyanı sevmək nə mümkün?
Bu sükut sənə heç yaraşmır, qardaş.
Bəzən yanağımda bir cığır salır,
Bəzən də qəlbimə axır qanlı yaş.

Nə sənin qoxundan doya bilmədim,
Nə də sənlə bağlı arzularımdan.
Gör neçə zamandır gözüm yığılmır,
Şahmar, dönmədiyin o yollarından.

QARDAŞ QƏDƏR DOĞMA İNSAN

Həyat yollarımız bəzən elə insanlarla kəsişir ki, həmin insanı həyatın ilk anından tanıyırmışıq kimi hiss edirik. Həmin insan ən doğma insanımıza çevrilir. Bəzən dost sözü belə o doğmalığı izah etməyə yetmir. Çünkü o insanla olan doğmalıq heç bir sözlə izah oluna bilmir.

Şahmarın yeznəsi Rzayev Malik:

– Şahmarla qırılmaz qohumluq bağımız 2009-cu ildən yarandı. Həmin zamanlarda o, AAHM-in kursantı idi. Evimizin bir üzvü idi. Bizim yeznə – qayın münasibətimiz gün keçdikcə daha dərinləşirdi və biz daha da doğmalaşırdıq. Şahmar səmimiyyəti, mehribanlığı ilə hər kəsin ürəyində yer qazandığı kimi mənim də ürəyimdə özünəməxsus yer qazanmışdı. Bir qardaş qədər dəyərli, bir qardaş qədər əziz idi.

Həyatda hər insanın hədəfi olur. Şahmarın da hədəfi var idi. Seçdiyi peşəni ən yüksək səviyyədə öyrənib, general olmaq onun ən öndə amalı idi. O, gözəl bilirdi ki, o amala çatmaq üçün uzun və çətin yol qət etmək lazımdır. Ancaq heç bir çətinlik yolunu kəsmirdi. Əksinə bütün addımları vətənlə bağlı idi. Ancaq o bu arzuya çata bilmədi. Ömür və döyüş yolu kapitan rütbəsində tamamlandı və ən şərəfli ada, şəhid adına layiq görüldü.

Vətən müharibəsi başlamazdan 3 ay öncə təyinatla Mingəçevir şəhərində yerləşən N saylı hərbi hissəyə getmişdi. Həmin hərbi hissənin heyəti müharibə başlayan ilk andan etibarən ön cəbhədə mübarizəyə başlamışdı. Şahmar da onlardan biri idi. Sentyabrın 26-da danışdığımız zaman hər kəsə tapşırdığı kimi mənə də ailəsini tapşırdı. Gülnarə və Kəmaləddinin Mingəçevirdə təkbaşına qalmaları onu çox narahat edirdi. Mən bu narahatlığı sona çatdıracağıma

söz verdim və ertəsi gün yoldaşımla birlikdə Şahmarın əmanətlərini Bakıya gətirdim. Axşam zəng edib Şahmara arxayın olmağını dedim. Ailəsi ilə danışıb daha ürəyinin rahat olduğunu dedi. 27-dən 28-nə keçən gecə mənə yazdığı sözlərlə ürəyimə dağ çəkdi:

– ***Haqqını halal elə. Üzərimdə çox haqqın var. Bu yoldan geri dönməmək var.***

Bu sözləri oxuyan zaman bir anda sanki Şahmarın vidası gözlərimin önündə canlandı. Vəziyyətlə əlaqədar narahat olan ürəyim bir qədər də narahat oldu. 28 sentyabrda səhər saat 11:00 radələrində Şahmara zəng etdim. Telefonu açan zaman atəş səslərindən qulaq tutulurdu. ***"Özüm zəng edəcəm"*** – dedi və o susan telefon susdu. O sükutu Şahmarın şəhid olmaq xəbəri pozdu. Həmin xəbəri aldığım an Bərdəyə yola çıxdım. Həyatımın ən çətin yolçuluğu idi. Ünvana çatdığımda bir dəqiqədən bir gələn şəhidləri gördükcə dünyanın rəngi gözlərimdə dəyişirdi. Mən o gün acının hər rəngini gördüm. Yarıya bölünən şəhid nəşləri, əzaları kəm qalan şəhid nəşləri, ailələrə külü təhvil verilən şəhidlər və nələr-nələr...

O an... Şahmarın nəşi ilə başbaşa qaldığım o an. Özümdə cəsarət toplayıb həmin addımı atdım. Heç gülüşündən ödünc verməmişdir. Sanki yenə yuxuya getmişdir. Sanki hıçqırıq səslərimi duyub oyanacaq kimi görünürdü. (*O anların xatirələrini yenə hıçqırıqlar bölürdü.*) Ancaq oyanmadı. Son dəfə Şahmarla yol yoldaşı oldum. Bir zamanlar evimin əziz insanını son dəfə evimdə qonaq etdim. Mənim üçün Çinarəyə, Gülnarəyə, Kəmaləddinə Şahmarı tabutda gətirmək ən çarəsiz və çətin an idi.

Şahmar həyatda olduğu zamankı kimi şəhadətə ucaldığı andan sonra da bütün məlumatları ilk mən bilirəm. Asan deyil nə bir şəhid nəşini təsdiqləmək, nə də 1 il 9 ay sonra şəhidin əşyalarını təhvil almaq. Ancaq bütün acılara rəğmən mənim Şahmara sözüm var: əmanətlərinə son nəfəsimə qədər baxacam. Bir də Şahmarın müharibəyə gedən zaman boynundan asdığı adı yazılan o əmanəti Kəmaləddinin toyunda boynundan asmaq mənim ən böyük arzumdur.

ARZULARA ÇATMADIN

Sən insanlığın ilə,
Ürəklərə yol tapdın.
Dönüşsüz olan yola,
Bilərək addım atdın.

Qəlbində neçə arzu,
Ünvansız liman oldu.
Sənlə sevinən qəlbə,
Sənsiz qəm, hicran doldu.

Qardaş qədər əzizdin,
Mənə, qəhrəman Şahmar.
Xəyalıma həkk olub,
Səninlə ötən anlar.

Oğlunun qoxusunu,
İllər sonra hiss etdin.
Arzulara çatmadan,
Sən şəhadətə yetdin.

Bizlərə təsəllidir,
Səndən qalan əmanət.
Qəlbləri məskən alıb,
Bitməz, tükənməz həsrət.

Ən böyük arzun idi,
Bir general olasan.
Ancaq sən şəhid kimi,
Şahmar, qazandın ad-san.

MƏNƏ "ÖLDÜ" DEMƏYİN

Mən vətən söyləyəcəm,
Sonuncu nəfəsimdə.
Qarabağ qurtulacaq,
Düşmən məngənəsindən.

Göz açandan vətənin,
Gözlərin yaşlı gördüm.
O göz yaşın silməkdi,
Lap körpəlikdən dərdim.


Gün o gündür vətənin,
Ağlar gözü güləcək.
Ruhu vətən olanlar,
Cismani də öləcək.

O ölümün bətnindən,
Bir şəhid doğulacaq.
Ruhum əbədiyyətə,
Şəhidtək yol alacaq.

Bax o gün çatan zaman,
Mənə "Öldü" deməyin.
Vətən əyninə geyər,
Şəhidlərin köynəyin.

Şəhidlər ömür biçər,
Vətənimin ömrünə.
Sevinci göndərməyin,
Əbədilik sürgünə.

Azad olan vətəndə,
Qürur ilə yaşayın.
Xatirələrdən asın,
Şəhid Şahmarın adın.



Şəhidlər bir dəfə köçdükləri dünyadan şəhid yarları hər gecənin sükutuna qarışıb təkrar-təkrar köçürlər. Xoşbəxtliyi yar məzarında dəfn olan şəhid yarları da şəhidlər kimi xoş günlərini, ümidlərini, xoşbəxtliklərini və nələri-nələri qurban edirlər. Şəhid yarlarının təkcə bir fərqləri olur şəhidlərdən. Onlar bu dünyada cismani var olurlar.

"ŞAHMARA DEYİLƏCƏK O QƏDƏR SÖZÜM VAR Kİ..."

Deyiləcək sözlər, çatılan və çatılmayan arzular, yaşanılan və yaşamağa ömür vəfa etməyən duyğular sətirlərlə oxunacaq, ürəklərə toxunacaq. Vətən eşqi ilə qəlbimizə yol tapan Şahmarın bir də Gülnarə eşqini duyacağıq. 38 fəsil birlikdə ömür sürüb 39-cu fəsildə sevgiləri də Şahmarın ömrü kimi yarımçıq qalan Şahmar və Gülnarə.

Eşqin 1-ci fəsli

Eşq – həyatda yaşanıla biləcək ən gözəl, özəl, sevincli və eyni zamanda da kədərli duyğudur. Bu duyğu sevincin və kədərin yaşanıldığı təzaddır. İki insan biri-birinə baxdığı anda qəlbdə yaranan eşq qığılcımı əvvəl ürəyi isidər, sonra isə həsrət duyğusuna çevrilib ürəyi alova qərq edər. Şahmar və Gülnarə eşqi həmin o eşqlərdəndir.

Onlar biri-birinin alın yazıları idilər. Allah bu yazını yazmışdı. Allah onları yaraşdırmışdı. Heç gözləmədikləri halda iki yad insan doğmalaşmışdı.

O günə qədər nə Şahmar Gülnarəni, nə də Gülnarə Şahmarı görməmişdi. Özləri də bilmədən eşqlərinin sahibini Allah çoxdan yaratmış, ancaq o zamana qədər qarşılaşdırmamışdı. Demək ki, o gün elə yaşanılmalı imiş ki, həmin günə qədər yaşanılan bütün duyğuların ən gözəli yaşanılsın. O gün 2011-ci ilin may ayına təsadüf etdi. O an bir təsadüf deyildi. O an bir sevginin təməli idi.



İlk qarşılaşmada Şahmar həyatının qadınını tapdığına əmin idi. Yoxsa "Vazkeçilməzim" deməzdi. Çünki Gülnarə başqa idi. Elə o başqalığı ilə də doğmalaşıb. Hər iki gəncin qəlbində eşq damla-damla axmağa başlayıb. Ancaq Gülnarə xanımın ailəsinin onun bir hərbçi ilə ailə qurmağına razı olmaqları çətin məsələ idi. Elə ona görə də o eşq damlalarının eşq dənizinə dönmədən Gülnarə xanım Şahmarla yollarını ayırmaq məcburiyyətində qaldığını dilə gətirib. Beş aylıq sevgilərini nöqtələmək məcburiyyətində qalan gənclər o zaman fərqinə varmayıblar ki, Allah yazan yazını pozmaq mümkün deyil.

Eşqin 2-ci fəsli

Ayrılıqlar sevənlərin sınağıdır. Şahmar və Gülnarənin ilk ayrılıq sınaqları 1 il çəkib. Bu ayrılıqda ən çox acı çəkən tərəf isə Şahmar olub. Axı hər zaman gedənin yox, qalanın daha çox əzab çəkdiyini eşitmişik. Kim bilir həsrətlə ötən 1 ildə gecələrin şahidi neçə damla göz yaşı olub. Həmin o zəngə qədər.

Gülnarə Şahmardan ayrıldıqdan sonra özündə ilk dəfə cəsarət toplayıb yaddaşından silinməyən o nömrəyə zəng edib. Əslində bu zəngə təkan verən isə onun qohumu olub. Zəng edilən kimi Gülnarə heç səsini çıxarmadığı halda Şahmarın "Alo" sözündən sonra dedikləri qarşısında təəccüb və göz yaşlarını gizlədə bilməyib.

– Gülnarə, bilirəm sənsən. Mən səni unutmamışam. Bir az insafın varsa, səsini çıxar. Mən sənsizliklə başa çıxa bilmirəm. Sən mənim üçün tam fərqlisən. Bu sevgi bizim qismətimizdir.

Gülnarə xanım Şahmarın onu çoxdan unutduğunu düşündüyü halda duyduqları tam əksini sübut edib. Şahmara olan sevgisini qəlbinin ən dərinində saxlayan Gülnarənin sevgisi ümidlə Şahmara sarı boylanıb. O gün Gülnarə Şahmarsız ötən günlərin nə qədər mənasız olduğunu anlayıb. Şahmar sevgisinin məskən olduğu qəlbi titrədib. Bu dəfə nə olur olsun vazkeçilməzindən vaz keçməməkdə israrlı olub.

Eşqin 3-cü fəsli

Bu dünyada qarşısı alınmaz məfhum zamandır. Heç dayanmadan gedər və özü ilə bərabərində çox şeyləri aparar. Sevənlərin həsrətlə keçirdikləri 1 il onların sevgilərini azaltmamışdı. Bunu 1 il sonra təkrar ilk baxışda Şahmar və Gülnarə anlamışdılar. Əslində tək anladıqları o deyildi. Biri-birilərinin alın yazıları olduqları da onlara aşkar olmuşdu. Bu dəfə Şahmar atılacaq addımları sürət-

ləndirməkdə qərarlı idi. Çünki onun itirmək qorxusu var idi.

– ***Sən mənim ailə quracağım yeganə xanımsan. Ailəmi elçi göndərmək niyyətindəyəm.***

Gülnarənin də sevgisi qorxularına üstün gəlmişdi. Daha bir hərbçiyə yar olmaq onun gözlərini qorxutmurdu. Ona görə də Şahmarla bərabər addımlaya biləcəklərini demişdi.

Bir qızın anasına sevgisini etiraf etməyi asan deyil. Gülnarə bir az həyəcanla, bir az da qorxu ilə Gülarə xanıma Şahmara olan duyğularını etiraf edərkən anası qızının duyğularının dərinliyinə qərq olub. Sevənlərin sevgilərinin böyüklüyü bütün sədləri aşıb.

Şahmar da Gülnarə haqqında ilk dəfə bacısı Çinarə xanıma söhbət açıb. Bacısı qardaşının xoşbəxt olduğunu gördüyündə özü də sevincə qərq olub. Gülnarə ilə danışan zaman qardaşının sevdiyinə könlünün qollarını açıb. Artıq Şahmar və Gülnarə sevgisi hər kəsə aşkar olub. Şahmar məzuniyyəti zamanı Naxçıvana getdiyində ailəsinə bu barədə danışıb. 2013-cü ilin qış ayında Şahmarın anası Səkinə xanım Gülnarənin anası Gülarə xanıma zəng edib – "Qız bizimdir, elçi gələcəyik" – deyib. Hər kəs Şahmarın alın yazısının Gülnarə, Gülnarənin alın yazısının Şahmar olduğunu qəbul edib.

EŞQƏ ÜNVAN İKİ QƏLB

Böyük sevgilərin sınağı böyük,
Sevənlər daşıyar həsrət adlı yük.
Bütün əngəllərdən keçib sevgiyə,
Şahmar və Gülnarə çıxmadı dönük.

İlk baxış isitdi sevən qəlbləri,
Sevənlər unutdu bütün dərdləri.
Xoşbəxt bir ailə ümidi oldu,
Hər iki sevənin birgə vədləri.

Göydən ovuc-ovuc səadət yağdı,
Şahmarın gözləri eşq ilə baxdı.
Eşq dolu baxışın ünvanı gözlər,
Ay kimi gecənin zülmətin yardı.

Eşqin 4-cü fəsli

Günbəgün ürəkdə böyüyən sevgi eyni zamanda daha çox təsdiqini tapır, sevənlərlə bərbər onların doğmaları da bu sevgi yolunun nikah masasına çatmağını arzulayırdılar. Bu yolun çətinliyi və məsuliyyəti də heç kimə sirr deyildi. İki sevən yaxşı bilir ki, eşq yolunda boran olar, qar olar...

Şahmarın ana-atası Naxçıvanda olduğu üçün ilk dəfə Gülnarə xanımın ailəsi ilə görüşə bacısı Çinarə xanım və bacısının yoldaşı Malik müəllim gedib. Həmin gün sanki sevgi yoluna əngəllər düzülüb. Ancaq əngəllər bu gedişə əngəl ola bilməyib. Gec saatlarda da olsa, həmin o "söz-açma" mərasimi baş tutub. Elşən müəllim, Gülarə xanım qızlarının evlərindən quş kimi uçacağı gerçəyini öyrəniblər. Hər bir qızın valideynləri bir gün o anı yaşayacaqlarını bilirlər. Həmin an həzin duyğular ürəyə hakim kəsilsə də, iki sevənin sevgisinin sonunun qovuşmaq olması üçün razılığa gəlinib.

Həmin gecə hər kəsdən çox yolun kandarında o başa, bu başa gedən Şahmar həyəcanlanıb. ***"Birdən razı olmasalar?"*** fikri ilə var-gəl edib. Çinarənin üzündə təbəssümlə ona yaxınlaşdığını görəndə sevinci köksünə sığmayıb.

Şahmarın ən fərqli cəhətlərindən biri paylaşmağı sevməməsi olub. Qəlbində var olan o hiss əməllərinə də yansıyıb. Sevdiyini hər zaman dəyərləndirməyi bacarıb. Sözlənəndən sonra ilk görüşdə Gülnarə xanıma gümüş üzük alıb. ***"Bu üzüyün maddi dəyəri çox olmasa da, mənəvi dəyəri çox böyükdür. Bu üzük sevgimizin nişanəsidir"*** – deyərək o üzüyü sevdiyinin barmağına taxıb.

2014-cü ilin iyun ayı Şahmar və Gülnarənin həyatının ən unudulmaz anları yaşanıb. Sevənlərin səbirsizliklə gözlədikləri elçilik və nişan mərasimləri baş tutub. 29 iyun 2014-cü ildə iki sevənin nişan üzüyü biri-birinə əmanət edilib. O gün sevənlərin qəlbləri sevincə qucaq açıb. Sevənlər üçün nişan günləri xəyallarının ən əsrarəngiz



arzuları gerçəyə çevrilib. Həmin zaman çəkilən fotodan o sevinc bəlli olur. Ancaq o foto illər sonar həsrətli gözlərin göz yaşı ilə islanır.

Eşqin 5-ci fəsli

Sevənlər üçün həyatın mənası sevdikləri olur. Sevinclər, təbəssümləri sevdikləri ilə bağlı olur. Çəkdikləri həsrət isə sanki sınaqları olur. Bir gün sevdiklərinə qovuşacaqlarını və heç zaman ayrılmayacaqlarını düşünürlər. Ancaq Şahmar və Gülnarə yaxşı bilirdilər ki, həsrət ömürboyu onların yol yoldaşı olacaq. Çünki Şahmar hərbçi olduğu üçün çox zaman ailəsindən uzaq qalacaq.

Nişanlıların ilk həsrəti elə nişanlanandan dərhal sonra başlayıb. Şahmar iyun ayının sonu Naxçıvana gedib və avqusta kimi orada qalıb. Həmin müddətdə sevənlərin dadına telefon zəngləri çatıb. Bu həsrət avqustda başa çatıb.




Hər bir sevənin nişanlı vaxtında yaşadığı özəl günlər olur. Şahmar və Gülnarənin o dönəmdə yaşanılan ən gözəl və özəl günləri 7 noyabr Şahmarın ad günündə olub. O gün gözlərdən sevinc göz yaşı tökülüb.

7 noyabr günü Gülnarə xanım gün ərzində Şahmara zəng etməyərək sanki həmin günü unudubmuş kimi düşüncə yaradıb. Əslində isə o günün özəl olması üçün Gülnarə xanım bir çox addımlar atıb. Şahmara özəl olaraq ad günü təşkil edib. Şahmarın dostundan heç bir şey bəlli etmədən Şahmarı həmin ünvana gətirməsini xahiş edib. Şahmar gördükləri önündə həyəcan və sevincini gizlədə bilməyib. O gün Şahmar həyatının ən unudulmaz və gözəl ad gününü yaşayıb.

Şahmar Gülnarənin duyğularını, daxili dünyasının zənginliyini yaxşı bilirdi. O, yaxşı bilirdi ki, Gülnarə üçün Şahmarın sevgisindən önəmli, dəyərli məfhum yoxdur. Bu düşüncələr fevralın 1-də Gülnarə xanımın ad günündə bir daha öz təsdiqini tapıb. Şahmar sevdiyinə hədiyyə ala bilmədiyini deyib. Cavabında ən dəyərli hədiyyənin elə Şahmarın özü olduğunu eşidən Şahmar nə qədər doğru bir qərar verdiyinə bir daha əmin olub. Əslində isə o, yenə sevdiyinə ən çox yaraşdırdığı üzük hədiyyə alıb. O üzük Şahmarın Gülnarəyə bağışladığı ən dəyərli hədiyyələrdən olub.

Bu sevginin də yolları zaman-zaman bərkə-boşa düşüb. Ancaq heç bir maneə bu sevginin yolunun evliliyə çatmağına əngəl ola bilməyib.





Eşqin 6-cı fəsli

Hər nişanlı cütlük toy günlərini xəyalında canlandırar. O günün daha fərqli keçməsi üçün əlindən gələni edər. Hər kəs həyatda o günü ilk və son dəfə yaşamaq istəyər. İlk olanın son olmağı üçün evliliyin təməli möhkəm atılmalıdır. Şahmar və Gülnarə də o ailənin təməlinin möhkəm olmağı üçün çalışıblar.

2015-ci il iyunun 19-da sevənlərin qız toyu mərasimi baş tutub. Həmin gün iki gəncin yaddaşına ən gözəl xatirələr yazılıb.

Neçə arzunun üzərinə ümid işığı düşmüşdü o gün. Kim bilirdi bir gün o arzular bir məzarda dəfn olunacaq. Eşqin ən gözəlini yaşayan sevənlərin birinin həsrəti digərinin qəlbini məskən tutacaq.

O gün bütün arzular bəyaz rəngdə görünürdü. O bəyaz sevgi illər sonra al rəngə boyandı.





22 iyun 2015-ci il tarixi bir çox xatirələrin yaddaşlara yazıldığı gündür. Gülnarə xanımın ata ocağından bəyaz göyərçin kimi uçduğu gün. Şahmarın sevdiyini bəyaz gəlinlikdə gördüyü gün. Bir azərbaycanlı ailəsinin təməli qoyulan gün. İki gəncin həsrətinin bitdiyi gün...



İllərlə o günün xəyalı ilə yaşayan sevənlərin həmin gün arzuları gerçəyə çevrilmişdir.

O gün Şahmardan, Gülnarədən xoşbəxt insan yox idi. Həyatın mərkəzində sevdiklərini görən sevənlərin ətrafında sanki xoşbəxtlik dövrə vurmuşdu. İllərdi halqa-halqa birləşən sevginin ağuşuna atılan sevənlərin xoşbəxtliyi ruhlarını isitmişdi.

Görəsən, heç o gün bu gün olanlar xəyalların ən uzaq küncündə də olsa, yer almışdı? Düşünmürəm, çünki düşüncəsi belə ürəyimi sızladır. Şahmar və Gülnarənin sevgilərindən elə o toy günlərində olduqları kimi xoşbəxt yazmaq istərdim yaddaşıma və "ŞAHMARIN EŞQ ƏSƏRİ"nə. Ancaq bunu yazmağım mümkün deyil. Bu əsərin də sonu ayrılıq və həsrətdir.

SEVDİYİM QADIN

Şahmar Quliyevin adından
Gülnarə xanıma həsr olunub.

Mənim arzularımın,
Ünvanı idin, qadın.
Qəlbimə yazılmışdı,
Məhəbbət ilə adın.

Ən böyük sevgilərin,
Yolu dumanlı olar.
Sevən gözlər çox zaman,
Həsrətdən yaşla dolar.

Həsrətə tab edirdim,
Sonu ümiddir deyə.
Məhəbbətim sığmırdı,
Nə bu yerə, nə göyə.

Sən mənim sevgi payım,
Gülüşümün səbəbi...
Arzum idi sevgimiz,
Yarım, olsun əbədi.

Neçə arzuya çatdıq,
Neçə arzu kəm qaldı.
Ayrılmayaq deyirdik,
Müharibə ayırdı...

ÜRƏYİMİN SAHİBİ

Gülnarə xanımın adından
Şahmar Quliyevə həsr olunub.

Eşq dolu baxışınla,
Ürəyimə yol tapdın.
Ən gözəl duyğularla,
Sən sevgini ucaltdın.

Sənin ilə yaşadım,
Xoşbəxtliyin çaların.
Sevginlə aydınladı,
Şahmar, sevgi sarayım.

Bu dünyanın xoşbəxti,
Qeyrisi olmaz dedim.
Ürəyimin sahibi,
Sevdim, səni çox sevdim.

Ümidlərim cücərdi,
Ötən zamanla birgə.
Sənlə sinə gəldim,
Hər sınağa, hər dərdə.

Bilməzdim ki, ən böyük,
Sınağım olacaqsan.
Ömrünün gənc çağında,
Şəhidtək solacaqsan.

Eşqin 7-ci fəsli

İki sevən qovuşduqdan sonra onlar üçün həyatın mərkəzində sevdikləri durur. Sevinc, səadət, xoşbəxtlik duyğusunu heç vaxt itirməmək istəyirlər. Artıq həyatı bir deyil iki nəfərlik yaşayırlar. Şahmarla Gülnarə də könül qapılarını biri-birinin üzünə açanda o ünvanı əbədi məskən seçmişdilər.

Ailə qurduqdan bir neçə gün sonra Şahmar Gülnarəni ata ocağına aparmışdı. Şahmarın sevdiyini ailəsi bir övlad kimi bağrına basmışdı. Bu cütlüyün sevgisinin nuru onları əziz bilən hər kəsin qəlbini isitmişdi. Xoşbəxtlikləri hər hallarından bəlli olan Şahmar və Gülnarə əslində bu xoşbəxtliyin yeganə maneəsinin onlardan asılı olmayan səbəblərdən baş verən ayrılıqlar olacağını bilirdilər. Lakin müvəqqəti ayrılıqların böyük sevgilərə əngəl ola bilmədiyini də gözəl bilirdilər. Gülnarə bir hərbçi ilə ailə quracağına qərar verəndə "Mən hər çətinliyə sinə gələcəm" demişdi. O sözünə əməl etmiş və üzünə tez-tez açılan həsrət qapısının kandarında durub yar yolunu gözləmişdi. Yar həsrəti çəkərək döyünmək sevən qəlbin sınağıdır. Bəzən döyüntüsü sanki həsrətini bağırar. Ancaq o bağırtını həsrət çəkənin özündən başqa bir duyan olmaz. Ailə qurduqdan sonra sevənlərin ilk ayrılığı avqustda başlamışdı.



Eşqin 8-ci fəsli

Şahmar və Gülnarə tez-tez ayrılacaqlarını bilsələr də, o ayrılıq anını yaşamaq istəmirdilər. Ancaq Şahmarın vətən eşqi ürəyində daha da ucalarda idi. Ona görə də o, vətənin gözlərini yolda qoymayaraq hər zaman vətən səngərinə can atıb.

Şahmar illərlə aldığı hərbi təhsillə vətənin yarasına məlhəm olmaq niyyətində olub. Avqustda ilk olaraq təyinatla Ağcabədi rayonunda yerləşən N saylı hərbi hissədə xidmətə başlayıb.

Hərbçinin nə özünün, nə də ailəsinin daimi bir evi olur. Gülnarə üçün ən dözülməzi Şahmardan uzaq qalmaq olub. Qalan bütün çətinliklərə tab gətirəcəyini bildiyi üçün Şahmarın xidmət etdiyi rayona getməyə qərar verib. Şahmar sevdiyinin əziyyət çəkməyini istəməsə də, həsrət çəkmələrini də istəməyib və Gülnarəni xidmət etdiyi Ağcabədi rayonuna gətizdirib. İlk həsrətin nidası sentyabrın 1-də qoyulub.

Şahmar evdən çox hərbi hissədə zaman keçirib. Ağcabədidə xidmətdə olduğu 1 ay müddətində üst-üstə toplasan cəmi 5 gün evə gəlib. Bir gün evə gəldiyində təyinatla Ağdam rayonunda düşmənlə üz-üzə olan səngərdə xidmətə göndərildiyini deyib. Həmin an Gülnarənin ürəyinə od düşüb. O, çox çalışıb ki, Şahmar ön cəbhəyə getməsin, ancaq Şahmar heç vaxt ön cəbhəni arxa cəbhəyə dəyişməyib. Beləcə sevənlərin daha bir ayrılıq sınağı 30 sentyabrda başlayıb.

Eşqin 9-cu fəsli

"Tez gələcəm, Gülüm" – deyərək vida edib, Ağdama yola düşüb Şahmar. Gülnarə xanım cəmi 1 ay öncə ümidlə yol aldığı Bakıdan yenidən həsrətini qəlbinə büküb Naxçıvana yola düşüb. Bu dəfə ürəyinin həsrəti bir qədər də qorxuyla əvəzlənib. Çünki Şahmar düşmənin hər gecənin sükutunu atəşlə pozduğu Ağdam rayonunda xidmətə başlayıb.

Hərbçilər üçün gecələr bir başqa ötər. Ən çox da onlara növbədə olan zaman düşüncələr, xəyallar, xatirələr yoldaş olar. Kim bilir Şahmar neçə gecə yar həsrətini ulduzlarla bölüşüb, torpağa pıçıldayıb...

Gülnarə isə yar həsrətini Şahmarın hərbi köynəyi ilə gidərməyə çalışıb. Gecələri sonsuz olan Gülnarənin həsrəti günbəgün böyüyüb. İki sevənin həsrəti, müvəqqəti də olsa, noyabrda yerini səadətə buraxıb. Şahmar 10 günlük məzuniyyət götürüb Naxçıvana gedib. Həsrətdən ağlayan gözlər sevincdən ağlayıb.

Məzuniyyətdə ötən 10 gün bir göz qırpımında ötüb. Həmin 10 gün Gülnarə Şahmardan bir an belə ayrılmayıb. Axı o bilirdi ki, bu səadətin sonu yenə həsrət olacaq. Həsrətlə ötəcək günlər üçün xoş xatirələr birikdirirdi ki, onun gecələrinin yoldaşı daha çox xatirələr olsun.

Yenə ayrılıq anı çatıb. Şahmar Gülnarəyə və ailə üzvlərinə vida edib vətən keşiyinə yollanan zaman hər kəsə əmanəti sevdiyi olub. ***"Zəng edərkən Gülümün səsi bikef gəlsə, mən çox narahat olaram"*** – deyib və yola çıxıb. Yola çıxdıqdan sonra sevdiyinə zəng edən Şahmar ondan şkafı açmağını xahiş edib. Gülnarə şkafı açanda uşaq kimi göz yaşı töküb. "Ah Şahmar, nə etmisən?" Şahmar sevdiyinin şokolad xoşladığını bildiyi üçün Gülnarənin ən sevdiyi şokolodları şkafa yığıb gedib. Bu bir daha onu göstərib ki, Şahmar cismən nə qədər uzaqda olsa da, ruhən, xəyalən Gülnarənin yanındadır. Beləcə aylar ötüb.

Fevralın 1-də Gülnarə xanım heç yuxudan oyanmaq istəməyib. Çünki onun üçün özəl gününü Şahmarsız keçirməyin bir önəmi olmayıb. Ancaq Şahmar Gülnarəni ad günündə yalnız qoyarmı?

Bir anda Şahmarı qarşısında görən Gülnarə xanım əvvəlcə bunu bir yuxu sanıb. ***"Tənbəlim, dur mən gəlmişəm, sən isə yatmısan. Adam da heç ad günündə bu zamana qədər yatarmı?"*** Bu sözləri duyan Gülnarə təəccüb, sevinc duyğularını eyni anda yaşayıb. Həmin gün sevənlərin ən gözəl günlərindən biri kimi yaddaşlara həkk

olunub. Bu sevincin də ömrü 10 gün olub. Şahmar məzuniyyəti bitən zaman yarını da özü ilə bərabər Bakıya gətirib, bacısı Çinarə xanıma əmanət edib və xidmətə gedib.

Eşqin 10-cu fəsli

Günlər calanıb ay olub, qış artıq yaza yer verməyə hazırlaşıb. Martın 8-də hər kəsdən təbrik alsa da, Şahmarın gəlməyən təbriki ilə qəlbi səksəkədə qalan Gülnarə xanım bir anda o zəngin gəlişi ilə uşaq kimi sevinib. ***"Düş birinci mərtəbəyə, şkafı aç."*** Şahmar hər zaman təəccübləndirməyi və sevindirməyi bacarırdı. Bu dəfə də özü uzaqda olsa da, bacısının köməyi ilə sevdiyinin qəlbini sevindirməyi bacarıb. ***"Bir ömür sənինləyəm"*** yazısını və hədiyyəni görən Gülnarə xanım yenə göz yaşlarına hakim ola bilməyib.

Sevənlərin həsrət yolu gah uzanıb, gah da müvəqqəti də olsa, sevincə calanıb. May ayında Şahmar təkrar 20 günlük məzuniyyətə gəlib. Sonra sevənlər birlikdə Naxçıvana gediblər. Həsrətin hər rəngini yaşayan Şahmar və Gülnarə çəkdikləri həsrəti bu həyatın sınağı biliblər. Sevənlərin biri-birindən uzaqda olduqları vaxt keçmək bilməyən zaman həsrət bitəndə su kimi ötüb keçib. 20 günlük sevinc yenə həsrətə yelkən açıb. Bu dəfə Şahmar təyinatla Beyləqanda xidmətə başlayıb.

Eşqin 11-ci fəsli

1 sentyabr Şahmar və Gülnarə üçün unudulmayacaq tarixdir. Bir il öncə Şahmar Ağcəbədidə xidmət edən zaman həmin tarixdə sevənlərin həsrəti bitmişdir. 1 il sonra eyni tarixdə Şahmar Gülnarəni təkrar Bakıya gətizdirib. Beyləqan rayonunun ən gözəl yerində ev tutub. Sentyabrın 15-də Gülnarə xanım sevdiyinin xidmət etdiyi rayona gedib. Şahmar çox zaman evə gələ bilməsə də, eyni şəhərin havasını udmaq sevənlərin təsəllisi olub. Hər anı birlikdə ötməyən Şahmar və Gülnarə birlikdə



ötən anlarını çox gözəl yaşayıblar. Köçəri quşa bənzəyən hərbçi ailəsi bir neçə dəfə ünvan dəyişib. Sonda məskunlaşdıqları evin sahiblərinin əziz balalarına çevriliblər.

Hərbçi xanımı çox zaman gecələri tək başına keçirməyə məcbur və məhkumdur. Gülnarə xanım tənha ötən o gecələrdə tənhalığını qonum-qonşunun bilməməsi üçün Şahmarın çəkmələrini qapının önünə qoyarmış. Heç kim Şahmarın yoxluğunu sezməzmiş. Elə hərbçi xanımının dəyanətinin bir sübutu da bu olmuşdur. Həyatda bütün çətinliyə dözəcək qədər böyük və dözümlü ürək sahibi olan şəhid yarı bu cəsarəti ilə Şahmarı arxayın salmışdır. Şahmar bilirdi ki, Gülnarə xanım ayaqları üzərində dura biləcək gücə sahibdir. Bəlkə də, Şahmar bilərəkdən Gülnarə xanımı güclü olmağa məcbur buraxmışdı.

Həsrətli gecələrdə Şahmar ilə danışıb sağollaşandan sonra hər dəfə Gülnarənin düşüncələrində eyni mənzərə canlanarmış. Şahmarın ata ocağında Şahmarın bayraqlı tabutu. Bu düşüncə Gülnarəni çox narahat edərmiş. Demək ki, illər sonra olacaqlar Gülnarə xanıma ayan olubmuş.

Eşqin 12-ci fəsli

2016-cı ilin yaz fəsli tarixdə və yaddaşlarda silinməz izlərlə həkk olunub. Martın sonlarına doğru düşmən cəbhədəki atəşkəsi daha tez-tez pozur, vəziyyəti daha da gərginləşdirirdi. Martın 27-dən demək olar ki, Şahmar evə nadir hallarda gəlib və o gəliş çox qısa müddətlik olub. Martın 29-da Şahmara gələn zənglə o, yerindən sıçrayaraq dərhal getməli olduğunu bildirib. "Qaranquşdu" bu bir parol idi. Gülnarə xanım artıq bu paroldan cəbhədəki vəziyyətdən hali olub. O gündən sonra Şahmarın zəngi Gülnarənin tək ümidi olub.

Aprelin 1-dən 2-nə keçən gecə cəbhədə döyüşlərin şiddətləndiyini Gülnarə xanım atasından öyrənib. Bu xəbəri öyrənən anda Şahmara zəng edən Gülnarə aldığı cavabdan qismən rahat olub. Şahmar Gülnarə narahat olmasın deyə arxa cəbhədə olduğunu deyib. Əslində isə Şahmar könüllü olaraq müraciət edib və ön cəbhəyə gedib.

Arabir Şahmar zəng edən zaman Gülnarə xanıma Bakıya getməsini desə də, Gülnarə xanım bununla razılaşmayıb. Ancaq hərbçi yarı o döyüş bölgəsində baş verənləri və hər an Şahmarın şəhid olduğu xəbərini ala biləcəyini yaxşı bilib. Gülnarə özünü alacağı hər xəbərə hazırlayıb. Həmin zaman isə Şahmarın doğmaları onun əsir düşdüyü xəbəri ilə sarsılıblar. Lakin onlar bu xəbəri Gülnarə xanımdan gizlətməyə çalışıblar.

– O günlərdə Şahmardan gələn hər telefon zəngi məni ümidləndirirdi. Başqa zənglərin hər biri isə məni qorxudurdu. Hər zəngdə "Şahmar şəhid olub" – cümləsini duyacağam deyə qorxurdum. Elə həmin zaman mənə yad nömrədən gələn zəngdə ***"Gülü, mənəm. Eşitdim əsir olduğum xəbəri yayılıb. Yalan məlumatdır. Sağ-salamatam"*** sözlərini duyduğumda həm sevindim, həm də bəlkə, düşmən əlində əsirlikdən zəng edib deyə qorxuya düşdüm. Ancaq Şahmar məni yenə də inandırmağı bacardı.

Aprelin 3-də Şahmarın etibarlı, sadiq dostu onun əmanətini Qazax rayonuna, öz evlərinə aparıb. Samir bilirdi ki, Şahmar Gülnarənin tək-tənha qaldığını düşünərək nigaran qalıb. Bu nigarançılıqdan Şahmarın fikri yayınmasın deyə Gülnarə xanım Samirgilə getməyə razı olub.

Aprel döyüşləri başa çatan zaman Şahmar zəng edib hər şeyin qaydasında olduğunu, yaxın müddətdə gələcəyini bildirib. Gülnarə evinə dönüb və qəhrəman yarının yollarına göz dikib.

Nəhayət ki, hər gün Gülnarənin xəyallarında canlandırdığı o an yaşanır. "Şahmar gəlir" – sözlərini duyan Gülnarə Şahmarın gələn yollarına qaçır. Lakin qarşıdan gələn yarına yaxınlaşdıqca onun bitkin vəziyyəti Gülnarənin dizini bükür. Bir anda yolda diz üstə düşən Gülnarə kirpiyi də saralan Şahmarın halının önündə aciz qalır. Demək ki, müharibə bu imiş. Müharibə insanı bir neçə günə qocaldırmış. Həmin gün Şahmar şəhid kimi deyil, şahid kimi dönür. Elə o gündən sevənlərin daha bir sınağı başlayır.

QİSASIN ALAN İGİD

Aprel döyüşləri başlayan zaman,
Könüllü şəkildə önə atıldın.
İllərlə vətənə işgəncə verən,
Düşməndən vətənin qisasın aldın.

Can verdi yanında dostun-yoldaşın,
Qəlbində sağalmaz yara açıldı.
Qabilin, Rasimin şəhid xəbərin,
Duyarkən gözündən qisas saçıldı.

İlk zəfər sevincin yaşadanlardan,
Biri də sən oldun, qəhrəman Şahmar.
Vətən, torpaq dara düşdüyü zaman,
Qorxmaz igid kimi sən çıxdın qahmar.

Apreldə bitməyən döyüş yolunu,
Bir gün Qarabağda bitirəcəkdin.
Yanında can verən qəhrəmanlara,
Azadlıq müjdəsin yetirəcəkdin.

Bir vaxt xəyallarda bir-bir canlanan,
Həmin arzulara şəhidtək çatdın.
Köksünə sıxdığın şanlı bayrağı,
Məzarın üstündə şanla ucaltdın.

Eşqin 13-cü fəsli

Müharibə hər bir iştirakçının həyatında bir iz qoyur. Kimi şəhid olur, kimi qazi olur, kimi isə ruhən yaralanır. Aprel döyüşləri zamanı şəhidlərdən biri də Şahmar ola bilərdi. Son anda ətrafındakılar Şahmarın iki barmağını görməsəydilər, o da şahidlər yox, şəhidlər cərgəsində olardı. Bütün bunlar Şahmarın səhhətində ciddi problemlərə yol açıb. Hər gecə yaşadığı müharibəni yuxularında görən Şahmar gecənin sakitliyini qışqırıqları ilə bölüb. Komandiri Şahmarı məzuniyyətə göndərib. Bir an belə olsun yarını yalnız buraxmayan Gülnarə xanım həmin çətin zamanlarda Şahmarın sağlamlığı uğrunda onunla bərabər mücadilə aparıb.

Şahmar məzuniyyəti zamanı həmişə olduğu kimi, yenə də Naxçıvana gedib. Ancaq bu dəfə həmişəkindən fərqli bir situasiya yaranıb. Bir zamanlar birlikdə hərbi təhsil aldığı Orucəliyev Qabil Əbdüləli oğlu Şahmarı daş məzar olaraq qarşılayıb. Həmin anı yaşamaq Şahmar üçün heç də asan olmayıb. Ancaq həmin andan daha çətin bir an isə Qabilin üzünü heç vaxt görmədiyi oğlu Qabillə üzüzə gəlməyi düşünməsi olub. Şahmar cəsarətini toplayıb, o addımı ata bilməyib. Çünki uşaqlar Şahmarın ən həssas yeri idi. İllər idi ki, Şahmar və Gülnarə övlad həsrəti ilə yaşayırdılar.

Eşqin 14-cü fəsli

Eşqin nəfəsidir ümid. Olmayan bir nemətin olacağını səbirlə, təmkinlə gözləmək insan oğlunun imtahanıdır. Əslində hər birimizi yaşadan elə ümiddir. Hər xəyal da ümiddir, hər arzu da. Bütün sabahlar ümidlərin ünvanıdır. Ümid eşqin ömrüdür. Şahmar və Gülnarə eşqinin ömrü də elə ümidlərlə uzanırdı.

Övlad hər bir ailənin sevinci, gələcəyə olan ən böyük ümididir. Əbəs deyilmir ki, "Körpə qığıltısı bütün dərdlərin məlhəmidir." Şahmar və Gülnarə biri-birinə qəlblərində yer edən övlad həsrətini bəlli etməməyə çalışsalar da, bəzən hərəkətlərindən çəkdikləri həsrətləri hiss olunmuşdur. Ən çox Şahmar həsrətini büruzə vermişdir. Bir uşaq gördüyü anda həsrətlə onu öpüb-qoxlayan Şahmar əslində necə övlad arzusunda olduğunu bəlli etmişdir. Ancaq onlar heç vaxt bu barədə danışmamışlar. "Allahın qismәti" deyib ömürlərini birgə yaşamışlar.

Artıq 3 il idi ki, bu ailəni övlad nəfəsi isitmirdi. Onsuz da təməli həsrətlə yoğrulan ailənin bir də bala həsrəti bütün doğmalarının dərdinə çevrilir. Hər həkim bir ümid versə də, ümidlər daşa dəyir. Ancaq onlar mücadiləyə davam edirlər. Bəzən ümidsizliyə qapılsalar da, təslim olmurlar. Həm Şahmar, həm Gülnarə iradəli olurlar. Ən böyük gücü biri-birindən alan sevənlər bir gün valideyn olmaq sevincini yaşayacaqları ümidini heç vaxt itirmirlər.


Yoxdan var edən Allahdır. Bütün kainatın sahibi bir gün Şahmar və Gülnarənin də bala həsrətini sona çatdırar deyə ümidlər heç tükənməmişdir. Bəlkə də, bu Allahın bir sınağı idi. Allah bu yoxluqla sevənlərin sevgisini, sədaqətini sınayırdı. Sevənlər bu sınaqdan alnıaçıq çıxmağı bacardılar. İllərin həsrəti sona çatdı.

Eşqin 15-ci fəsli

Kaş ki bütün həsrətlərin son nidası sevinc olardı. Kaş ki bütün ayrılıqlar qovuşmaqla nəticələnərdi. Kaş ki heç bir həsrətin ömrü sonsuz olmayardı. Kaş ki...

Bəzən Allah elə bir sevinc yaşadır ki, insanın çəkdiyi bütün acı, kədər sona çatır. Quliyevlər ailəsinin də çəkdiyi övlad həsrəti o müjdəli xəbərlə 6 aprel 2017-ci ildə sona çatıb.

Gülnarə xanım ailənin 3-cü üzvünün gələcəyini öyrənən zaman sevinc göz yaşlarına hakim ola bilməyib. Onun sevincinin ilk şahidi Şahmarın ən yaxın dostu Samirin həyat yoldaşı Nailə xanım olub. İllərlə gözlənilən o xəbəri ilk olaraq Nailə xanım Samirlə bölüşüb. Çünki Samir Şahmarın övladının olmasını ən azı Şahmar qədər istəyib.



Elə Şahmara ata olacağı müjdəsini də Samir verib. Şahmarın duyduğu xəbər önündə sevincdən sanki nitqi quruyub. Axı o illər idi həmin günün xəyallarını quraraq yaşayırdı. Heç vaxt ümidini üzməyən Şahmar Allaha şükür edib.

İlk qəlb döyüntüsü. O anın həsrəti illər idi sanki qalaq-qalaq ürəyə yığılmışdı. Körpə ürəyinin döyüntüsünü duyan Şahmarın yanaqlarında sevinc göz yaşları iz salıb.

Həkimin dediyi "Körpəniz sağlamdır. Gələcəyin əsgəri gələcək" sözlərini duyan Şahmar və Gülnarə həyatlarının ən gözəl xəbərini alıblar. O andan sonra Şahmar Gülnarənin qayğısına həm sevdiyi kimi, həm də körpəsi kimi qalıb.

Şahmarın qəlbi mərhəmətin, sevginin ünvanı idi. O qəlbdə yer almaq Allahın ən böyük mükafatı idi. O mükafata layiq görülən isə Gülnarə xanım idi. Bu dünyanın cənnəti sevən üçün sevdiyinin qəlbidir. Sevənlərin o cənnətdə yaşlanmaq arzusu var idi. Ancaq...

Eşqin 16-cı fəsli

Günlər keçir Şahmar və Gülnarə ailənin sevinc payının gələcəyi günü daha çox səbirsizliklə gözləyirdilər. Hər şey çox gözəl gedirdi. Həmin o səhvə qədər.

Bəzən bir səhv bir insanın həyatından olmasına səbəb olur. Gülnarənin analizinin cavabında yol verilən yanlışlıq da bir günahsız körpənin tələfinə yol açа bilərdi.

Şahmar və Gülnarə həmişəki kimi yenə də müayinəyə gedib analiz veriblər. Analizin cavabı yazılarkən yanlışa yol verilib. O cavaba görə körpənin yaşamaq şansının olmaması və onun tələf edilməsi qənaətinə gəlinib. Şahmar analizin cavabını götürməyə gələn zaman həkimin dediyi sözlər qarşısında aciz qalıb. O an beli bükülüb. Axı illərlə o və yoldaşı övlad həsrəti çəkiblər. Bəs indi illərlə ana olmaq arzusunda olan bir qadına necə desin ki, övladımızı tələf etməliyik? O çarəsizliklə xəstəxanadan ayrılan Şahmara çox keçmədən həkimi təkrar zəng edib Gülnarəyə heç bir söz demədən təcili xəstəxanaya qayıtmasını deyir. Sən demə, analizin iki surəti çıxıb birində rəqəm səhvi gedib. Vəziyyətdən şübhələnən həkim vaxtında bu yanlışın fərqinə varmasaydı, bir günahsız körpə tələf olunacaqdı.

Xəstəxanaya geri dönən Şahmara həkim vəziyyəti izah edir. O an Şahmar bu sözləri dilə gətirir:

– Məni Aprel döyüşlərində düşmən öldürə bilmədi. Ancaq siz bu gün məni öldürdünüz. Məni diz üstə çökdürdünüz...

Şahmarın yaşanılanlardan sonra Gülnarə ilə bağlı nigarançılığı artır. Ancaq o hər istədiyi an Gülnarənin qayğısını çəkə bilmir. Elə ona görə də Gülnarəni Naxçıvana aparır. 1 aylıq məzuniyyəti bitdikdən sonra Şahmar xidmətə geri dönür. Sevənlərin önündə daha bir həsrət qapısı taybatay açılır.

Eşqin 17-ci fəsli

Övlad yeni nəfəs, yeni dünyadır. Hələ o övlad illərlə həsrəti çəkilən övladdırsa, o zaman yaşam səbəbinə çevrilən bir varlıq olar həmin övlad. Bəlkə də, ən həssas dönəmlərdə Gülnarə xanımın çəkdiyi özləmin səbəbidir Kamalın büsbütün Şahmarı yansıtmağı. Axı onun gözləri çox zaman yarının gözlərini şəkillərdə seyr edirdi.

Noyabr Şahmarın dünyaya göz açdığı aydır. Həkim körpənin doğulacağı günün də noyabr ayına təsadüf edəcəyini bildirib. Hər kəs həyəcanla o günü gözləyib. Ancaq hər şey gözlənilən kimi olmayıb. O günlərin sınağı bir az da artıb. Qorxu, həyəcanla ötən həmin dönəmin sonu noyabrın 24-də çatıb.

"Nur topu kimi bir oğlunuz oldu." Bütün həsrətin, çəkilən acının nidası idi o cümlə. Övlad sevincini duyan Şahmar ata, Gülnarə isə ana adı ilə mükafatlanıb.

Bir atanın ən duyğulu və qürurlu anıdır övladına atasının adını əmanət etdiyi an. O an Şahmarın duyğularını duymaq çətin deyildi. Şahmar atasının adını övladına əmanət edib, onu Kəmaləddin adlandırıb. Qısa olaraq isə "Kamal" deyib. Elə o gündən o körpə həm Kəmaləddin, həm də Kamal adlandırılıb.

Şahmarın o körpə əllərdən ümidlə tutduğu an bir gün o əllərin ata məzarına sığal çəkəcəyi arzularda yer almamışdır. Bəlkə də, düşüncələrdə yer almışdır. Axı Şahmar



bilirdi ki, bir gün hər kəsi, hər arzunu geridə buraxıb vətənin azadlığına doğru addımlayacaq. O gün o körpə əllər Gülnarə xanımın tutduğu sabaha ümid əli olacaq.

Bu ailənin hər sevincli gününə həsrət iz saldığı kimi, Kamalın xəstəxanadan çıxıb evinə qədəm qoyduğu günə də həsrətin izi düşüb. Həmin gün Şahmarın məzuniyyətinin son günü olub. Övladını evə gətirib cəmi bir neçə saat onun üzünü görüb. Gülnarə xanım üçün həmin gün Şahmardan ayrılmaq çox əzablı olub. Övladının sevincini doyunca yaşamadan Şahmar yenə vətən keşiyini çəkməyə gedib. Gedərkən dediyi sözü isə ***"40 gün tamam olan kimi Gülnarə və Kamalı göndərin"*** – olub.

Kim bilir Şahmar o gün illərlə həsrətini çəkdiyi övladının üzünü doyunca görmədən ondan ayrılmaq məcburiyyətində qalarkən nələr çəkib? Nə çox kəm qalan arzusu olub Şahmarın, nə çox qəlb sızıltısı olub. Ən ağrılısı da

bütün qəlb sızıltılarını ürəyinin ən dərinində susaraq yaşayıb. Heç övladını doyunca görə bilməyib.

Nə çox qurbanın varmış, vətən oğlu? Bu qədər arzu, xəyal qurban etməklə də yetinməyərək bir də ömür qurban etdin vətənə, xalqa, millətə.

Eşqin 18-ci fəsli

Bəzən həsrətlə ötən 1 gün 1 aya tən olur. Həsrətlə ötən 40 gün uzandıqca uzanıb. Ancaq sonunda bitmək ümidi olduğu üçün yenə də sevənlər həsrətə tab ediblər. Sonda həmin o görüş günü gəlib çatıb. Gülnarə xanım körpəsi Kamalla birlikdə Bakıya gəlib. Həmin gün Şahmar özünü Bakıya çatdırıb. Ertəsi gün bir bütün ailə olaraq Şahmar, Gülnarə və Kamal Beyləqana gediblər. Ev yiyəsi Kamalın



ilk gəlişinə özəl olaraq hazırlaşıb. O gün bu ailəyə doğma ana qayğısı göstərib həmin insanlığı ilə ucalan qadın.

Daha Kamal evin bütün səssizliyini pozur, bütün dərdləri unutdururdu. Gündüzlər evdə olmayan Şahmar çox zaman Kamal yatdıqdan sonra evə gələr onun qoxusunu doya-doya ciyərinə çəkərdi. Sanki o qoxudan doymayacağını hiss edirmiş. Kamala həddindən ziyadə bağlı imiş. Ara-sıra gündüzlər, çox qısa müddətlik də olsa, Kamalı görməyə gələrmiş.

"Kamal üçün ölümə gedərəm" – deyirmiş Şahmar. Kim bilir, bəlkə də, elə onun ən böyük qorxusu Kamalı itirmək olduğu üçün Qarabağ savaşını bir an öncə bitirmək istəyirdi. Axı o bilirdi ki, müharibə amansızdır. Dünənin körpələri bu gün şəhid olduqları kimi, bu günün körpələri də sabah şəhid ola bilərlər. Elə ona görə də ***"Atam"*** dediyi oğluna işğal adlı miras burxmadı.

VƏTƏNƏ DÖNƏN ATA

Sən övlad qoxusunu,
İlk dəfə duyduğun an,
Düşünmədin o körpə,
Vətəni qoxlayacaq
Atasının yerinə,
Atasızlıq çökəcək,
Onun da gözlərinə.

İllərdən sonra gələn,
Xoşbəxtlik duyğusunun,
Qəlblərin arzusunun,
Yolu çox qısa oldu,
Kamalın atası da,
Çevrilib vətən oldu.

Axı o nə bilirdi,
Top nədir, tüfəng nədir?
Onun körpə xəyalı,
Ata itirən gündən,
Müharibə rəngdədir.

Eşqin 19-cu fəsli

Ata-anasının sevincinin və arzularının ünvanı idi balaca Kamal. Sabaha olan bütün ümidlərin ən önündə o dururdu. Şahmarın Kamalın 1 yaşı tamam olanda ona kiçik toy etmək arzusu olub. İllərlə övlad həsrəti çəkdiyi üçün o övladının hər özəl gününü gözəl keçirmək arzusunda olub. Ancaq Gülnarə xanımın səhhətində gözlənilmədən problem yaranıb.

Kamalın 1 yaşına cəmi 1 ay zaman qalırmış. O günü xəyallarında yaddaqalan şəkildə keçirmək istəyən valideynlər bu arzularına tam nail ola bilməyiblər. Gülnarə xanım təcili əməliyyat olunub.

Həmin gün Şahmarın qəlbinin yenidən acı xəbərlə yandığı gün olub. "Öd xərçəngindən şübhələnirik. Bu barədə xəstəyə heç bir söz deməyin." Şahmar həkimin bu sözlərini duyanda bir anda dünya gözlərində qaralıb. ***"Axı o xəstəlik qurbanlarının yaxasını sona qədər buraxmır. Yox mən Gülüsüz yaşaya bilmərəm."*** Ancaq müayinələrin cavabından Gülnarə xanımın xərçəng olmadığı məlum olub. Həmin an Gülnarə xanım əməliyyat olunub. Sevənlər bu sınaqdan da üzüağ çıxmağı bacarıblar.

O dönəmdə Şahmar həm ata, həm də ana kimi Kamalın qayğısını çəkib. Allahdan ana kürlüyünü edən Kamalın heç vaxt anasız qalmamasını arzu edib. Ancaq Kamal anasız deyil, atasız qalıb. Şahmar Gülnarənin çiyinlərinə həyatın ən ağır yükünü, qəlbinə isə ən ağır dərdini yükləyib. Bu həyatda ana olan Gülnarə xanım bir də ata varlığını hiss etdirir Kamala. Bu ən böyük acıdır...

Eşqin 20-ci fəsli

Hər bir valideynin qayğılarını unudub elə körpə kimi sevindiyi gündür övladının 1 yaşı. O gün sevinclərin ürəkdən-ürəyə toxunduğu gündür. Arzuların qanadlandığı gün ürəyin qəlibinə sığmaz o arzular.

Artıq həmin o gün çatıb. 3 il övlad yolu gözləyən valideynlər üçün övladlarının 1 yaşını tamamlaması böyük xoşbəxtlik olub. Şahmar arzuladığı kimi o günü təntənəli şəkildə qeyd edə bilməsə də, ailə arasında həmin günün sevincini bölüşüb. Həmin gün Şahmarın dilə gətirdiyi sözlər bir övladın atadan duya biləcəyi ən dəyərli sözlər olub.

– Kamalım, sən mənimlə hər zaman qürur duyacaqsan. Necə ki illərdi anan mənimlə qürur duyur, sən də eyni duyğuları yaşayacaqsan. Etiraf edim ki, mən də ananla qürur duyuram. Bir hərbçi kimi qət etdiyim bu yolda ananın böyük zəhməti var. O bu yolda mənim ürəyimin təpəri olub. Bilmirəm nə qədər ömür yaşayacağam, ancaq yaşadığım ömrü sizin firavan həyat



sürməyiniz üçün yaşayacağam. Bir gün sən də qürurla mənim adımı dilinə gətirəcəksən.

O gün Şahmarın arzuları köksünə sığışmamışdı. Daha bilmirdi ki, Kamalla bağlı arzulara çatmağa ömrü vəfa etməyəcək. Kamalın cəmi 2 yaşının sevincinə şahid ola biləcək. O sevincin donub qaldığı şəkillər Kamalın hər ad günündə gizlin-gizlin baxıb həsrətlə köks ötürməsinin çox şahidi olacaqlar. O şəkillərdən boylanan xoşbəxtlik Kamalın daha həsrətin çəkdiyi xoşbəxtliyidir. O şəkillərdə donub qalan xoşbəxtlik Kamalın şəhid olan atalı arzularıdır. Bəlkə də, illər sonra Kamalın göz yaşı ilə islanan o şəkillər solacaq. Ancaq Kamalın ata həsrəti hər zaman təzə-tər qalacaq.

Eşqin 21-ci fəsli

– Mən cənnətə gedəcəm. Çalış ki, sən də cənnəti qazan. Bu dünyadan köçsəm də, mən öz cənnətimdə səni gözləyəcəyəm.

Bir şəhidin ömür yollarına nəzər salan zaman onun şəhadətindən necə xəbərdar olduğuna təəccüblənməmək mümkün deyil. Gülnarə xanım Şahmarı bu dünyada özünə dayaq bilsə də, Şahmar Gülnarəni əbədi dünyada gözləyəcəyini deməklə əslində onu alacağı o xəbərə hər an hazır olmağa alışdırıb. Hər dəfə o sözləri duyarkən qəlbinin narahatlığını bəlli etməməyə çalışan Gülnarə xanım "Birdən həyatda Şahmarsız qalsam, nə edərəm?" düşüncəsinin əsirinə çevrilib. Axı o bilirdi ki, Şahmar bir gün getdiyi kimi dönməyə bilər. Əbəs deyilməyib ki, "Hərbçinin həyat yoldaşı da hərbçidir." Şahmar vətən keşiyini çəkdiyi zaman Gülnarə də gözləri ilə yollara keşik çəkib.

Bütün yaşanılan intizar, həsrət Şahmar evə girən anda üst-başına hopan torpaq qoxusunun yayılması ilə sona çatırmış. Saatlarla, bəzən isə günlərlə çəkməsini çıxarmayan Şahmar evinə gəldiyi zaman onu gözləyən yarını və övla-

dını görüb çəkdiyi bütün çətinliyi unudurmuş. Onun üçün sevincin mərkəzində sevdikləri dururmuş. Elə sevdiklərinin də sevincinin təməli və sonu Şahmar imiş. Bir gün o sevincin təməlli sona çatacağını heç kim düşünmürmüş. Ancaq...



Bir vaxtlar xəyalından belə qorxduğu tənhalıq daha Gülnarə xanımın həyat sınağıdır. Bilirsiniz gəlməyəcəyini bildiyin halda gözləmək necə ağır gəlir? Ümid olmadığı halda ümidlənmək, bir körpəyə ümid vermək qədər çarəsizlik varmı? Ruhən öldüyün dünyada cismən məğrur görünmək qədər təzadlı bir durum varmı? Bu anın çarəsizliyini şəhidləşən şəhid yarları bilər.

Eşqin 22-ci fəsli

Hər bir çəkilən zəhmətin bir nəticəsi olur. Hərbçilərin çəkdikləri zəhmətin nəticəsi isə qazandıqları medallar və layiq görüldükləri rütbələr olur. Şahmarın da ordu sıralarında göstərdiyi qüsursuz xidmətləri diqqətdən kənarda qalmırdı.

2016-cı ildə Aprel döyüşləri zamanı göstərdiyi şücaətlərə görə Şahmar baş leytenant hərbi rütbəsinə yüksəlmişdir. O rütbə onun general olmaq yolunda qalxdığı daha bir pillə idi.

Şahmar vətənli arzuların yollarında gəncliyini fəda edib. Gecə-gündüz vətənə xidmət edən vətən oğlunun tək amalı vətənə layiq ola bilmək olub. Onun qazandığı bütün uğurlara özü qədər sevinən Gülnarə xanım da sanki özü bir hərbçi kimi o uğurlara imza atıbmış kimi hiss edib. Axı o uğurlarda onun da yuxusuz gecələri, həsrəti var idi.

Hər bir Azərbaycan zabiti Azərbaycanın şanlı ordusunun mayağıdır. Güclü zabiti olan ordunun yaşayacağı bir duyğu var. O da qalibiyyət duyğusudur. 2018-ci il 26 iyun "Silahlı Qüvvələr Günü" Şahmar da "Azərbaycan Silahlı Qüvvələrinin 100 illiyi" yubiley medalı ilə təltif olunanlar sırasında olub. Onun hərbçi kimi qazandığı uğurlar bununla da kifayətlənməyib. Ömrünün hər gününü vətən naminə yaşayan Şahmarın qazanacağı ən böyük rütbə qarşıda olub.



Eşqin 23-cü fəsli

Şahmar qüsursuz, hərbçi olmaqla yanaşı, həm də qüsursuz insan olub. Onun ürəyinin mərhəmətindən, xeyirxah addımlarından pay alanlar çox olub. Aldığı məvacibi belə özündən çox başqaları üçün xərcləyən Şahmar heç bir Allah bəndəsini darda qoymayıb. Əsgərlərinə ata, qardaş qayğısı ilə yanaşıb.

Əsgərlərinin heç bir halı Şahmarın diqqətindən yayınmayıb. Bir dəfə bir əsgərin ailə vəziyyətinin çox ağır olduğunu və o əsgərin anasını təcili olaraq həmin vəziyyətdən xilas etməli olduğunu öyrənib. Həmin əsgərin xidməti başa vurmağına 3 ay vaxt qalıbmış. Əsgər Ələvsətin anasını Goranboydan Beyləqana gətizdirib. Öz evlərinin yanında o əsgərin anasına ev tutub və bütün xərclərini özü qarşılayıb. Gülnarə xanım da həmin köməksiz qadını diqqətdən kənarda qoymayıb. Hər zaman ilk olaraq əsgər anasının payını çəkib göndərib sonra özü süfrəyə əyləşib. Əbəs deyilməyib ki, "Ərlə arvadın torpağı bir yerdən götürülür."

Ələvsət hərbi xidmətini başa vurduqdan sonra da Şahmar onu diqqətdən kənarda saxlamayıb. Şahmarın sayəsində Ələvsət yenə darda qalmayıb.

Şahmar çox insanların duasını qazanmışdı. Gülnarə xanım o duaların hər zaman Şahmarı qoruyacağını düşünürdü. Ancaq heç ağlına gəlməzdi ki, o dualar Şahmarın cənnətinin açarı olacaq. Allah edilən o yaxşılıqların müqabilində Şahmarı şəhadətlə mükafatlandıracaq.

Eşqin 24-cü fəsli

Gülnarə xanım ömrünün çox günlərini Şahmara həsrət yaşadığı üçün Şahmarın evə gəldiyi günlər onun üçün bayram olarmış. Çünki demək olar ki, Şahmar hər bayramı səngərdə əsgərlər ilə keçirərmiş. Hər bayram günü bir ümidlə süfrə açıb Şahmarın yolunu gözləyən Gülnarə

xanım günün sonunda yenə xəyalları ilə baş-başa qalarmış.

Şahmar hər dəfə bayram günü əsgərlərin könlü şad olsun deyə, gözləri yolda qalmasın deyə gözəl bayram təşkil edərmiş. Gülnarə xanım "Kaş ki bir bayram gününü də baş-başa keçirərdik" – deyən zaman ***"Gözləri yollarda qalan əsgərlər var. Mən onları qoyub evə gələ bilmərəm. Sən hər bayramın ertəsi günü bizim ikimizin bayramımız olacağını düşün. Əvvəlcə əsgərlərin ürəyini sevindirək"*** – deyərmiş.



Şahmarın mərhəməti onun ən böyük sərvəti idi. Qəlbində pisliyə yer olmayan Şahmar sanki dünyaya əksi düşən yaxşılığın özü idi. Elə ona görə də hər kəsin qəlbində onun özünəməxsus yeri var idi. Gülnarə xanım üçün isə Şahmar həyatın, xoşbəxtliyin, sevginin özü idi.

SEVGİSİ MAYAQ ŞƏHİD

Qəlbində var olan mərhəmət hissi,
Elə bil ruhunun mayağı idi.
Sənin qorxmazlığın, sənin mərdliyin,
Neçə gənc əsgərin dayağı idi.

Örnək addımlarla öndə gedərkən,
Elə bil ürəyə təpər olurdun.
Sənintək qorxusuz qəhrəmanlardı,
Tükənməz sərvəti vətənin, yurdun.

İllərlə vətənin çəkdiyi dərdi,
Şahmar, yumruq boyda qəlbə yığmısan.
Neçə vətəndaşın əzbərlədiyi,
"Ölməzlik" əsərin qanla yazmısan.

Başının üstündə ucalan bayraq,
Sənin əzəmətin, dəyanətindir.
Torpağı düşməndə qalan vətəndə,
Deyirdin "Yaşamaq mənə çətindir."

Son damla qanınla sən nida qoydun,
Qəlbinin çəkdiyi vətən dərdinə.
Məzarın üstündə ucalan bayraq,
Şan qatır şəhidim, əzəmətinə.

Eşqin 25-ci fəsli

Bir qadın həyatda "Mən xoşbəxtəm" sözlərini o zaman qəlbdən deyir ki, o qadın qəlb yarısını tapdığına əmin olur. Gülnarə xanımın nəinki sözlərindən, hətta gözlərindən də o xoşbəxtliyi sezilmişdir. Hər kəs bu cütlüyün mükəmməl cütlük olduğuna şahid olmuşdur.

Şahmar çox zaman işi ilə əlaqədar Gülnarə xanımı yalnız buraxsa da, heç zaman bir toy və ya özəl gündə onu tək qoymurmuş. Çünki Şahmar yaxşı bilirmiş ki, Gülnarə Şahmarsız getdiyi hər yerdə kəm qalır və sevinc onun qəlbindən gen düşür.



Şahmar üçün Gülnarə bu dünyanın ən gözəl qadını idi. Gözü Gülnarədən başqasını görməyən Şahmarın varlığı ən böyük səadət idi. Hətta Şahmar yanında olmayan zaman da Gülnarənin çöhrəsində təbəssüm çiçək açmağı üçün yarının adının çəkilməsi kifayət edirmiş. Əsl sevgi sevdiyin yanında olmasa belə onu yanında hiss etməkdir.

"Sən dünyanın ən gözəl anası və qadınısan." Gülnarə xanım Şahmardan duyduğu bu cümlədən güc alar, Şahmar yanında olmadığı zaman da o sözləri Şahmar deyirmiş kimi ürəyində təkrar-təkrar deyərmiş.

Bəzən düşünürəm ki, Allah çox sevənləri əbədiyyətdə ayrılmamaqları üçün bu dünyada ayırır. Onların sevgilərini həsrətlə sınayır. Onların mükafatı əbədi qovuşmaq olsun istəyir. Yoxsa Allah bu sevənlərə qıymazdı. Müvəqqəti ayrılığın mükafatının əbədi qovuşmaq olacağı üçün Gülnarə xanım Şahmarsızlığa dözür. Yoxsa Şahmarı nəfəs bilən, Şahmarın sevgisi ilə yaşayan qadın bu qədər ağır sınağa tab gətirə bilməzdi. Sevə-sevə ayrılıq sevənin sınağıdır...

ÖNƏ ƏYİLMƏSİN ÖNÜNDƏ BAŞIM

Sənin sevgin idi məni yaşadan,
Ömrümü ömrünə biçdiyim adam.
Kaş sevgin uğrunda can verdiyintək,
Mən də köç edərdim fani dünyadan.

Sənlə o qədər xoşbəxt idim ki,
Elə bil kainat qısqandı bizi.
Bizim sevgimizin limanı oldu,
Dünyanın ən böyük sevgi dənizi.

Gör neçə zamandır kimsəsiz qalıb,
Addımın izinə həsrət o liman.
Sən gedən o gündən rəngin dəyişib,
Mənim gözlərimdə bütün bu cahan.

Sənin gözlərinə düşən əksimi,
İndi məzarında görürəm, yarım.
Sənin məzarının sakinləridir,
Sənlə dəfn etdiyim o arzularım.

Bir gün cənnətinin sakini kimi,
Döyəcəm qapını, ömür yoldaşım.
Allahdan tək budur mənim istəyim,
Önə əyilməsin önündə başım.

Eşqin 26-cı fəsli

Hər kəs üçün həyata göz açdığı gün bir başqa əhəmiyyət kəsb edir. Əslində həmin gün insan həm duyğulu, həm də kövrək olur. Şahmar da 28 yaşı tamam olan gün duyğularını bəlli etməməyə çalışıb. Elə həmin gün də adəti üzrə gününü vətən keşiyində əsgərlərlə birlikdə keçirib. Günün sonunda yorğun halda evə gəlib. Çox zaman özəl günlərini evə gəlmək imkanı olmayan Şahmarın gəlişi Gülnarəni və Kamalı çox sevindirib.

Şahmarın ad günündə Gülnarə xanım Şahmarın gəlişinə çox ümid etməsə də, yenə də tədarük görüb. Şahmarın ad günü üçün süfrə açan Gülnarə xanım "Əgər Şahmar gələrsə, süfrəyə əyləşərik. Gəlməzsə də, gələcəyi günü gözləyərik" – deyib.



Gülnarə xanım Şahmara özəl ad günü tortu hazırladıb. Tortun üzərində ailələrini əks etdirən kadr əks olunub. Ancaq həmin gün arzularda yer aldığı kimi o ailənin xoşbəxt günləri uzunömürlü olmayıb.

Ad günündə Şahmar gəlişi ilə Gülnarəyə, Gülnarə isə diqqəti ilə Şahmara sevinc bəxş edib. Nəfəsi bildiyi oğlu ilə ad günü tortunu kəsən zaman arzular diləyib. Həmin günün sevinci də donub şəkildə qalıb. 28-ci ad günü Şahmarın bu dünyada qeyd etdiyi son ad günü olub. Şahmar bilməzdi ki, o əbədilik 28 yaşında qalacaq. Axı o yaşamaq istəyirdi. Axı onun hələ arzuları var idi...

Sevdiyinin ad günündə bir daş məzar qucaqlayıb həsrət gidərmək qədər ağır sınaq varmı bu dünyada? Yanan ürəyinə göz yaşı çiləyib təsəllisi olmayan bir dərdə təsəlli axtarmaq ürəyin ən ağır yüküdür. Daha o ötən xoşbəxt, sevgi dolu günlərin yaşanmayacağı həyatda yaşlanmaq çox ağrılıdır.

İYİRMİ SƏKKİZ İL ÖMÜR YAŞADIN

İyirmi səkkiz il ömür yaşamaq,
Sənin alın yazın oldu, qəhrəman.
Ömrünü vətənin ömrünə yazıb,
Şərəflə şəhidtək köçdün dünyadan.

Sənin arzun idi bir generaltək,
Vətən keşiyində mərd dayanasan.
Heç kəs istəməzdi zamansız köçüb,
Qəlbin yarasıtək hey qanayasan.

Kamala layiqli bir ata olmaq,
Qəlbində var olan amalın idi.
"Hərbçi oğluyam" deyən övladın,
Qürurla "Mən şəhid oğluyam" dedi.

Hər kəsə fəxarət yaşatsan da sən,
Yoxluğun əlacı olmayan dərddi.
Sənin varlığınla xoşbəxt olanlar,
Şahmar, nur üzünə daha həsrətdi.

Eşqin 27-ci fəsli

2 il öncə 24 noyabrda Şahmar atalıq sevincini yaşamışdı. Həmin gündən sonra Kamal Şahmarın işıqlı dünyası olmuşdu. Kamal Şahmara bənzərliyi ilə də daha çox atasının qəlbini fəth etmişdi. Baxışı, gülüşü, mehribanlığı sanki Şahmarın özü olan bu balaca ailəsinin böyük sevinci olmuşdu. Şahmar Kamalın gözəl gələcəyi üçün çalışırdı.

– Mən oğluma elə həyat yaşadacağam ki, gələcəkdə heç zaman atasından narazı qalmasın. İstəmirəm övladım çətinlik çəksin. Onun üçün hər şəraiti yaradacağam.

Şahmar Kamalla bağlı çox xəyallar qurmuşdu. Dediyi kimi Kamalın gələcəkdə əziyyət çəkməməsi üçün hər şəraiti yaratmışdı. Ancaq bircə Kamalı atasızlığın ağuşundan ala bilməmişdi.

Kamal atası ilə bərabər keçirdiyi 2-ci və son ad günündə həyatı dərindən dərk edə bilməsə də, bundan sonra keçirəcəyi hər ad günündə o günün həsrəti ürəyini sızladacaq. Daha Kamalın atalı ömrünün izinə yalnız şəkillərdə rast gəlmək mümkündür. Bir zamanlar yaşanılan o xoş anların izi heç zaman silinməyəcək. Nə yaddaşlardan, nə də həmin şəkillərdən. Kamalın bu dünyada ən böyük sərvəti elə həmin şəkillərdir. Çünki daha o şəkildə donub qalan sevinclı günlərin bir təkrarı və bənzəri yaşanmayacaq.

– Mən Kamala atasının fədakarlığını başa salıram. Bu gün ata yoxluğu Kamal üçün ağır gəlir. İllər keçdikcə onun çəkdiyi həsrət qürurla əvəzlənəcək. Elə indi də "Mən qəhrəman oğluyam. Mənim atam Azərbaycandır" deyəndə qüruru gözlərindən oxunur. Gələcəkdə Kamal atasının bir ömür boyu onun rahat yaşamağı üçün nələr etdiyini biləcək. Axı hər övladın atası qəhrəman olmur. Axı hər övladın atası vətəni xilas etmir. Axı hər övladın atası şəhid olmur.



Hər dəfə Kamala atasından bəhs edəndə kəlmələr boğazıma yığılır. Ancaq Şahmarın o an məni gördüyünü və oğlumuza ondan danışmağımın Şahmarın ruhunu sevindirdiyini düşünərək özümdə güc tapıram.

Asan deyil bir uşağın həsrətini təsəlli etmək. Hər dəfə Kamal "Ata" deyəndə onun körpə ürəyinin həsrətini iliklərimə qədər hiss edirəm. Mənim bu yaşımda çəkə bilmədiyim dərdin Kamalımın körpə qəlbini məskən seçməsi məni çox incidir. Heç bir ana övladının acı, həsrət çəkməyini istəməz. Mən də istəməzdim. Ancaq istəməsəm də, övladımın acı, həsrət çəkə-çəkə böyüməsinə şahid oluram. Tək təsəllimiz isə həsrətimizə tən qürurumuzdur.

Eşqin 28-ci fəsli

Arzular, arzular, nakam arzular... Şahmar və Gülnarə birlikdə çox arzuya çatmaq xəyalında idilər. Ailə qurduqları ilk gündən köçəri quşlar kimi bir ünvandan digər ünvana köçməkdənsə özlərinə məxsus bir ev almaq niyyətində idilər. Axı onların Kamalı böyüyürdü. Kamal da bir məktəbli olacaqdı. Ata-anası Kamalın rahatlığı üçün çalışırdılar. Kamal məktəbə gedəndə əziyyət çəkməyini istəmirdilər. Kamalın bir məktəbli kimi öz evlərindən çıxmağını xəyal edirdilər.

Şahmar və Gülnarə yaxşı bilirdilər ki, ev almaq asan iş deyil. Ancaq onlar çətinliyə sinə gələrək yaşamağı öyrənmişdilər. Bilirdilər ki, bu çətinliyin də öhdəsindən gələ biləcəklər. Elə düşündükləri kimi də hər zəhmətə qatlandılar. Arzularına çatacaqları günü xəyal edirdilər. Ancaq xəyal etmədikləri başlarına gəldi. Bu arzu Şahmarın çatmadığı arzular sırsında yer aldı.

Şahmarlı arzuların Şahmarsız yerinə yetməsi çox ağırdır. Şahmarın arzusunda olduğu o ev artıq alınıb. Ancaq Şahmar o evdə ruhu ilə addımlayır. Kamal məktəbə gedən gün o evdən çıxan zaman Şahmar yenə ruhu ilə oğlunun əlindən tutacaq. Bu xəyallar çox ağırdır, İlahi...

Eşqin 29-cu fəsli

2020-ci il gəlişi ilə ilk andan digər illərdən fərqlənmişdi. Hər zaman bayramı səngərdə əsgərlər ilə qeyd edən Şahmar ilk dəfə Yeni il gecəsi evinə gəlmişdi. Sanki Allah sevənlərə birlikdə qarşılayacaqları son ilin sevincini yaşatmışdı. O gün Gülnarənin və Kamalın Şahmarla keçirdikləri ən gözəl bayram olmuşdu.

Kim bilir o gecə hansı diləklər dilənmişdi? Gecə saat 12:00-da gecənin sükutunu pozan fişənglərin bir neçə ay sonra cəbhədə atəşlərlə əvəzlənəcəyi heç o gecə xəyallara gəlməmişdi. Yeni ildə hər zaman olduğu kimi yenə "Bu il Qarabağı azad edək" arzuları dillərdən düşməmişdi. Əslində hər kəs kimi Şahmar da artıq bu arzunu diləməkdən və eşitməkdən yorulmuşdu. Artıq arzuda deyil, əməllərdə bu addımı atmaq lazım olduğunu vurğulamışdı. Hər



kəs gözəl bilirdi ki, bu arzu ömürlərin fəda olması ilə gerçək ola bilərdi. ***"Təki vətən fəda olmasın"*** – deyən Şahmar kimi oğullar fəda olmaqdan bir an belə tərəddüd etmirdilər.

Şahmar üçün ən böyük hədiyyə oğlunun "Ata" kəlməsi idi. Şahmarın isə oğluna ən böyük hədiyyəsi azad Azərbaycan oldu. Kamalın bütün atalı arzuları əlindən alınsa da, gün gələcək azadlığın nə qədər bənzərsiz bir duyğu olduğunu dərindən dərk edəcək. O zamana qədər isə onun körpə ürəyi çox həsrət çəkəcək. Elə Gülnarə xanımın ürəyi kimi...

Eşqin 30-cu fəsli

Şahmar üçün yaşadığı ən gözəl duyğu Gülnarənin gözlərində sevinc duyğusunu görmək imiş. Sevdiyinin sevinci onun üçün ən böyük xoşbəxtlikmiş. Çünki Şahmar yaxşı bilirmiş ki, Gülnarə xanım illərdi bir çox qadının tab gətirə bilməyəcəyi çətinliyə dözür. Bu onun Şahmara olan sevgisindən irəli gəlib. Şahmar da bu sevgini hər zaman uca tutub.

2020-ci il fevralın 1-də Gülnarə xanımın ad günündə Şahmar yenə də həmişə olduğu kimi işinin başında olub. Ancaq qəlbi sevdiyinin yanında olan vətən oğlu yarının qəlbini sevindirməyi bacarıb. ***"Dünyanın ən gözəl qadını və anası, ad günün mübarək."*** Bu sözlərin yazıldığı tortu görəndə Gülnarə xanım təəccübünü və sevincini gizlədə bilməyib. "Bu tortu Şahmar sizin üçün sifariş edib." Gülnarə xanım qadın kimi sevildiyinin bir daha sevincini yaşayıb. Ancaq o günün sevinci bununla da bitməyib. Günün bitməsinə 1 saat qalmış Şahmar özünü sevdiyini təbrikə yetirib. Gülnarə xanım yaşadığı o günün Şahmarla birgə qeyd etdiyi son ad günü olduğunu düşünməyib.



SEVİNCİ DONAN QADIN

Bu dünyada kəm qaldı,
Böyük-böyük sevgilər.
Ürəyin kəm tərəfi,
Hey çəkir işgəncələr.

Nələr xəyal olundu,
Allah, nələr yaşandı?!
Şahmarsız Gülnarənin,
Sevən qəlbi al qandır.

Sevinci donub qalıb,
27 yaşında.
Dəyir qayaya-daşa,
Həyatın axışında.

Canını qurban dedi,
Dedi "Şahmar oyansın.
Allahım, al canımı,
Mənim qəlbim dayansın."

Gülnarənin sevinci,
Şahmarla birgə getdi.
Hər ötən gün ruhunun,
Parçasını dəfn etdi.

Eşqin 31-ci fəsli

Şəhidlər ömürlərinin sonlarına doğru sanki bir az başqalaşırlar. Bu da Allahın bir lütfüdür. Allah seçdiyi bəndəsinin ömür yollarının sona çatacağını elə o bəndəsinə agah edir. Düzdür, həmin dönəmlərdə bunun fərqinə varılmasa da, sonradan əslində olanların bir işarə olduğu bəlli olur. Həmin yaşanılmışlar Şahmarın həyatında da öz əksini tapıb.

2020-ci il Şahmar heç zaman etmədiklərini etmişdi. Bunu hər kəs təəccüblə qarşılamışdı. Sanki tələsirmiş kimi davranışlar sərgiləmişdi.

Şahmar hər il yay aylarında məzuniyyət götürüb ailəsi ilə birlikdə Naxçıvana gedirmiş. 2020-ci ildə isə fevral ayında məzuniyyət götürmüşdü.

Şahmarın ürəyi çox gözəl idi. O hər kəsi sevindirməyə çalışırdı. Valideynləri üçün övladlarını görməkdən daha böyük bir sevinc ola bilməyəcəyini yaxşı bilən oğul elə ən böyük sevinclə onların ürəklərini sevindirmək qərarına gəlmişdi.

Şahmar anası ilə daha yaxın münasibət qururdu. Atası ilə isə hər duyğunu bölüşmürdü. Bir çox oğullar kimi Şahmar da atası ilə sevgi münasibəti ilə yanaşı, sayqını da saxlamağı bacarırdı. Atasının ad günündə gözlənilmədən gələn Şahmar atasına ala biləcəyi ən böyük və dəyərli hədiyyəni vermişdi. O gün Quliyevlər ailəsinin sevinci könüldən-könülə calanmışdı. Bütün ailənin bir arada olması qışın soyuğunu sanki yaza çevirmişdi. Onlar bilmirdilər ki, o gün ailənin Şahmarlı son xoş günüdür.

Daha Quliyevlər ailəsinin hər sevinci kəm qalır. Gülüşü şəkillərdə donub qalan Şahmarın yoxluğu hər sevincli gündə daha çox hiss olunur. Hər kəsin ürəyində Şahmarın yoxluğunun sızıltısı var. Bu yoxluqdan pay alanlar çoxdur.

Eşqin 32-ci fəsli

Vidalar hər zaman çətin olur. Şahmar hər dəfə Naxçıvandan ayrılanda doğmaları üzülürdü. Son dəfə 2020-ci il martın əvvəllərində ailəsi ilə vidalaşan zaman sanki əbədi vida olduğu hiss olunurdu. Heç vaxt oğlu ilə görüşən zaman ağlamayan Kəmaləddin müəllimin gözlərindən özündən biixtiyar süzülən yaş əbədi vidanın xəbərçisi idi. Atasının yanağında göz yaşı görmək Şahmarı çox duyğulandırmışdı. Atasının boynuna sarılan oğul ***"Gələcəm, üzülməyin"*** – demiş və son dəfə uşaqlığının, gəncliyinin izi olan yollara iz salmışdı.

Səkinə ana üçün də Şahmardan ayrılmaq asan olmamışdı. Təkrar-təkrar biri-birini qucaqlayan ana və oğul sanki olacaqlardan xəbərdar olmuşdular. Həmin o son görüşü Gülnarə xanım dilə gətirdikcə o günün xatirəsi yanağımızda cığır saldı.

Gülnarə xanım həmin son vida zamanı düşünməzdi ki, bir daha sevdiyi ilə bərabər o evin kandarından addım ata bilməyəcək.

– Kaş ki zaman elə o vida anında donub qalardı. Mən Şahmarın doğmaları ilə vidalaşmağına dözə bilmirdim. Bilməzdim ki, Şahmarla əbədi vida mənim də alnıma yazılacaq. Mənim üçün vidalar çox ağır gəlir. Çünki mən Şahmarla dəfələrlə vidalaşmaq məcburiyyətində qalmışdım. Son vidamız sonunda qovuşmaq ümidimiz olan o vidalardan olmadı...

Eşqin 33-cü fəsli

Bahar ümidlərin cücərdiyi, həyatın gözəlləşdiyi bir fəsildir. 2020-ci ilin bahar fəsli çatanda Gülnarə xanımın ümidi Şahmarla həmişəlik eyni damın altında qalmaq olsa da, Şahmarın ümidi vətəni azad etmək idi.

Şahmar sanki bilirdi həmin ildə yaşanılan bütün bayramların doğmaları ilə birlikdə keçirdiyi son bayram olduğunu. Heç bir ildə ailəsi ilə birlikdə bayram keçirməyən

Şahmar həmin il bütün bayramları ailəsi ilə birlikdə keçirmişdi. Sanki yaşanılacaqların xatirəsini birikdirməyə can atmışdı. Ondan qalan tək xatirələr olacağını bilirmiş kimi...

– O qədər gözəl bir gün idi ki, indi xatırladıqca özümdən bixəbər o günün gözəlliyinə qapılıb, o günü təkrar yaşayırmışam kimi sevinirəm. Ancaq acı gerçək o sevincimi ilgəyindən sökür. İndi o günlərdən mənə qalan Şahmarlı xatirələr və şəkillərdi.

Şahmar həmin Novruz bayramı günü cəmi yarım saatlıq gəlmişdi. Gələ bilməyəcəyini desə də, çox qısa müddətlik də olsa, bizi təbrik etmək üçün icazə almışdı. Uzaqdan Şahmarın gəldiyini görüb körpə uşaq kimi sevinmişdim. Həyətdəki bütün uşaqlar "Şahmar əmi gəldi" deyib Şahmarın gəlişinə sevinmişdilər. Şahmar həmin bayram o uşaqların hər birinin könlünü xoş etməyi bacarmışdı.



Heç süfrəyə əyləşməyə belə zaman çatmadı. Ayaqüstü bir neçə çərəz götürdü və bir neçə şəkil çəkdirib təcili işə qayıtmalı olduğunu dedi. Bu məni çox məyus etdi. ***"Heç üzülmə Gülüm, hələ çox bayramları birlikdə qeyd edəcəyik"*** – dedi. Ancaq bu Şahmarın bizimlə keçirdiyi son Novruz bayramı oldu.

Şahmardan sonra daha heç bir bayramın gəlişinə sevinmirəm. Mən bütün sevinclərimi Şahmarla bərabər itirmişəm. Daha bu həyatda yaşamağımın özü də bir məcburiyyətdir.

Eşqin 34-cü fəsli

2020-ci ildə Şahmar təyinatla Mingəçevir şəhərində yerləşən N saylı hərbi hissəyə göndərilmişdi. Bunu eşidən ev sahibləri göz yaşlarına hakim ola bilməmişdilər. Çünki onlar Şahmarı, Gülnarəni özlərinə övlad bilmişdilər. Yenicə qızlarını itirən ailə üçün övladları bildiklərindən də ayrılmaq asan olmamışdı. Sübh səhər saat 06:00-da yola çıxan zaman qonşuların yolda onlarla vidalaşmaq üçün durduqlarını görən Şahmar və Gülnarə üçün də onlardan ayrılmaq asan olmamışdı. Ailə Beyləqandan Bakıya yola düşmüşdü.

– Bu müvəqqəti ayrılıqdır. Gedib Mingəçevirdə yaxşı şəraiti olan bir ev tapıb səni də aparacağam. Hələlik Bakıda qal. Ən qısa zamanda qovuşacağıq.

O qovuşmağın yolları uzandıqca uzanmışdır. Sən demə, Şahmar cəbhədə artan gərginlik səbəbindən Gülnarəni bilərəkdən Mingəçevirə aparmırmış. Hər dəfə Gülnarə evlə bağlı nəsə deyəndə Şahmar zaman qazanmağa çalışırmış. Artıq Şahmar Gülnarəyə bir cavab verə bilməyəcək vəziyyətə çatmışdır. Üstüörtülü şəkildə Gülnarənin anasına vəziyyəti izah edən Şahmar hər an nələrsə ola biləcəyini agah etməyə çalışmışdı. Çünki düşmənin etdikləri daha dözülə bilməyəcək həddə çatmışdı.



Şahmar üçün də asan deyildi sevdiyini, nəfəsi bildiyi Kamalı ancaq görüntülü zəng vasitəsi ilə görmək. Kamalın hər addımının, sözünün, hərəkətinin şahidi olmaq istəyən Şahmar məcburiyyətdən özünü bunlardan məhrum etmişdi.

Eşqin 35-ci fəsli

Gülnarə xanımın qəlbində yar həsrəti günbəgün böyüyüb. Hər dəfə Kamal "Atamı istəyirəm" deyən zaman o həsrət bir qədər də zəbt olunmaz hala çatıb. Hər kəs onları əziz tutsa da, onlar Şahmardan uzaq daha çox kürlük ediblər. Bəzən Gülnarə xanım Kamalın ata həsrətindən ağladığını görüb özü də o bəhanə ilə Şahmarsızlıqdan ağlayıb. Bunların hər birini bilən Şahmar isə çarəsizlik əlində əsir qalıb.

– İyunun son günlərində Çinarəgilin həyətlərində yenə də uşaqlar eyni qaydada oynayırdılar. Birdən həyətin qapısı açıldı. Şahmar hərbi formada içəri girdi. O an Kamalın "Ata" deyib Şahmarın üzərinə qaçması gözlərimin önündən getmir. Bir an xəyal və ya yuxu gördüyümü düşündüm. Donub yerimdə qalmışdım. Şahmar mənə tərəf irəliləsə də, mən elə bil şoka düşmüşdüm. Heç gözləmirdim o gün Şahmarın gəlişini. Məni bağrına basanda elə bil ki, yuxudan oyandım. Bu gerçək idi. Bu nə yuxu, nə də xəyal idi. Şahmar o gün gəlişi ilə üzümü güldürdü. O gün mənə bizi çox qısa zamanda Mingəçevirə aparacağını dedi. Ancaq axşam təsadüfən Maliklə söhbətlərinə qulaq yoldaşı oldum. Cəbhədə gərginliyin artdığını dedi. Onsuzda ailə qurandan hər an xəyalımda canlanan o bayraqlı tabut təkrar gözlərimin önünə gəldi.

O gecə göz qırpımında keçdi. Sübh səhər Şahmar yenidən xidmətə dönmək üçün hazırlaşdı. Bu dəfə qorxularım sanki daha da artmışdı. Kamalı yuxuda öpüb-qoxladı. Görüşəcəyimizə ümid verib getdi.



Eşqin 36-cı fəsli

Şahmar üçün ən böyük sevinclərdən biri də 2020-ci il 26 iyun "Silahlı Qüvvələr Günü" yaşanmışdı. O arzusunda olduğu kapitan hərbi rütbəsinə layiq görülmüşdü. İlk olaraq bu sevinci bu uğura ən çox sevinə biləcək xanımı ilə bölüşmüşdü. Axı o bilirdi ki, Gülnarə xanım Şahmarı kapitan, mayor, general rütbələrində görmək arzusundadır.

– Sənə şəkil göndərmişəm. Ona bax. Mən bunu bacardım. Biz bunu bacardıq.

Gülnarə xanım Şahmarın kapitan rütbəsində göndərdiyi şəkili gördüyü anda gözləri sevincdən dolmuşdu. Çünki o bu rütbənin hansı zəhmətlər hesabına qazanıldığını yaxşı bilirdi. Şahmara bunu qeyd etmək üçün tort hazırlamaq istəsə də, Şahmar buna razı olmamışdı.

O, Kamalın ad günündə bunların hamısını birgə qeyd edəcəklərini demişdi.

Şahmar bir hərbçi kimi hər işində səliqəli idi. İstər geyimi, istərsə də gördüyü işlər qüsursuz olurdu. Elə ona görə də hər kəsin etibarını qazanmışdı. Bir hərbçi dəqiqliyi onun hər halından bəlli idi. Hər dəfə yeni rütbə aldıqca sevinci qədər arzuları da böyüyürdü.



Şahmar yanvarın gəlişini səbirsizliklə gözləyirdi. O kombat olmağı çox arzulayırdı. Hər zaman irəliyə doğru daha bir addım atmaq üçün daha çox çalışan Şahmarın addımları nəticəsiz qalmamışdı. Ancaq təəssüf ki, Şahmarın ömrü bu arzuya çatmağa yetməmişdi.

Eşqin 37-ci fəsli

2020-ci ildə Ermənistan ordusunun Tovuz rayonu istiqamətində vəziyyəti gərginləşdirməsi bütün hərbçilər kimi Şahmarın da qəbul edə bilmədiyi bir hal idi. Azərbaycan ordusunun generalı Polad Həşimovla birlikdə 12 hərbçinin və 1 mülki şəxsin şəhid olması nəinki Azərbaycan ordusunu, ümumiyyətlə, bütün azərbaycanlıları ayağa qaldırmışdı. Bu qisasın qiyamətə qalmayacağı aşkar idi. Aprel döyüşlərində könüllü olaraq mübarizə aparan Şahmar iyulda baş verən Tovuz döyüşləri zamanı da öndə vuruşmağa can atıb. Lakin o buna müvəffəq ola bilməyib. Ancaq Şahmar gözəl bilirdi ki, qisas günü çox da uzaqda deyil. Həmin günün çatacağını səbirsizliklə gözləyən vətən oğlu adını tarixə qəhrəman kimi yazmaqda qərarlı idi.

Tovuz döyüşlərindən sonra Şahmarın ən öndə arzusu müharibənin başlaması olmuşdu. Daha Gülnarə xanım gələcəklə bağlı arzularını dilə gətirəndə ***"Sən bacaracaqsan"*** deyirmiş. Biz kəlməsini işlətməyərək sanki Gülnarə xanıma bütün çətinliyin öhdəsindən təkbaşına



gələ bilməyi öyrədirmiş. Şahmarın Gülnarəyə güvəni, etibarı, etimadı sonsuz idi. Bu güvəndən güc alaraq o gerini düşünmədən irəli doğru getməkdə qərarlı idi.

– Şahmar heç zaman yanılmazdı. Bu dəfə də yanılmadı. Sən demə, mən yar tabutu daşıyacaq qədər güclü bir qadınmışam. Sən demə, mən həyat yükünü tək daşıya biləcək qədər dözümlü bir qadınmışam. Kaş ki Şahmar məni bu qədər güclü görməsəydi.

Eşqin 38-ci fəsli


2020-ci il Qurban bayramı günü Şahmarın və doğmalarının unutmayacaqları bir gün olub. Şahmar özü vətənə qurban olmadan öncə sonuncu dəfə doğmaları ilə birlikdə qurban kəsib.

Həmin gün Şahmarın gələcəyini eşidən hər kəs səbirsizliklə o anın çatmağını gözləyib. Ancaq Kamal atasının gəlişinə xüsusi hazırlanıb. O, təzə geyimlərini geyinib qapının ağzında oturub ki, Şahmar qapıdan girən an ilk onu qucaqlasın. Nəhayət, hər kəsin gözlədiyi o an çatıb. Şahmarın gəlişi gözləri güldürüb. Ancaq Şahmarın gözlərinin lap dərinindən hüzün sezilib. Sanki o baxışlar olacaqlardan xəbər verirmiş.

– Azərbaycan ordusunun generalının şəhid olması bağışlanılmayacaq. O qisası ordumuz qiyamətə saxlamayacaq. Düşmən havadarlarına güvənib bizlərə açıq şəkildə meydan oxuduğunu demək istədi. Ancaq düşmən fərqində deyil ki, odla oynayır və o odda özləri yanacaq. Hər an hər şey ola bilər.

Şahmarın Malikə dedikləri bir tələtüm yaratmışdı. Hər an "Müharibə başladı" xəbərini eşitmək mümkün idi.

Bütün baş verənlər Gülnarə xanımı Mingəçevirə getmək fikrini bir an öncə reallaşdırmağa sövq edir. Artıq Gülnarə Şahmardan uzaqda qalmamaqda qərarlı idi. Onun üçün bütün addımları atırdı. Çünki ən çətin anda yarına daha yaxın olmaq istəyirdi.



Eşqin 39-cu fəsli


Şahmar eşqin 39-cu fəslində bu dünyadan şəhid kimi əbədi köçüb. Şahmar və Gülnarə eşqi 39 fəsildən ibarət olub. Onların həsrətlə ötən günləri payız, qış fəsillərini xatırladıb, sevdiyi ilə bərabər ötən günlər isə bahar və yay fəslini xatırladıb. Bu eşqin 39-cu fəsli natamam qalıb. Bir payız Şahmarın ömür bağına da, sevgi bağına da müharibə qor salıb. Şahmarın ömrü, arzuları müharibənin atəşinə qərq olub.

Asandırmı övlad əvəzinə məzar qucaqlamaq? Asandırmı yarın sinə daşına baş qoymaq? Asandırmı daşa dönən atanın yanağına boyun çatmır deyə əllərindən öpüb "Böyüyüb atamın üzündən öpəcəm" demək? Asandırmı qardaş məzarına kürək söykəmək? Bəzən bu ürəklərin dərd yükünün altında ürəyim də, ruhum da əzilir. Necə dözür bu ürəklər? – deyə düşünürəm. Bir anda gözlərimin önünə vətən gəlir. Acıların məlhəmi olan vətən. Köksünə sancılan bayrağı şəhid dərdlilərin köksündəki dərdə məlhəm olan vətən. Şəhid dərdlilərin tək təsəllisi – vətən.

Bəzi günlər var bir anı min illərə bərabər olar. O günlər bəzən sevincin böyüklüyündən, bəzən isə kədərin ağırlığından min illərə bərabər tutulur. Şahmar və Gülnarə o sevinci və kədəri 2020-ci il sentyabrın sonuna doğru yaşamışdılar. Uzun zamandır həsrət çəkən sevənlər Mingəçevir şəhərində yeni bir həyata başlayarkən həsrətlərinin sona çatdığını düşünürdülər. Ancaq...

Şahmar cəbhədə vəziyyətin gərginliyi səbəbindən ailəsinin Bakıda qalmağını istəsə də, Gülnarə xanım daha Şahmardan uzaqda qalmağa tab etməyib. Elə ona görə də o uzaqdan da olsa, Mingəçevir şəhərində ev axtarışına başlayıb. Nəhayət, o evi tapıb. Şahmara həmin evə baxmasını deyib. Şahmar sevdiyini qırmayıb və sentyabrın 19-da Gülnarə və Kamalı Mingəçevirə aparıb. Sevinclərinin, xoşbəxtliklərinin o gündən daha da artacağını düşünən sevənlər yaşadıqları o günlərin son xoşbəxt günlər olduğunu bilməyiblər.

Şahmar Gülnarənin qadın olaraq hər zaman sevincinin kəm qaldığını bilirdi. Çünki çox zaman o sevdiyinin yanında ola bilmirdi. Mingəçevirdə yaşanılan son xoşbəxt günlərdə Gülnarənin gözləri bir başqa gülürdü. Çünki arzusunda olduğu kimi Şahmarla birlikdə Kamalın əlindən tutub uzun-uzun zaman keçirirdi. O sevincin ömrünün bir fəsil belə ola bilməyəcəyi Şahmardan başqa heç kimə məlum deyildi.



Şahmar gərginləşən vəziyyəti bacardığı qədər gizlətməyə çalışıb. Hətta Gülnarə xanım olanlardan xəbər tutmasın deyə televizoru da işlək vəziyyətə gətirməyib. Nə qədər gizlətməyə çalışsa da, baxışları, gələn zənglərin sayı Gülnarə xanıma nələrsə baş verdiyini agah edib. Ancaq Şahmar təlimi bəhanə gətirərək ona narahat olmamağını deyib.

– Kamalı gətir yanımda yatsın. Heç Kamalımın qoxusundan doymuram. Övladımın çox anlarına şahid ola bilmirəm.

24 sentyabrda Şahmar bütün gecə Kamalı öpüb, qoxlayıb. Sanki son dəfə oğlunu bağrına basırmış kimi...

25 sentyabrda Şahmar təlimə gedəcəyini deyib. Qardaşı Amil ilə danışan zaman qardaşı "Könüllü olaraq ordu sıralarına yazılmışam" – deyib. Şahmar isə qardaşının ürəyində problem olduğu üçün onu bu fikirdən daşındırmağa çalışıb.

– Hər evdən 1 nəfər olar. Mən hər kəsi sənə tapşırıram. Geridə qoyduqlarım sənə əmanətlərimdir. Mən təlimə gedirəm...

26 sentyabrda Şahmar günorta evə gəlib. Sevdiyindən ən sevimli yeməyi olan makaron bişirməsini istəyib. Şahmar o günlər sevdiyinin xatirəsində son anıları daha çox birikdirməyə çalışıb. Həmin vaxt Şahmara zəng gəlib. "Komandir, texnikaları qaldırırıq."

– Gəlirəm...

Şahmar 3 dəst hərbi forma alıbmış. Son dəfə təlimə getdiyini deyib evdən çıxan zaman Gülnarə ona niyə təzə formasını geyinmədiyini deyib. Toz-torpaq olacağını, geri döndüyü zaman o formaları geyinəcəyini deyən Şahmar əslində nə səbəbə o paltarları geyinmədiyini dilə gətirməyib. Son dəfə evdən çıxan zaman nə Gülnarəni, nə də Kamalı öpməyə ürəyinin gücü yetməyib. Çünki onlara sarıldığı an heç qopa bilməyəcəyini gözəl bilib. Şahmar son dəfə bir neçə gün sevincə, sevgiyə qərq olan ailəsindən ayrılıb. Şahmarın ardınca dikilən gözlər onun getdiyi kimi geri dönüşünə heç zaman şahid ola bilməyib.

BİLSƏYDİM

Bilsəydim sonuncu gedişin idi,
Qəlbimi sərərdim sənin yoluna.
Sonuncu addımın silinməz izin,
Şəhidim, bükərdim mən öz ruhuma.

Bilsəydim son dəfə baxıram sənə,
O anda gözümü oyub tökərdim.
Sonuncu gördüyüm sən olmağınçün,
Özümü zülmətə mən qərq edərdim.

Bilsəydim sonuncu görüşümüzdür,
Özümü yolunda qurban deyərdim.
Vətənçün can verib sən yaşayırsan,
Şəhidim, yolunda özüm ölərdim.

Bilsəydim bir məzar qucaqlayacam,
Qolumdan keçərdim qazilər kimi.
Sən gedən o gündən qəlbi qanadır,
Cismini al qana qərq edən mərmi.

Şahmar evdən çıxdıqdan sonra Gülnarə xanım Kamalın yastığının altından Şahmarın hərbi biletini, vəsiqəsini, üzüyünü və bir neçə əşyasını tapıb. O an Şahmarın yanından ayırmadığı əşyaları qoyub getdiyi üçün hara getdiyinin fərqinə varıb. Lakin o özünü bu düşüncədən yayındırıb. Özünü inanmaq istədiyinə inandırıb: "Şahmar gələcək".

26 sentyabr çoxlarının son vida günüdür. Həmin axşam Şahmar hər kəsə zəng edib vidalaşıb. Gülnarə ilə vidası isə düşündüyündən daha ağır olub. İllərdi Şahmarla çiyin-çiyinə bütün çətinliklərlə mübarizə aparan, ürəyi həsrətə beşik olan qadına vida etmək və o vidanın son vida ola biləcəyini düşünmək Şahmar üçün çox ağır olub. Ancaq vətən onu gözləyirdi.

– Haqqını halal et, sevdiyim. İllərdi mənim üçün bütün çətinliklərə sinə gəlmisən.

– Haqqım varsa, halalın olsun, sevdiyim. Sən də mənə haqqını halal elə. Ən böyük haqq sahibi sənsən.

– Haqqım halalın olsun Gülüm, gülüm. Mən təlimə gedirəm. Uzun çəkə bilər. Malik və Çinarə gəlib sizi Bakıya aparacaqlar. Bilirəm getmək istəmirsən. Ancaq xahiş edirəm get. Mən sənin və Kamalın hələ öyrəşmədiyiniz yerdə təkbaşına qaldığınız üçün çox narahatam. Gözüm arxada qalmasın deyə, narahat olmayım deyə get.

Gülnarə üçün asan deyildi sevdiyi üçün ümidlə gəldiyi yerdən, sevdiyi olmadan ümidsiz geri qayıtmaq. Əvvəlcə razılaşmasa da, o, Şahmarın narahat qalmaması üçün getməyə razı olub.

Sentyabrın 27-də Gülnarə Şahmarın xahişini nəzərə alaraq Kamalını köksünə sıxıb Malik və Çinarə ilə birlikdə Mingəçevirdən Bakıya yola düşüb. Yol boyu düzülən hərbi maşınları gördükcə Şahmarın gedişinin səbəbini anlayıb. Şahmara zəng edib gördüyü mənzərəni deyəndə Şahmar yenə də bütün bunların təlim xarakterli olduğunu deyib. Gülnarə Şahmarın dediklərinə inanmasa da, inanmaq istəyib.

– Oh Malik, Gülnarəni razı salıb Bakıya aparmısan. Daha rahat döyüşə girə bilərəm.

Artıq Şahmarın döyüşdə olduğu heç kimə sirr deyildi. Gülnarə döyüş başladığını bildiyi andan yalnız şəhid şəkillərinə baxır, hər an Şahmarın şəkli, Şahmarın adı ilə rastlaşmaq qorxusu ilə yaşayır.

Müharibənin ilk gününün sonunda gecə Şahmarın bacısı oğlu Anar Gülnarəyə verdiyi sualla əslində Gülnarənin dilə gətirə bilmədiyi acı gerçəyi dilə gətirib.

– Dayıcanı, dayım şəhid olsa, nə edərsən?

– Allahım, Şahmar şəhid olsa, mən nə edərəm?...

Sentyabrın 28-də günortadan sonra Gülnarə xanım statusunda şəhid mahnısı paylaşıb "Vətən sağ olsun!" yazıb. Gülnarə xanım bilməyib ki, həmin anlarda ölkə dardan çıxsın deyə can verən qəhrəmanlardan biri də elə Şahmardır. Həmin gecə sanki Allah Gülnarə xanımı bu dünyadan təcrid etmək üçün onu dərin bir yuxuya aparıb. Elə həmin gecə Şahmarın adı şəhidlərin siyahısında yer alıb. Bundan xəbəri olan hər kəs məlumatın dəqiq olub-olmadığını araşdırmağa başlayıb. Səhər açıldığında Gülnarə xanım qəribə davranışlarla üzləşib. Sanki hər kəs ondan qaçırmış kimi hiss edib. Ən çox Qədir dayının göz yaşı ilə dolub-boşalan gözlərini gizlətməsi Gülnarə xanımın diqqətini çəkib. Ancaq o Şahmarın şəhid olmağını düşüncəsinə yaxın buraxmayıb. Gülnarə hardan bilsin ki, Qədir dayıya oğlu Malik "Ata, hazır olun, şəhidimiz var" – deyib.

29 sentyabrda küçədən gələn ağlamaq səsini eşidən Gülnarə xanım Çinarə xanıma "Bəlkə, məhəlləyə şəhid gəlir?" – deyir. Bu sözləri duyan Çinarə xanım bir anda küçəyə qaçır. Ardınca Gülnarə xanım çıxır. Hər kəsin ondan gizlətdiyi gözlərdən süzülən yaşda boğulan Gülnarə xanımın "Şəhid olan Şahmardı?" sualına çarəsiz baxışlar cavab olur. O an Gülnarə xanımın "Şahmar" deyə ucalan naləsi ərşin qulağını kar edir. O çarəsizliyin, o yalvarışın, o fəryadın önündə hər kəs aciz qalır.

– Gülnarə, gedirəm məndən xəbər gözlə. Şahmarı gözümlə görməyənə qədər bu xəbərə inanmaram. Sən də inanma.

Bu sözləri duyan zaman Gülnarə xanımın ürəyində bir ümid qığılcımı yaranır. İntizarla Malikdən gələcək o zəngi gözləməyə başlayır. Ancaq gələn o zəng bütün ümidlərin nidası olur. "Gülnarə hazırlaş, Şəhid Şahmarı gətirirəm."

İlahi, bu necə dərddir? Bu dərdin önündə ürək necə tab gətirsin? Ancaq Gülnarə xanım bu dərdin önündə əyilməməyə məhkum idi. Çünki o, bir hərbçi xanımı idi. Çünki o, Şahmarın yarı idi. Çünki o, Kamalın gözlərindəki son ümidi idi. Çünki o, Şahmarın dəfninə gələ bilməyən ananın susmayan dili idi. Çünki o, Şahmarın Gülnarəsi idi.

– Mən Şahmarı gözlərimlə görməsəm, onun şəhid olduğuna heç kim məni inandıra bilməz. Son dəfə sevdiyimin qoxusunu duyum. Son dəfə sevdiyimə vida edim.

Bir şəhid xanımının son istəyi hər kəsin ürəyinə dağ çəkir.

– Heç bilirsiniz qara maşın yolu gözləmək necə olur? O gecəki siqnal səsi hələ də qulaqlarımdan getmir. 2 qara maşın gəldi. Birində 1, digərində 2 tabut var idi. Mən Şahmarın tabutunu görən kimi tanıdım. Onun tabutu da seçilirdi. Tabutun üzərində sərilən bayraq o gün mənim Şahmarlı arzularımın kəfəni oldu. Şahmarın tabutunu 7 əsgər gətirib qarşıma qoydu. Tabut açılan an gözlərimi əllərimlə tutdum. Birdən Şahmar tanınmaz halda olar deyə, onu bir ömür elə xatırlamaq istəmədiyim üçün gözlərimi açmaqdan qorxdum. Çinarə "Aç gözlərini Gülnarə, Şahmar yenə gülür" dediyi zaman gözlərimi açdım. İlahi, sanki hər gecə yuxuya getdiyi kimi yuxuya getmişdi. Çöhrəsindən əksik olmayan o gülüşü yenə çöhrəsinə qonmuşdu. Son dəfə can yoldaşıma, sevdiyimə, məni xoşbəxt edən yarıma, xoşbəxtliyimə toxundum. "Ah Şahmar, məni kimə tapşırdın? Məni sənsiz kəm qoydun" – dedim.

Zaman çox sürətlə ötürdü. Artıq Şahmarın dəfn zamanı çatmışdı. Şahmarın dəfn olacağı yeri seçmək bizim üçün asan deyildi. "Naxçıvanda, yoxsa Bakıda dəfn olun-

sun?" Bu suala cavab vermək bizim üçün çox ağır idi. Şahmar Bakıda ev alıb, Bakıda yaşamaq arzusunda idi. Elə ona görə də onun son mənzilinin Bakı şəhərində yerləşən II Fəxri xiyabanda olmağına qərar verildi.

Şahmar o günlərdə bir nəfərin yuxusuna girib "Mən çox narahatam. Məni torpağıma qoyun" deyib. Vətənə, torpağa, bayrağa sevdalı Şahmar bayrağa bükülü tabutda torpağın qoynuna tələsdi. O anın Şahmarla çiyin-çiyinə duracağım son an olacağını bildiyim üçün bütün gücümü toplayıb qəhrəman yarımın tabutunu çiyinlərimə aldım. Buza dönmüş tabut mənim ürəyimin yanğısını söndürə bilmirdi. Şahmarın qürurla daşıdığı formanı Kamalın əynində gördükcə yaşamağa məhkum olduğumun fərqinə varırdım. "Ana, mən Azərbaycan oldum" deyən Kamal uşaq düşüncəsi ilə atasının Azərbaycana qurban olduğunu dərk edirdi. Mən yaşamağa məhkum olduğum halda məni yaşadan sevdiyimin üzərini qanı daman vətən torpağı ilə örtürdülər. Şahmarla mənim arama cismimizi ayıran sədd çəkirdilər. Mən çarəsizliyin ən böyüyünü yaşayırdım.

"Ana atam ölməyib, şəhid olub, Azərbaycan olub". Kamal o gün böyüdü. Kamal o gün artıq həyatın yüklərini çiyinlərinə aldı. Kamal o gün mənim qeydimə Şahmar kimi qaldı.

Səhəri gün haranı açdım Şahmarın şəkillərini gördüm. Bir zaman paylaşmağa qıymadığım Şahmar Azərbaycanın qəhrəmanı, bütün azərbaycanlıların doğması oldu. Mən bir gecədə çəkdiyim acıların əsirinə çevrildim. Özüm özümü tanıya bilmədim. O gündən sevgi mənim üçün rəngini dəyişdi. Şahmarın dərdi mənə dil deyib ağlamağı öyrətdi. Mən heç dərdlə dilə gəlib ağlamağı bilmirdim. Sevginin, xoşbəxtliyin hər çalarını mənə yaşadan yarım kədərin, çarəsizliyin ən boğunuq rəngini də mənə yaşatdı. Mən Şahmarla sanki gücümü itirdiyimi düşündüm. Ancaq əksinə Şahmar məni daha güclü olmağa məcbur buraxdı. Mən bu qədər güclü biri deyildim.

SƏN UCALDIN, MƏN QOCALDIM

Sən adını ucaltdın,
Mənsə sənsiz, qocaldım.
Dərdini çəkə-çəkə,
Gənc yaşımda sozaldım.

Başı qarlı dağlar da,
Tellərimdən utandı.
Sənsiz nəfəs almaqdan,
Ürəyim lap usandı.

Mənə yaman çətindir,
Ata və ana olmaq.
Sənin əmanətini,
Pisliklərdən qorumaq.

Bu dünyada qəm yükün,
Yüklәndim kürəyimə.
Yarım, şəhid dərdini,
Yığmışam ürəyimə.

Bəzən cavabsız qalır,
Kamalın sualları.
Həsrət ilə izləyir,
Gəlmədiyin yolları.

Axı necə söyləyim,
Yolunu gözləməsin?
Atalı ümidləri,
Gözlərində sönməsin.

Bilirəm böyüyəndə,
Gerçəyi anlayacaq.
Atasının adını,
Qürur ilə anacaq.

ŞAHMARSIZLIQ...

– Hər dəfə Şahmarın ad gününə sevinclə hazırlaşırdım. Ancaq ilk dəfə Şahmarın Şahmarsız ad gününə qəlbim yana-yana hazırlaşdım. Şahmarın 40-ı 29-cu ad gününə düşdü. Ancaq bu dəfə Şahmarın məzarda donub qalan yaşı dəyişmədi.

Qalibiyyət qazandığımız günün öncəki gecəsi bir yuxu görmüşdüm. Zülmətə bürünən küçədə başımı qaldırıb göy üzünə baxdığımda saysız-hesabsız Ay görmüşdüm. Yanımda olan qadın "Gülnarə, bax gör göy üzündə nə qədər Şahmar kimi şəhidlər var. Onlar bizə işıq saçır" demişdi. Həmin gecənin səhəri Azərbaycan xalqı azadlıq sevincinə qərq oldu. Şahmar və bütün şəhidlər bizlərə o azadlığı bəxş etdilər.

Uzun müddət sonra güzgüyə baxanda artıq tellərimdə bəyazın izinə rast gəldim. Şahmarsızlıq hər gün bir az tellərimə yansıyırdı. İlk dəfə Şahmarsız keçən "Sevgililər günündə" Şahmarın məzarı önündə şəkil çəkdirdim. Bir sevən qadın üçün yarını məzarda seyr etməyin o qadını hansı hala saldığının izahı elə o şəkil oldu.



SƏNSİZLİK...

Mən sənlə bu yola qədəm qoyanda,
Bilməzdim əlimdən əlin üzülər.
Ən gözəl günümdə məzarın üstə,
Göz yaşım çöhrəmdən axıb, süzülər.

Ömrü qısa oldu xoşbəxtliyimin,
Həsrətin qılıncı bağrımı dəldi.
Daha bu həyatdan umacağım yox,
Həyat sevincimi yarıda böldü.

Ah, Şahmar, sənsizlik bilsən nə qədər,
Qəm yükün yükləyir köksümün üstə.
Bəzən nəfəsim də özümü boğur,
Sənsiz yaşayıram mən dar qəfəsdə.

Şahmarsız həyatda yaşamaq mənim bu dünyada ən böyük imtahanımdır. Bu imtahandan üzüağ çıxıb Şahmarla cənnətdə qovuşmaq üçün bu dünyada hər çətinliyə tab edirəm. Yaşadığım hər gündə, aldığım hər nəfəsdə Şahmarın adını yaşatmağa çalışıram. Şahmarın adının unudulmaması üçün bir çox addımlar atmışam və atacağam. Sumqayıt şəhərindəki 1-ci mikrorayonda Şahmarın adına inşa olunan bulaq mənim və bütün Şahmarsevərlərin təsəllisidir. Ən böyük təsəlli isə xalqın şəhidə verdiyi dəyərdir.



QARA BÜRÜNÜB CAHAN

Deyirlər "Məğrur dayan,
Sən şəhid xanımısan."
Daxili çökən kəsə,
Məğrurluq gəlməz asan.

Ürəyin qan gölünə,
Döndüyü həmin zaman,
Gözlərində qaraya,
Bürünər bütün cahan.

Məzar daşı dinləyər,
Sənin hər gileyini.
Söykək olmaz həyatda,
Daha yarının çiyni.

Beləcə yaşamağa,
Məhkumtək yaşayarsan.
Özünü bu dünyanın,
Kimsəsizi sayarsan.

Ölüm günün çəkərsən,
Hər gün özünə doğru.
Sonu zülmət görünər,
Getdiyin ömür yolu.



Şahmar cismən yanımızda olmasa da, onu ruhən yanımızda hiss edirik. Bəzən Kamal səbəbsiz yerə ağlayır. Bilirəm ki, Şahmarın kürlüyünü edir. Həmin gün Şahmar bir işarə göndərir. Mənim üçün çox ağır olan bu dərdin Kamal üçün nə qədər ağır olduğunu bilirəm. Elə ona görə də dərdimi ürəyimin ən dərinində gizləyib Kamal üçün yaşayıram. Mən həm ata, həm də ana olmaq məcburiyyətindəyəm. Mən əvəzsiz olan Şahmarı əvəz edə bilmərəm. Kamal hər zaman atadan kəm qalacaq. Ancaq hər zaman Şəhid oğlu olmaqdan qürur duyacaq. Bu gün Şahmarsız yaşasam da, gücüm, qüvvətim, qüdrətim yenə də Şahmardır. Şahmar mənim həyat əsərimin baş qəhrəmanıdır.

Şahmarsız ömrümə gələn hər yaş mənim üçün yeni həsrətlərin başlanğıcıdır.

KAŞ...

Kaş sənli günlərə dönə bilərdim,
Həmin o günlərdə xəyalım qalıb.
Bir məzar sənlə mənim arama,
Bitib, tükənməyən ayrılıq salıb.

Daha gülüşümü itirmişəm mən,
Bilmirəm o duyğu nə təhər idi.
Şahmar, bu sənsizlik elə ağırdı,
Mən çəkə bilmirəm inan bu dərdi.

Bir zaman sevinclə gələn ad günüm,
İndi ürəyimə xəncər saplayır.
Sevdiyim, gözlərim yola dikilib,
Həsrətin qəlbimi yaman dağlayır.

Kaş yenə qapıdan girib deyərdin,
"Gülüm, yeni yaşın mübarək olsun."
Cənabım, cənnətə tələsirəm mən,
Sənlə yaşamaqçün sevinc duyğusun.

Bəzən Şahmarsızlıq çox ağır gəlir. Bircə dəfə qoxusunu duya bilmək üçün yalvarıram. Hər dəfə həsrətdən ürəyim çarmıxa çəkiləndə özüm özümü qınayırdım. Axı niyə Şahmarın son dəfə istifadə etdiyi hər hansı paltarı, ya əşyası məndə qalmayıb? O qədər istəyirdim ki, bircə dəfə qoxusunu duyum. Bu yaxınlarda gözləmədiyim halda mən o arzuma çatdım. 1 il 9 ay sonra Şahmar şəhid olduğu an əynində olan geyimlərini və bir neçə əşyasını gətirdilər. Sanki Şahmarı o gün itirmişəm kimi təkrar o acını yaşadım. Həyatımda ilk dəfə bir şəhidin qanlı geyimini gördüm. O şəhid mənim Şahmarım idi. Qoxunu duydum, yarım...

Şahmarın geyinə bilmədiyi hərbi formalarını isə muzeyə vermişəm. Xalqın qüruru olan şəhidin kəfən bildiyi hərbi formasını görənlər, adını duyanlar qürur ilə söyləyir:

"Azərbaycanımızdan bir Şahmar gəldi, keçdi,
Şəhadət zirvəsini özünə məskən seçdi".

ATASIZLIQ...

Şahmarın olmadığı həyatda zaman ötür, fəsillər dəyişir. Şahmarın adı tarixə, xatirələri isə yaddaşlara həkk olunub. Atası şəhid olanda 3 yaşı tamam olmayan bir uşaq atalı xatirələri xatırlaya bildiyi qədər xatırlayır. Ancaq dilə gətirdiyi atasızlığı ilə hər kəsin qəlbinə dağ çəkir.

– Şahmar atam gələcək. O, uzaqdadır. Ona görə çoxdandır gələ bilmir. Ancaq gələcək. Mən atam üçün çox darıxmışam. İstəyirəm daha gəlsin. Mən atamla parka getmək, yenə əvvəlki kimi zaman keçirmək istəyirəm. Yoldaşlarımdan kimsə mənə "Sənin atan ölüb" deyəndə mən çox pis oluram. Axı mən bilirəm ki, mənim atam ölməyib, şəhid olub, Azərbaycan olub. İstəyirəm ki, yoldaşlarım da bilsinlər ki, şəhidlər ölmür. Yəqin onlara anaları başa salmayıb ki, şəhidlər həmişəlik vətəni qoruyurlar. Mən Azərbaycana (*II Fəxri xiyabanı nəzərdə tutur.*) gedəndə istəyirəm atamı əvvəllər gördüyüm kimi görüm. İstəyirəm mən atamı qucaqlayanda atam da məni qucaqlasın. Atam məni qucaqlamır deyə hərdən atamdan küsürəm. Ona görə də bir az uzaqda dayanıb anamın atamla söhbət etməsini gözləyirəm. Atam məni qucaqlamır deyə anamdan gizlin ağlayıram. Bilirəm ki, anam mənim ağladığımı görsə, çox üzülər. Onsuzda anam hər gecə gizlin-gizlin ağlayır. Bir də mənim ağladığımı görüb üzülməyini istəmirəm. Atamı elə görməyə çox dözə bilmirəm. Ona görə də hər zaman anamdan evə tez getməyimizi istəyirəm. Ən çox da atamın üzündən öpməyə boyum çatmır deyə pis oluram. Əvvəllər atam əyilərdi,



üzündən öpərdim. İndi isə boyum çatmır deyə əlindən öpürəm. Mən tez böyüməyi həm də ona görə istəyirəm ki, atamın üzündən öpməyə boyum çatsın.

Mənim iki qəhrəmanım var. Biri atam, biri anam. Atam həm də bütün Azərbaycanın qəhrəmanıdır. Anam isə atamla mənim qəhrəmanımdır. Mən atamla qürur duyuram. Elə özümlə də. Çünki mən Quliyev Kəmaləddin Şahmar oğluyam.

Kəmaləddin (Kamal) dilə gətirdiyi bəzi arzuların heç zaman gerçək olmayacağını bildiyini davranışları ilə təsdiqləsə də, sözləri və gözləri atasının yollarını gözlədiyini bəlli edir.



KAMALIN ATA HƏSRƏTİ

Kəm qalan arzular qəlbi dağlayır,
Dərdini çəkənlər sənsiz ağlayır.
Kamalın atasın hey soraqlayır,
Cavabsız suallar ürəyi deşir
Sənsiz zaman ötür, fəsil dəyişir.

Sən olan bu dünya sanki sınaqdır,
Dərdin ürəklərdə ucalan dağdır.
Şəhid məzarları xalqa dayaqdır,
Xalqın əzəməti, xalqın vüqarı
Bu vətən unutmaz Şəhid Şahmarı.

Kamalın qəlbində dərd böyüyəcək,
Verdiyi suallar qəddi bükəcək.
O ata yerinə məzar öpəcək,
Qəbrinə düşəcək gözünün yaşı
Ata sığalına həsrətdir başı.

"Atam uzaqdadı" deyir Kamalın,
Qəlbində gizlədib dərdin, məlalın.
Torpağa dəfn etdi o, cah-cəlalın,
Vətən ata adlı sərvəti oldu
Adını duyanda gözləri doldu.

ŞAHMARIN ORDEN VƏ MEDALLARI

Şahmar Azərbaycanın hərb tarixinə qızıl hərflərlə yazılan, qalibiyyətlə sonlanan iki müharibənin, Aprel döyüşlərinin və Vətən müharibəsinin qəhrəmanı kimi adını tarixə yazıb. Aprel döyüşlərinin canlı şahidi olan Şahmarın adı Vətən müharibəsi şəhidləri sırasındadır. Qəhrəmanlığı, şücaətləri, döyüş əzmi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən yüksək qiymətləndirilən kapitan Quliyev Şahmar Kəmaləddin oğlu şəhadətindən sonra bu medallara layiq görülüb:

"Vətən uğrunda" medalı

"Suqovuşanın azad olunmasına görə" medalı

"Vətənə xidmətə görə" 3-cü dərəcəli orden

Şahmar orduda xidmət etdiyi zaman da zəhməti qiymətləndirilmiş və "Azərbaycan Ordusunun 100 illiyi" yubiley medalı ilə təltif edilmişdir.



YANAN ARZULARLA ÜMİD İSİNDİ

Köksündə mərmilər iz salan yurdda,
Bir oğul böyüyüb, imdada yetdi.
Yurda sipər olan qəhrəmanlartək,
Şahmar da cismini bir sipər etdi.

Öpüb şəhid ruhu hopan torpağı,
Şəhidlər ruhunu o şad elədi.
Allahın şəhidtək seçdiyi kəsin,
Cənnətdə şəhidlər yolun gözlədi.

Ümid çırağını Şahmar yandırdı,
Şəhidlər şahidi olan Tərtərin.
Ardınca dikilən gözdən çəkmişdir,
Önə addımlayan igid gözlərin.

O göz Qarabağı seyr etmək üçün,
Arzular yandırıb, ümid isitdi.
Naxçıvan torpağı yetirən ərən,
Şəhidtək ən böyük arzuya yetdi.

Öpdü son nəfəsi vətən torpağın,
O nəfəs bayrağı titrətdi o an.
Bayraq zirvələrdən enməsin deyə,
Şahmar qəhrəmantək verdi əziz can.

ŞAHMARIN EŞQ ƏSƏRİ

"ŞAHMARIN EŞQ ƏSƏRİ" kitabı Şahmarın ürəklərə, tarixin yaddaşına və vətən torpağına yazdığı bir əsərdir. Şahmar kimi bir qəhrəmanın həyatından, vətənə və ailəsinə olan sevgisindən bəhs olunan bir kitabı ərsəyə gətirməyin çətin və məsuliyyətli olduğunu bilirdim.

Şahmarı "Vətən Fədailəri:Naxçıvan şəhidləri" kitabını ərsəyə gətirən zaman tanımışdım. Elə o zamandan eşqinə heyran olmuşdum.

Şahmarı hər addımında ləyaqətlə yaşadan Gülnarə xanım mənə Şahmarın ömür və döyüş yolundan bəhs olunan bir kitab yazmağı təklif edəndə sanki Şahmarı yanımda hiss etdim. O təklifi qəbul edib kitabı yazmağa başladığım ilk andan sanki Şahmar əlimdən tutub bu kitabı yazdırdı (*Elə duyğular yaşadım ki, izah etməkdə kəlmələr acizdir*). Biz Gülnarə xanımla bir ömür yolunun izinə düşdük. Bu yol Şahmarın şərəflə addımladığı yolun izi idi: Şahmarın dünyaya gəlişindən şəhid kimi cənnətə qədəm qoyduğu günə qədər. Şahmarlı həyatı və Şahmarın doğmalarının Şahmarsızlığını dinləyərkən mən Şahmarın vətən və yar eşqini ayrılıqda yazmaq qərarına gəldim. Bir ömrə iki eşq sığdıran Şahmar kimi bir kitaba iki eşq əsəri sığdırdım. Əslində bu kitab Şahmarın 28 illik ömrünün qısa özətidir. Şahmar kimi bir qəhrəmanın həyatından cild-cild kitablar yazmaq olar.

"Vətən Fədailəri" layihəsi çərçivəsində ərsəyə gələn bu kitab Şahmarın güzgüyə düşən əksidir. Bu kitabı ərsəyə gətirməyimə vasitəçi olan Quliyev Şahmar Kəmaləddin oğlunun xanımı Gülnarə xanıma bir qəhrəman həyatından

bəhs olunan kitabı yazmağı mənə həvalə etdiyi üçün təşəkkür edirəm. Onu da qeyd edim ki, kitabın maliyyə xərcləri də şəhidimizin xanımı Gülnarə xanım tərəfindən qarşılanıb. "Vətən Fədailəri" layihəsi çərçivəsində layihənin dəstəkçisi mayor Məmmədov Rasim Əbdül oğlunun qardaşı Şahin Məmmədovla birlikdə neçə-neçə Şahmar və onun kimi qəhrəmanların adlarının daşlarda deyil, yaddaşlarda qalmağına çalışacağıq.

Bu kitabı oxuyan hər kəs Şahmarı sanki illərdi tanıdığını düşünəcək. Şahmarı tanıyanlar xatirələrə dalacaq, tanımayanlar xəyallarında canlandıracaq. Hər kəs vətən fədaisinin fəda olduğu vətənə daha böyük eşqlə bağlanacaq. Çünki vətən Şahmarın eşq əsəridir.

MÜQƏDDƏS EŞQİM

Mən hələ dünyadan doymamışdım ki,
Dünya əllərini üzdü əlimdən.
Ağlım kəsən andan vətən kəlməsi,
Heç zaman düşmədi mənim dilimdən.

Vətəni sevməyə ürək gərəkdir,
Tək sözdə sevilməz müqəddəs vətən.
Vətən sevgisini yaşam eşqimlə,
Hər zaman tuturdum bərabər və tən.

O eşq yollarının fədaisi çox,
Neçə ümid, arzu o yola qurban.
Allahdır müqəddəs vətən eşqini,
Şəhid ürəyinə daha gur salan.

Eşqimin nuruna qərq olub vətən,
Cənnətin nuruna qərq olduğumtək.
Mən peyman bağladım vətənim ilə,
Bayrağı, torpağı eşqlə öpərək.

Ömrümü eşqimə qurban verəndən,
Yarım eşq bağında tək-tənha qalıb.
Yarın təsəllisi odur ki, yarı,
Cənnətdə şəhidtək bir məskən salıb.



MÜQƏDDƏS VƏTƏNİN MÜQƏDDƏSLƏRİ

Hər biri cahan boydadır şəhid məzarlarının. Hər biri vətən qədər əzizdir. Elə ona görə də onların uyuduqları məkan bizim üçün müqəddəs sayılır. Azərbaycanın hər kəndində, hər şəhərində müqəddəs şəhid məzarları, Şəhidlər xiyabanı var. O müqəddəs yerlərdən biri də II Fəxri xiyabandır.

Neçə-neçə qəhrəmanın son mənzili olan, bayraqların və başdaşılarının əsgər kimi çiyin-çiyinə durduğu xiyaban. Elə girişindən artmağa başlayır qəlbin nisgili. Məzarlara yaxınlaşdıqca qəlb döyüntüsü məzarları döyəcləyir, göz yaşları məzarları yuyur.

Məzarlara söykənən dərdlilərə dayaq olmaq istəyirsən. Ancaq həmin an bir anda daxilindən çökdüyünü hiss edirsən. Bir də hər məzarda həkk olan tarixləri gördükcə bir az da utanırsan. Sən azad vətəndə yaşa deyə canından keçənlərin daş məzarda donan baxışlarından utanırsan.

Vətən fədailərinin unudulmaması üçün atılan addımlardan biri də Quliyev Şahmar Kəmaləddin oğluna həsr etdiyim "ŞAHMARIN EŞQ ƏSƏRİ" kitabıdır. Kitabı ilk yazmağa başladığım gündən dəfələrlə ziyarətində olduğum şəhidimi yenə də ziyarət etmək arzusunda idim. Ancaq qismətimə o ziyarət kitabı nəşriyyata təhvil verəcəyim günə yazılıbmış. "Vətən Fədailəri" layihəsinin dəstəkçisi Şahin Məmmədovla bərabər həyata keçirdiyimiz həmin ziyarət Aşura gününə təsadüf etdi. Həmin gün sanki yer də, göy də şəhidlərə ağlayırdı. Allah, din, vətən, torpaq, xalq yolunda canından keçən şəhidlər hər kəsin sağalmayan qəlb yarası, eyni zamanda da qürurudur. Biz də o duyğuları eyni anda yaşadıq. Yaşatmaq üçün yaşadığımız ömrümüzdə yaşanılan həmin gün yaddaşımıza həkk olundu. Bir də sətirlərdə o günü yaşatmaq istədim.

MÜQƏDDƏS MƏKAN

Elə bil qəlbimin üstə ucalıb,
Vətən böyüklükdə bu başdaşları.
İlahi, mənə məndən də doğmadır,
Şəhid qardaşların son baxışları.

Hər biri dil açıb danışır sanki,
Hərəsi bir nakam arzusun deyir.
İlahi, qəlbimin bu ağır yükü,
Cismimin, ruhumun qəddini əyir.

Bir vaxt tanımadığım bu tanışların,
Adı da doğmadır, sürətləri də.
İlahi, bəxtləri bənzər olan tək,
Qəlbdə bərabərdir həsrətləri də.

Hər daşın altında bir ərən yatır,
Torpağın altında sərvətimiz var.
İlahi, vətəni xilas elədi,
Düşmən pəncəsindən şəhid oğullar.

Şəhidlər uyuyan Fəxri xiyaban,
Bu xalqın and yeri, səcdəgahıdır.
İlahi, məzarda əks olan günəş,
Bu xalqın işıqlı, xoş sabahıdır.

08.08.2022



MƏNLİYİM SƏNSƏN, VƏTƏN

Sənə görə hər acı,
Başım, gözüm üstünə.
Yetər ki, sən boğulma,
Yanaraq öz tüstünə.

Arzularda yer aldı,
Mən sənə layiq olum.
Vətən, sənə sarıdır,
Dönülməyən haqq yolum.

Sən olmasan mən kimәm?
Mənliyim sənsən, vətən.
Şəhadət yolu ilə,
Ömür yolum oldu tən.

Sənin başın sağ olsun,
Ruhumunsa üzüağ...
Əbədi sönməyəcək,
Ruhumda yanan çıraq.

Nur saçacam şəhidtək,
Torpağına, daşına.
Yenə pərvanə olub,
Dolanacam başına.

Küləyin həzin-həzin,
Mənə lay-lay deyəcək.
Daşlaşan baxışlarım,
Sonsuzadək güləcək.

Sən də gül, ana vətən,
Gözlərin çox ağladı.
Gen düşən səadətin,
Qəlbimi çox dağladı.

Zəfərin işığını,
Çək qaşına, gözünə.
İllər sonra azadlıq,
Qovuşdu gün üzünə.



ADIMI UNUTMAYIN

Qəlbinizdən mən adlı bir həsrət boylananda,
Bir az torpaq qoxuyun, biraz bayrağa baxın.
Vətənin hər daşını,
Mənim məzar daşımtək öz köksünüzə sıxın.
Adıma "Vətən" deyin,
Hər məni səsləyəndə başınızı dik tutun.
Gərəksə mənim kimi,
Siz də qadasın alın, qadası bitməz yurdun.
Bir udumluq ömrümə,
Ömür fəda edərək ömrünüzdən olmayın.
Unutmayın, şəhidlər,
Cənnətdə yaşayırlar şərəfli ömrün ardın.
Qanla yazılan tarix,
Bir də vətən torpağı əmanətimdir sizə.
Mən tarixə yazmışam,
Siz də adımı yazın əbədi qəlbinizə.

KİTABIN İÇİNDƏKİLƏR

Unutmayaq ki, unudulmasınlar! 5

EŞQLƏRİN ƏN BÖYÜYÜ – VƏTƏN EŞQİ

İlk nəfəs 10
Vətənə tən oğul 11
Şəhid olan arzular 12
Məktəbdən başlayan Vətən dərsi 15
Gözəl sevdin vətəni 19
Heydər Əliyev adına Hərbi Liseyin kursantı 21
Kursant ömrünə nur saçan müəllim 25
Biri var, biri yoxdur 28
Yeri dolmayan dost 30
Komandir və gizir dostluğu 33
Rütbəsi ilə deyil, insanlığı ilə ucalan komandir 36
Sədaqətli dost 38
Unudulmaz dost 39
Aprel döyüşləri 40
Naxçıvanın qəhrəman oğulları 43
Böyük amala qurban gedən arzular 45
İki dost – iki nakam həyat *(Samir və Şahmar dostluğu)* 47
Ayrılmaz dostlar 49
Xilaskar 50
Son nəfəsin şahidi 53
Son nəfəs 55
İki dünyanın ayrılmazları 56
Əbədi dost qalanlar 58

HƏYATIN SON,
ƏBƏDİYYƏTİN İLK GÜNÜ

Qardaşın qardaş həsrəti....59
Qardaş həsrətim....61
Atanın oğul həsrəti....62
Adın fəxarətimdir....64
Ananın oğul həsrəti....65
Şahmarım....67
Bacının qardaş həsrəti....68
Həm qardaşdın, həm bala....72
Qardaş qədər doğma insan....73
Arzulara çatmadın....75
Mənə "öldü" deməyin....76

EŞQİN 39 FƏSLİ

"Şahmara deyiləcək o qədər sözüm var ki..."....79
Eşqə ünvan iki qəlb....83
Sevdiyim qadın....93
Ürəyimin sahibi....94
Qisasın alan igid....103
Vətənə dönən ata....112
Sevgisi mayaq şəhid....121
Önə əyilməsin önündə başım....124
İyirmi səkkiz il ömür yaşadın....127
Sevinci donan qadın....134
Bilsəydim....149
Sən ucaldın, mən qocaldım....154
Şahmarsızlıq…....155
Sənsizlik....156
Qara bürünüb cahan....158
Kaş....160
Atasızlıq....162
Kamalın ata həsrəti....166
Şahmarın orden və medalları....167

Yanan arzularla ümid isindi....169
Şahmarın eşq əsəri....170
Müqəddəs eşqim....172
Müqəddəs vətənin müqəddəsləri....174
Müqəddəs məkan....175
Mənliyim sənsən, Vətən....177
Adımı unutmayın....180

Manya Səxavətqızı
ŞAHMARIN EŞQ ƏSƏRİ
Bakı, "Təhsil", 2022.

Kompüterçi dizaynerlər *Səbinə Məmmədova,*
Mirəziz Sadıqzadə,
Zamiq Əzizoğlu
Üz qabığı *Gülnarə Əliyeva*
Korrektoru *Mətanət Kərimova*

Çapa imzalanmışdır 01.09.2022. Kağız formatı 60x90 1/16.
Fiziki çap vərəqi 11,5. Sifariş 72. Tiraj 250.

"Təhsil Nəşriyyat-Poliqrafiya"
müəssisəsinin mətbəəsində çap olunmuşdur.

Bakı, AZ 1052, Fətəli xan Xoyski küç., 149
Tel.: (994 12) 567 81 28/29
Faks: (994 12) 567 82 68
e-mail: tahsil_az@yahoo.com



Manya Səxavətqızı 1 sentyabr 1988-ci ildə İmişli rayonunda anadan olub. "Yazılmayan sətirlər darıxır", "On üç yarpaq", "Fədailər" kitablarının müəllifi, "Vətən mücahidləri" layihəsinin həmrəhbəri, "Vətən Fədailəri" layihəsinin rəhbəri, "Vətən Fədailəri : Naxçıvan şəhidləri", "Vətən Fədailəri : İmişli şəhidləri" kitablarının müəllifidir.

Şeirləri müntəzəm olaraq dövrü mətbuatda dərc edilir. Yaradıcılığında əsasən vətənpərvərliyin təbliğatına, şəhidlərimizin tanıdılmasına geniş yer verir.

Ailəlidir, 2 övladı var.

EŞQİN 39 FƏSLİ

